HESABAT

Miqrasiya üzrə Regional Təlim Mərkəzi (MRTM) Kontekstində Miqrasiya İdarəçiliyi və Miqrasiya Potensialının İnkişafı üzrə Çatışmazlıqların Təhlili və Ehtiyacların Qiymətləndirilməsi

Sentyabr 2021-ci il

Bu hesabat **BMqT-nin Azərbaycandakı Nümayəndəliyinin İnkişaf Fondu** tərəfindən maliyyələşdirilmişdir.

Bu hesabat BMqT-nin Beynəlxalq Məsləhətçisi **İsabelle Mihoubi-Astor** tərəfindən hazırlanmışdır.

Məsuliyyətdən imtina: Bu hesabatda ifadə edilən məlumatlar və fikirlər yalnız müəllifin fikirləridir və qəti surətdə Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) və ya bu prosesdə iştirak edən hər hansı maraqlı tərəfin baxışlarını əks etdirmir.

MÜNDƏRİCAT

AKRONİMLƏRİN SİYAHISI 4

GİRİŞ 7

Kontekst 7
Aparıcı Prinsiplər 7
Hesabatın Əhatə dairəsi 8
Əsas Tədqiqat Fəaliyyətləri 8
Metodoloji Yanaşma 9
Maraqlı Tərəflər ilə Məsləhətləşmə prosesinin Nəticəsi 11
Nəticə 13

FƏSİL 1 MİQRASİYA İDARƏÇİLİYİNDƏ REGİONAL ÇATIŞMAZLIQLARIN TƏHLİLİ 14

Ümumi Regional Xülasə 14

Miqrasiya üzrə İnstitusional Çərçivələr 15

Siyasətin Hazırlanması və Siyasətin Həyata Keçirilməsi 17
Ümumi Məlumat 17
Mövcud Miqrasiya Siyasəti Çərçivələri və DİM-lərin Siyasətin Formalaşdırılmasında rolu haqqında Ümumi Məlumat 19
Siyasətin Hazırlanması Prosesində Problemlər və Çatışmazlıqlar 23
Siyasətin Həyata Keçirilməsində Əsas Problemlər 26

Miqrasiyaya dair Qanunvericilik Çərçivəsi 28
Beynəlxalq Hüquq 28
Qanunvericiliyin Region üzrə Xülasəsi 29
Əsas Hüquqi Çatışmazlıqların Təqdimatı 29

Çatışmazlıqların müəyyən edildiyi Əsas Miqrasiya Mövzularının Xülasəsi 30
Qeyri-qanuni miqrasiyaya qarşı mübarizə 30
Hərəkətlilik və Qanuni Miqrasiya 35
Miqrasiya və İnkişaf 39
Böhran Vəziyyətlərində Miqrasiya 40
Müdafiə və İnsan Hüquqları 42
Miqrasiya və Ətraf Mühit 43

Məlumatların Toplanması və Məlumatların Təhlili 44
*Məlumatların Toplanması və Məlumatların Təhlili*ndə əsas nailiyyətlər haqqında Ümumi Məlumat . 44
Məlumatların Toplanması və Məlumatların Təhlili sahəsində Çatışmazlıqların və Ehtiyacların Təhlili 45

Beynəlxalq Əməkdaşlıq 46
Regional Xülasə 46
BMqT ilə Əməkdaşlıq və Miqrasiya üzrə Qlobal Sazişin rolu 47
Digər Əsas BMT tərəfdaş Agentlikləri ilə Əməkdaşlıq 48
Aİ ilə Əməkdaşlıq 49

Vətəndaş Cəmiyyəti və Digər Qeyri-Hökumət Təşkilatları ilə Əməkdaşlıq 52

Regional Xülasə 52
QHT-lər, Miqrant Assosasiyaları və Miqrantların özləri ilə Əməkdaşlıq 52
Özəl Sektor ilə Əməkdaşlıq 54
Ali Təhsil Müəssisələri ilə Əməkdaşlıq 57
Media ilə Əməkdaşlıq 58

FƏSİL 2 TƏLİM POTENSİALININ İNKİŞAFI SAHƏSİNDƏ ÇATIŞMAZLIQLARIN TƏHLİLİ 61

Giriş 61

Miqrasiya İdarəçiliyi sahəsində Milli Təlim Təşkilatları və Kurikulumlar 61
Ümumi məlumat 61
Tövsiyələr 63

Hökümət məmurları üçün potensialın artırılması fəaliyyətlərinin Planlaşdırılması və Həyata Keçirilməsi 63
Təlim Planları 63
Təlim Büdcəsi 64

Potensialın artırılması sahəsində Məlumatların Toplanması və Təhlili 65
Statistika 65
Dəyərləndirmə sistemləri və təlimin təsirinin qiymətləndirilməsi 65

Təlim materialları və Təlimat Kitabları 65

Son üç il ərzində Regionda Əsas Təlim Tendensiyalarının Xülasəsi 66
Təlimçilər və Təlim alanlar haqqında Ümumi Məlumat 66
Təlimin əhatə dairəsi, məzmunu və həcmi 66
Hədəf auditoriya/ Təlimin Benefisiarları 69
Beynəlxalq Təşkilatların və VCT-lərin təlimin təmin edilməsində rolu 69
Təlimdən başqa potensialın artırılması fəaliyyətləri 70

FƏSİL 3 REGİONAL TƏLİM EHTİYACLARININ MÜƏYYƏN OLUNMASI 72

Giriş 72
Müəyyən etmə parametrlərinin təqdim olunması 73
Maraqlı tərəflər/hədəf qruplar və iştirak səviyyəsi 73
Növbəti Mərhələ 73

Maraqlı Tərəflər tərəfindən ifadə edilən Təlim Ehtiyacları 73
Təlim Ehtiyaclarının Yekun Cədvəli 73
Cədvəlin Təhlili 75
Nəticələr 78

FƏSİL 4 MRTM-in MİQRASİYA ÜZRƏ KURİKULUMUNUN PLANI 79

Giriş ***79***

Planın layihəsi (Modullar üzrə) 80

ƏLAVƏLƏRİN SİYAHISI 88

AKRONOMLƏRİN VƏ İXTİSARLARIN SİYAHISI

AA	Assosiasiya Sazişi
AP	Fəaliyyət Planı
AVRR	Yardımlı Könüllü Qayıdış və Reinteqrasiya
BAFIA	Əcnəbilər və Əcnəbi Miqrantların İşləri üzrə Büro
BMA	Miqrasiya və Sığınacaq Bürosu
BOMCA	Orta Asiya və Əfqanıstanda Sərhəd İdarəetmə Proqramı
CEDAW	Qadınlara qarşı ayrı-seçkiliyinin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya
CoE	Avropa Şurası
CSO	Vətəndaş Cəmiyyəti Təşkilatı
DCFTA	Dərin və Hərtərəfli Azad Ticarət Sazişi
EaP	Şərq Tərəfdaşlığı
ECHR	Avropa İnsan Hüquqları Konvensiyası
ECoHR	Avropa İnsan Hüquqları Məhkəməsi
EMP	Geniş Miqrasiya Profili
EU	Avropa İttifaqı
EUBAM	Aİ-nin Moldova və Ukraynaya Sərhəd Yardımı Missiyası
EUC	Avropa İttifaqı Komissiyası
EUD	Avropa İttifaqı Nümayəndəliyi
EU MS	Avropa İttifaqı Üzv Dövlətləri
EU VLAP	Aİ-nin Viza Rejiminin Liberallaşdırılmasına dair Fəaliyyət Planı
GBV	Gender-əsaslı zorakılıq
GCM	Miqrasiya üzrə Qlobal Saziş

GCR	Qaçqınlar haqqında Qlobal Saziş
IBM	İnteqrə edilmiş sərhəd idarəçiliyi
ICMPD	Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz
IDP	Məcburi köçkünlər
IOM	Beynəlxalq Miqrasiya Təşkilatı
MCC	Miqrasiya Yetkinlik Mərkəzi
MENA	Yaxın Şərq və Şimali Afrika
M&E	Monitorinq və Dəyərləndirmə
MFA	Xarici İşlər Nazirliyi
MIA	Daxili İşlər Nazirliyi
MMP	Orta Miqrasiya Profili
MobP	Mobillik Tərəfdaşlığı
MP	Miqrasiya Profili
N/A	Mövcud deyil
NGO	Qeyri-Hökumət Təşkilatı
ODIHR	ATƏT -in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu
OSCE	Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
PCA	Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi
PI	İctimaiyyət üçün açıq məlumatlar
PR	İctimaiyyətlə Əlaqələr
RTCM	Miqrasiya üzrə Regional Təlim Mərkəzi
SCMI	Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyası
SDGs	Dayanıqlı İnkişaf Məqsədləri
SFDI	Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu
SMS	Dövlət Miqrasiya Xidməti

SSAR	Əfqan qaçqınlar üçün həll yollarının axtarışı Strategiyası
TIP	İnsan Alveri
THB	İnsan Alveri
TOT	Təlimçilərin Təlimi
UMAS	Vahid Miqrasiya Məlumatları Təhlili Sistemi
UNAM	Müşayiət olunmayan azyaşlılar
UN CAT	BMT-nin İşgəncələrə qarşı Konvensiyası
UNCT	BMT-nin ölkə üzrə qrupu
UNDP	BMT-nin İnkişaf Proqramı
UNFPA	BMT-nin Əhali Fondu
UNHCR	BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı
UNICEF	BMT-nin Beynəlxalq Fövqəladə Uşaqlara Yardım Fondu
UNNM	BMT-nin Miqrasiya üzrə Şəbəkəsi
UNRC	BMT-nin Rezident Əlaqələndiricisi
US DS	Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti
WB	Dünya Bankı
WG	İşçi Qrupu
WP	İş Planı

GİRİŞ

1. Kontekst

- **Texniki Tapşırıq**

Bu hesabat Miqrasiya üzrə Regional Təlim Mərkəzinin (MRTM) yaradılması nəzərdə tutulan BMqT Layihəsinin Texniki Tapşırığına əsasən hazırlanmışdır.

Layihənin ümumi məqsədi Bakıda, Azərbaycanda yerləşən MRTM-in yaradılmasına dəstək verməkdir və BMqT layihəsinin konkret məqsədi layihənin hədəf ölkələrində **miqrasiya təlimi ehtiyaclarının qiymətləndirilməsini** aparmaqdır.

Layihənin Texniki Tapşırıqları bu hesabata əlavə olunur (Əlavə 1)

- **İştirakçı Ölkələr və Maraqlı Tərəflər**

Layihənin əsas maraqlı tərəfləri aşağıdakılardır:
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti (DMX) və BMqT-nin Azərbaycanda və layihənin digər iştirakçı ölkələrindəki nümayəndəlikləri
Hesabatın hazırlanması prosesi Azərbaycan Respublikası DMX və BMqT-nin Azərbaycandakı Nümayəndəliyi tərəfindən dəstəklənmiş və müşayiət olunmuşdur. Bu proses regionda layihənin hədəf ölkələrinə daxil olan ölkələrin tam iştirakı ilə həyata keçirilmişdir.

Bu prosesi dəstəkləyən bütün əsas sənədlər DMX və BMqT tərəfindən təsdiq edilmişdir. Bu, xüsusilə, aşağıdakılara aiddir:

- Tədqiqat metodologiyası (Əlavə 2)
- İş Planı (Əlavə 3)
- Hökumətdən olan maraqlı tərəflər üçün hərtərəfli Anket (Əlavə 4),
- VCT-lər üçün Anket (Əlavə 5)
- Media üçün xüsusi Anket (Əlavə 6)

Layihənin hədəf ölkələri aşağıdakılardır:

- Azərbaycan Respublikası
- Belarus Respublikası
- Gürcüstan
- İran İslam Respublikası
- Qazaxıstan Respublikası
- Qırğızıstan Respublikası
- Moldova Respublikası
- Rusiya Federasiyası
- Tacikistan Respublikası
- Türkiyə Respublikası

- Türkmənistan Respublikası
- Ukrayna **(iştirak dərəcəsi hələ müəyyən edilməlidir)**
- Özbəkistan Respublikası

2. **Tədqiqatın aparılmasında <u>aparıcı prinsiplər</u> aşağıdakılardır:**

   - **Şəffaflıq və Məsləhətləşmə**
   - **Neytrallıq**
   - **Hər şeyin əhatə olunması**
   - **Gender üzrə məlumatların işıqlandırılması** (statistik məlumatlarda və keyfiyyət təhlilində əks olunur)
   - **Keyfiyyətə əsaslanan yanaşmanın** təmin edilməsi
   - **MRTM -in bütün** iştirakçı **ölkələr üçün faydalı olmasının** təmin edilməsi
   - MRTM -in **Dayanıqlılıq Məqsədinin** Dəstəklənməsi

3. **<u>Ehtiyacların Qiymətləndirilməsinə dair Hesabatının əhatə dairəsi</u>**

Ehtiyacların qiymətləndirilməsinin əhatə dairəsi geniş idi, çünki o, aşağıdakılara yönəldilmişdi:

- miqrasiyanın bütün sahələrini əhatə etmək (Miqrasiya üzrə Qlobal Sazişdə əks olunduğu kimi),
- idarələrarası (sahələrarası) məsələləri daxil etmək (insan hüquqları, gender və ətraf mühit),
- həm Miqrasiya idarəçiliyi (siyasətin hazırlanmasından həyata keçirilməsinədək), həm də potensialın artırılması ehtiyaclarını həll etmək,
- maraqlı tərəflərin əhatəliliyini təmin etmək: Hökumətdən olan maraqlı tərəflər və BMqT-yə əlavə olaraq, tədqiqat geniş diapazonda maraqlı tərəfləri (ali təhsil müəssisələri, təlim təşkilatları, media qurumları, miqrant assosasiyaları, Parlament, məhkəmə orqanları, ombudsmanlar, diaspora assosasiyaları, özəl sektor və s.) əhatə etməyə yönəldilmişdir.

Tədqiqatın əhatə dairəsi Azərbaycan Respublikasının DMX və BMqT-nin Azərbaycandakı Nümayəndəliyi ilə birgə müəyyən edilmişdir. Bu, xüsusilə, MRTM-in məqsədinin həm regional siyasət dialoqu, həm də təlim üçün mərkəz kimi xidmət etmək olduğu bildirildiyi DMX ilə keçirilən tanışlıq görüşündə Ekspertlər Qrupuna ifadə edilmişdir.

4. **<u>Əsas nəticələr/Tədqiqat çərçivəsində aparılan fəaliyyətlər:</u>**

- Vəziyyətin xəritəsini hazırlamaq və bütün hədəf ölkələrdə **Miqrasiya İdarəçiliyində** çatışmazlıqları müəyyənləşdirmək.
- **Mövcud təlim/potensialın artırılması fəaliyyətlərinin xəritəsini müəyyən etmək və təlim ehtiyaclarını qiymətləndirmək** (bütün maraqlı tərəflər üçün (təlimə keyfiyyət yanaşması).
- Miqrasiya idarəçiliyi və təlimi sahəsində <u>mövcud regional/sub-regional/ikitərəfli dialoq ehtiyaclarını və prioritet ehtiyacları</u> müəyyən etmək.

- **Regionda** (və regiondan kənarda) **miqrasiya ekspertlərini** müəyyənləşdirmək və **ekspertlər ehtiyatı kimi** xidmət edəcək bir siyahı hazırlamaq.

MRTM üzrə baxış Metodologiyada (BMqT, DMX və bütün əsas maraqlı tərəflər tərəfindən təsdiq edilən) öz əksini tapmışdır və bu hesabatın hazırlanmasına gətirib çıxaran prosesin altı ayı ərzində ekspertlər tərəfindən aparılan işlərdə rəhbər tutulmuşdir. Miqrasiya idarəçiliyi sahəsində həm dialoq, həm də təlim baxımından çatışmazlıqları və ehtiyacları müəyyən etdiyindən (hər ikisi bir-biri ilə əlaqəlidir, lakin fərqli idarəetmə səviyyələrinə yönəldilmişdir) (siyasəti qəbul edənlər və yüksək səviyyəli və ya orta səviyyəli rəhbərlər, həmçinin, siyasəti həyata keçirənlər), bu hesabatın strukturu müvafiq olaraq o iddialı məqsədləri əks etdirir. Bu hesabatın məqsədi, maraqlı tərəflər ilə sıx şəkildə məsləhətləşərək MRTM-in gələcək Yol Xəritəsini hazırlamaq üçün zəmin yaratmaqdır.

5. Metodoloji yanaşma:

Tədqiqat 9 Mart 2021-ci il tarixində Azərbaycan Respublikası DMX, BMqT və digər maraqlı tərəflər tərəfindən təsdiq edilən Metodologiya əsasında aparılmışdır. Metodologiya, həmçinin 9 Mart 2021-ci il tarixində təsdiq edilən İş Planı ilə birlikdə verilir. Metodologiyanın və İş Planının tam mətni bu hesabata əlavə olunur (Əlavə 2 və Əlavə 3-ə baxın).

- Tədqiqat Qrupu

Tədqiqat dörd Məsləhətçi/miqrasiya ekspertindən ibarət qrup (Beynəlxalq məsləhətçi tərəfindən rəhbərlik edilən üç Milli məsləhətçi) tərəfindən aparılmışdır.

- Beynəlxalq məsləhətçi: **Xanım Isabelle Mihoubi-Astor**
- Milli məsləhətçilər: **x-m Aygün Hüseynli, x-m Könül Cəfərova** və **x-m Rübabə Məmmədova**

Texniki Tapşırıqlara uyğun olaraq, Milli məsləhətçilər maraqlı tərəflər ilə məsləhətləşmə prosesi keçirdilər və ölkə hesabatlarını hazırladılar (bu hesabatlar əlifba sırası ilə ölkələr üzrə bu hesabatın 8-ci Əlavəsində təqdim olunur) Beynəlxalq məsləhətçi çatışmazlıqların təhlili prosesinin regional uyğunluğunun təmin edilməsindən məsul idi və o, Hesabatın Regional Perspektivlərini hazırlamışdır (I, II, III və IV Fəsillər).

- **Məlumatların toplanması üsulu**

Bu, **ilkin və ikinci dəfə toplanan məlumatların birləşməsindən** ibarətdir**:**

- Ikinci dəfə toplanan məlumatlar Milli məsləhətçilər tərəfindən kabinet təhlili mərhələsində toplanmışdır;

- İlkin məlumatlar əsasən (1) **strukturlu və yarım-strukturlu müsahibələr** (onlayn) və (2) **anketlər** (Hökumətdən olan maraqlı tərəflər, vətəndaş cəmiyyəti təşkilatları (VCT-lər) və media üçün) vasitəsi ilə toplanmışdır. Maraqlı tərəflərin seçilməsi Ekspertlər Qrupu tərəfindən aparılan Maraqlı tərəflərin təhlili yolu ilə həyata keçirilmişdir. Azərbaycan

Respublikasının DMX və BMqT-nin Azərbaycandakı nümayəndəliyi hədəf ölkələrdə hökumətdən olan tərəfdaşların (həmkarlarının) cəlb olunması prosesinə kömək etmişlər.

İlkin məlumatların toplanması üçün hazırlanmış alətlər aşağıdakılardır:

- Hökumətdən olan maraqlı tərəflər üçün hərtərəfli anket (13 səhifə)
- VCT -lər üçün anket
- Media qurumları üçün anket
- Yarım-strukturlu/ strukturlu görüşlər üçün müsahibə cədvəli
- Ekspertlərin siyahısı üçün Excel Cədvəli

- **Məlumatların Təhlili üçün Metodlar**

Metod kəmiyyət və keyfiyyət məlumatlarının birləşməsindən ibarətdir. Bununla birlikdə, nümunənin götürülməsinin 13 ölkədən (vaxt məhdudiyyətlərinə görə) geniş diapazonda maraqlı tərəflər ilə məsləhətləşmə prosesi nəticəsində əldə edilən **47 anket və müsahibə qeydlərinin** təhlili ilə məhdudlaşdırılması faktının təsirini azaltmaq üçün, bu hesabatda təqdim olunan keyfiyyət məlumatlarından bəzilərinin layihənin həyata keçirilməsinin növbəti mərhələsində yenidən yoxlanması lazımdır. Alınan anketlərin genişliyini, təhlil prosesinin nəticəsini və strukturlu və ya yarı-strukturlu müsahibələr zamanı alınan rəylərin miqdarını nəzərə alsaq, məlumatların təhlilinin əsas üsulu keyfiyyət məlumatlarına əsaslanmışdır. Məlumatların təhlili prosesinin və məsləhətləşmə prosesinin nəticələrinin MRTM-in inkişafının bu ilk mərhələsi üçün möhkəm bir zəmin yaratdığı hesab olunur.

- **Müəyyən edilmiş Risklər və Yumşaldıcı Faktorlar**

Vaxt məhdudiyyəti (əhatəlilik və keyfiyyət yanaşmaları nəzərə alınmaqla) və məsləhətləşmə prosesinə **maraqlı tərəflərin operativlik/məsuliyyət səviyyəsi** tədqiqatın əvvəlində müəyyən edilmiş iki ən böyük risklər idi. Regionda miqrasiya vəziyyətinin və cavab tədbirlərinin müxtəlifliyi və bəzi geosiyasi problemlər də potensial məhdudiyyətlər olaraq müəyyən edilmişdir.

Bu risklər aşağıdakılar vasitəsilə azaldıldı:

- İştirakçı ölkələrin bu proses haqqında yaxşı məlumatlandırılmasını və iştirak etməyə hazır olmasını təmin etməkdə DMX və BMqT-nin dəstəyi;
- Tədqiqatın aparılması üçün vaxt çərçivəsinin uzadılması (əvvəl 2021-ci ilin may ayında yekunlaşdırılması planlaşdırılırdı, maraqlı tərəflərin rəyinə və məlumatların hərtərəfli təhlili prosesinə imkan vermək üçün son tarixlər iki dəfə 31 iyul tarixinə qədər uzadıldı);
- Keyfiyyətə əsaslanan yanaşma seçildi (bu, sorğu anketlərinə verilən çox sayda cavablara güvənməkdənsə, keyfiyyət məlumatlarının daxil edilməsinə imkan vermək məqsədilə Hökumətdən olan maraqlı tərəflər üçün hazırlanacaq hərtərəfli (13 səhifə) anket ilə nəticələndi);
- Regionda miqrasiya vəziyyətinin və cavab tədbirlərinin müxtəlifliyi problemi və potensial məhdudiyyətlər olaraq müəyyən edilən bəzi geosiyasi problemlər məlumatların təhlili prosesində müsbət cəhətlərin və qabaqcıl təcrübələrin müəyyən edilməsi prosesi vasitəsi

ilə həll edildi və layihənin hədəf ölkələri arasında biliklərin qarşılıqlı zənginləşdirilməsi üzrə regional strategiya üçün maliyyənin səfərbər edilməsinə gətirib çıxardı.
- MRTM-in neytrallıq prinsipi və bütün aidiyyəti tərəflərə uyğun olması öhdəliyi regiondakı mürəkkəb geosiyasi vəziyyətə təsir edən güclü yumşaldıcı amil olmuşdur.

6. Maraqlı Tərəflər ilə Məsləhətləşmə prosesinin nəticəsi

- Ümumi məlumat:

Məsləhətləşmə prosesi nisbətən qısa müddətə həyata keçirilmişdir və bu, Məsləhətçilər Qrupu üçün çətinlik yaratmışdır. Bu çətinliyi azaltmaq üçün prosesin iştirakçılarına miqrasiya ilə əlaqəli bütün sahələrdə (gender və insan hüquqları kimi məsələlərdə) zəngin məzmunlu məlumatlar verməyə imkan verən çox əhatəli və yaxşı strukturlu anketlərin hazırlanması ilə keyfiyyətə əsaslanan bir yanaşmaya əməl edildi.
Azərbaycan Respublikası DMX və BMqT MRTM-in iştirakçı ölkələri tərəfindən prosesin dəstəklənməsini və anketlərə yaxşı səviyyədə cavab verilməsini təmin etməkdə çox böyük rol oynadılar.

Nəticədə:
- ✓ 12 -si Hökumət orqanı, 1 -i BMqT və 12 -si VCT-lər tərəfindən olmaqla maraqlı tərəflər tərəfindən 25 anket doldurulmuşdur;
- ✓ 22 strukturlu müsahibə görüşü keçirilmişdir.

İştirakçı ölkələrdə hökumət və vətəndaş cəmiyyəti tərəfindən verilən reaksiya səviyyəsi eyni olmamışdır. MRTM-ə ev sahibliyi edən ölkə bütün əsas hökumət orqanlarını və VCT-ləri (media daxil olmaqla) tapşırığı həyata keçirmək üçün səfərbər etmişdir, digər ölkələr isə anketlərə cavab verməkdənsə, birbaşa müsahibə prosesində daha çox iştirak etmişlər (bu, əksər Orta Asiya ölkələrinə aiddir).

Cavabların müəyyən səviyyəsi, **bəzi ölkələrin ya bu prosesə sonrakı mərhələdə qoşulması** (bu, Gürcüstana aiddir) və ya hələ də **MRTM-in fəaliyyətində öz iştirak dərəcəsini düşünməsi** (bu, Rusiya Federasiyası və Ukrayna aiddir) ilə izah edilə bilər.

Vətəndaş cəmiyyətinin bu prosesdə iştirakı da ziddiyyət təşkil edir. Bunu müxtəlif amillərlə izah etmək olar. Əsas amil məsləhətləşmə prosesi üçün mövcud olan qısa vaxt müddəti, həmçinin VCT-lərin potensialı ilə bağlı bəzi problemlərdir. Maraqlıdır ki, Hökumətdən olan maraqlı tərəflərdən və VCT-lərdən ümumi cavab səviyyəsi proporsionaldır (ölkə səviyyəsində çox zidd olsa da).

Anketlər ayrı-ayrı dövlət məmurları tərəfindən deyil, funksional qruplar tərəfindən doldurulmaq üçün hazırlanmışdır. Azərbaycanda və Moldovada hökumət strukturu olan bir neçə maraqlı tərəf bu anketləri doldurmuşdur və bu da onlara qazandıqları nailiyyətlərin, siyasət dialoqu və təlim ehtiyaclarının geniş spektrini əldə etmək imkanı vermişdir. Bu ilk qiymətləndirmə mərhələsində, digər ölkələr, əsasən prosesi aparmaq üçün sərt məhdudiyyətlər səbəbindən, anketin doldurulması ilə daha az məşğul olmuşdur, lakin onlar MRTM-in inkişafına maraq göstərmişlər. Maraqlı tərəflərin MRTM-in rol və fəaliyyətlərinin formalaşdırılmasında iştirakının növbəti mərhələsində,

hökumətdən olan həmin maraqlı tərəflərə, xüsusən Yol Xəritəsinin hazırlanması prosesində, öz təcrübələrini bölüşmək və fikir və ehtiyaclarını ifadə etmək üçün yenidən tam imkan veriləcəkdir.

Müsahibələrdə iştiraka gəldikdə, Orta Asiyanın əksər ölkələri, həmçinin Türkiyə, Moldova və Rusiya bu prosesdə xüsusilə yaxşı iştirak etmişdir. Maraqlı tərəflər ilə müsahibələrin və anketlərin məzmununun təhlilinin kombinasiyası bu hesabatı hazırlamaq üçün çox möhkəm zəmin yaratmışdır.

Yuxarıda təsvir olunan çətinliklər nəzərə alınmaqla, məsləhətləşmə prosesi uğurla keçmişdir və Məsləhətçilər Qrupu bu prosesi bu və ya digər şəkildə dəstəkləyən bütün region ölkələrinə minnətdarlığını bildirmişdir.

Qarşıdakı ikinci mərhələdə, maraqlı tərəflərə yenidən məsləhətləşmək üçün geniş imkan veriləcək. MRTM-in məqsədləri və işi daha çox görünən hala gəldikcə, maraqlı tərəflərin iştirakının müvafiq olaraq artacağı gözlənilir.

- **Məsləhətləşmə Prosesi və Maraqlı Tərəflərə dair Yekun Cədvəllər**

Aşağıdakı iki cədvəldə, məsləhətləşmə prosesinin nəticələrinə dair statistik xülasə təqdim edilir (həm müsahibələr, həm də anketlər).

Məsləhətləşmə Prosesinin Nəticələrinə dair Statistik Xülasə

Cədvəl 1: Maraqlı Tərəflər ilə Məsləhətləşmə Prosesinin Statistik Nəticələri:

ÖLKƏ	Keçirilən müsahibələrin sayı			Doldurulan anketlərin sayı		
	Hökumət	VCT-lər	Cəmi	Hökumət	VCT-lər	Cəmi
Azərbaycan	0	0	0	5	1 + 6 media	12
Belarus	0	1	1	0	1	1
Gürcüstan	0	0	0	1	0	1
İran	0	0	0	1	0	1
Qazaxıstan	0	2	2	0	0	0
Qırğızıstan	2	1	3	0	0	0
Moldova	4	0	4	4	0	4

Rusiya	**0**	**3**	**3**	**0**	**4**	**4**
Tacikistan	**0**	**3**	**3**	**0**	**0**	**0**
Türkiyə	**6**	**0**	**6**	**1**	**0**	**1**
Türkmənistan	**0**	**0**	**0**	**1 (BMqT)**	**0**	**1**
Ukrayna	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**
Özbəkistan	**0**	**0**	**0**	**0**	**0**	**0**
Cəmi	12	10	**22**	13	12	**25**

7. Nəticə:

Bu hesabatda, iştirakçı ölkələrin miqrasiya sahəsində əsas maraqlı tərəfləri ilə **aparılan bütün anketlərin və müsahibə qeydlərinin diqqətli təhlili öz** əksini tapşışdır. Prosesin çox diqqətlə aparılmasına baxmayaraq, xüsusən də bu hesabat birinci mərhələni təşkil etdiyindən və "davam edən bir iş" olacağından və MRTM üçün Yol Xəritəsinin hazırlıq mərhələsini (1 sentyabr 2021-ci ildən başlayaraq altı ay davam edəcək) dəstəkləmək məqsədi daşıdığından, **nəticələr indikativ, lakin etibarlı bir dəyərə malikdir**.

Məsləhətləşmə prosesinin aparılması üçün nisbətən qısa vaxt müddətinə baxmayaraq, regionda Hökumətdən olan maraqlı tərəflər BMqT-nin Məsləhətçilər Qrupu tərəfindən həyata keçirilən prosesdə yaxşı iştirak etmişlər. Vaxt məhdudiyyəti səbəbindən vətəndaş cəmiyyəti anketin doldurulması prosesində daha az iştirak etmişdir (Azərbaycanda və Rusiyada nisbətən yaxşı iştirak etmişdir).

Bu hesabata əlavə olunan Yekun Cədvəldə (Əlavə 7), Məsləhətçilər Qrupunun strukturlu və ya yarı-strukturlu müsahibələr apardığı strukturların və şəxslərin tam adları, həmçinin anketi dolduran şəxsləri tam adları təqdim edilir.

Bu hesabatda olan təhlillər, nəticələr və tövsiyələr davam edən bir iş kimi qiymətləndirilməlidir, MRTM-in mövcud olduğu müddətdə onlara daim düzəlişlər ediləcək/yenidən təsdiqlənəcək və yenilənəcəklər.

Bu qiymətləndirmə göstərir ki, regionun bütün ölkələrində və bütün səviyyələrdə miqrasiya idarəçiliyinin təkmilləşdirilməsi üçün müəyyən sahələr mövcuddur (siyasətin hazırlanması və həyata keçirilməsi, vətəndaş cəmiyyəti sektoru, beynəlxalq təşkilatlar, media və s.). Aşağıda verilən Çatışmazlıqların Təhlilində MRTM-in Yol Xəritəsinin yaradılması,

Kurikulumun hazırlanması və miqrasiya üzrə ekspertlər ehtiyatının yaradılması üçün əsas olacaq bir sıra nəticə və tövsiyələr müəyyən edilir.

FƏSİL 1

MİQRASİYA İDARƏÇİLİYİ SAHƏSİNDƏ REGİONAL ÇATIŞMAZLIQLARIN TƏHLİLİ VƏ EHTİYACLARIN DƏYƏRLƏNDİRİLMƏSİ

1. Ümumi Regional Xülasə

- ✓ Regionda bütün ölkələr hərtərəfli və tam işləyən miqrasiya idarəçiliyi sistemlərinin yaradılmasına yüksək səviyyədə maraq nümayiş etdirirlər.

- ✓ Regionda bütün ölkələr mürəkkəb miqrasiya vəziyyətləri ilə üzləşirlər və bütün ölkələrdə miqrasiya vəziyyəti bir-biri ilə sıx bağlıdır (bir sıra coğrafi, tarixi, sosial-iqtisadi və siyasi səbəblərə görə).

- ✓ Regionda bütün ölkələr, regiondakı digər ölkələrə təklif edə biləcəkləri qabaqcıl təcrübəyə malikdirlər (aşağıda daha ətraflı məlumata baxın).

- ✓ Aparılan tədqiqatdan miqrasiya idarəçiliyi sistemləri və bunlarla əlaqədar çatışmazlıqların və ehtiyacların Regionda çox zidd olduğu meydana çıxır. Bu ziddiyyətli ümumi mənzərə, xüsusilə aşağıdakı bir sıra amillərdən qaynaqlanır:

  - Hər bir ölkədəki miqrasiya vəziyyətinin xüsusiyyətləri (miqrantların kateqoriyaları, miqrasiya tendensyaları, miqrantların həssaslıq səviyyəsi, geosiyasi vəziyyət və s.);

  - Beynəlxalq əməkdaşlığın miqyası (Aİ dialoqları, digər Beynəlxalq Təşkilatlarla Əməkdaşlıq (BMqT, BMT-nin İnkişaf Proqramı, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin Əhali Fondu, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz və s., həmçinin Regional əməkdaşlıq);

  - Miqrasiya İdarəçiliyi üçün mövcud olan insan və maliyyə resursları;

  - VCT-lər ilə əməkdaşlıq və VCT-lərin cəlb edilməsi və səfərbərliyi səviyyəsi

- ✓ Çox mürəkkəb miqrasiya problemlərinə baxmayaraq, bəzi ölkələr miqrasiya idarəçiliyinin möhkəm təməlini qura bilmiş, lakin Aİ ilə daha az əhatəli bir dialoq formalaşdırmışlar. Bu, xüsusilə Rusiya və Türkiyəyə aiddir.

- ✓ Digər ölkələr yalnız prioritet sahələr hesab etdikləri sektor sahələrində (oradakı miqrasiya nümunələrini nəzərə alaraq) hərtərəfli miqrasiya idarəçiliyi sistemi inkişaf etdirmişlər. Bu,

xüsusilə, beynəlxalq müdafiə ehtiyaclarından qaynaqlanan miqrasiya vəziyyətini idarə etmək üçün hərtərəfli sistemlər quran və Sərhəd İdarəçiliyi Sistemini tətbiq edən İrana aiddir. Bu, həmçinin Sərhəd İdarəçiliyi (Aİ-nin Orta Asiya və Əfqanıstanda Sərhəd İdarəçiliyi Proqramı (BOMCA) Layihəsinin əməkdaşlığı ilə), xüsusən də vətəndaşsızlıq hallarının azaldılması kimi sahələrə çox diqqət yetirilən, lakin əmək miqrasiyası və/və ya miqrasiya, əmək miqrantlarının hüquqları, miqrasiya və ətraf mühit və/və ya qayıdış və inteqrasiya kimi prioritet sahələrə daha az diqqət yetirilən Orta Asiya Regionu ölkələrinə də aiddir.

- ✓ Hərtərəfli miqrasiya idarəçiliyi sistemlərinin yaradılması məqsədini canlandırmaq üçün gələcək perspektiv baxımından Miqrasiya üzrə Qlobal Saziş regiondakı bütün ölkələr və MRTM-in iştirakçı ölkələri üçün bir yol təşkil edir.

- ✓ Ümumiyyətlə, Avropa İttifaqı ilə, xüsusən də Şərq Tərəfdaşlığının Viza Dialoqları çərçivəsində olan strukturlu dialoqların benefisiar ölkələrin miqrasiya idarəçiliyi vəziyyətinə güclü təsiri olmuşdur. Aİ ilə əməkdaşlıq formasına güclü siyasi məsuliyyət nümayiş etdirən bu ölkələr hərtərəfli miqrasiya sistemini tətbiq edə bilmişlər. Bu, xüsusilə Azərbaycan, Gürcüstan, Moldova və Ukraynaya aiddir.

  - MRTM vasitəsilə qabaqcıl ölkə təcrübələrinin, Aİ Tərəfdaşlığı ölkələrinin faydalandığı potensialın artırılması təcrübələrinin bir hissəsinin digər ölkələrə də veriləcəyi gözlənilir.

  - Aşağıdakı strukturlu təhlil, həmçinin qabaqcıl ölkə təcrübələrini müəyyən etməyə imkan verəcək, buna görə də, hərtərəfli miqrasiya idarəçiliyi sistemlərinin inkişafını dəstəkləmək üçün MRTM-in gələcək illərdə regional dialoq və potensialın artırılması ilə bağlı oynayacağı rolun tam uyğunluğunu və unikallığını işıqlandıracaqdır.

Bu fəsil, miqrasiya idarəçiliyinin aşağıdakı əsas sahələrində çatışmazlıqları və ehtiyacları müəyyən etmək üçün ilkin cəhddir:

(1) Regional Xülasə
(2) Miqrasiya üzrə İnstitusional Çərçivələr
(3) Siyasətin hazırlanması və həyata keçirilməsi
(4) Qanunvericilik
(5) Əsas tematik çatışmazlıqlar
(6) Məlumatların toplanması və məlumatların təhlili
(7) Beynəlxalq Əməkdaşlıq
(8) Vətəndaş cəmiyyəti təşkilatları (VCT-lər) ilə əməkdaşlıq

2. MİQRASİYA ÜZRƏ İNSTİTUSİONAL ÇƏRÇİVƏLƏR

Bütöv bir institusional çərçivəyə sahib olmaq miqrasiya idarəçiliyinin birinci dərəcəli əhəmiyyət kəsb edən komponentidir. **Regionun bütün ölkələrində miqrasiya qurumları yaradılmışdır.** İştirakçı ölkələrin hər biri haqqında ətraflı məlumatı Ölkə Hesabatlarında (bu hesabatda Əlavə 8) tapa bilərsiniz.

Ancaq aydındır ki, bəzi ölkələrdə institusional çərçivə ya əhatəli deyil, ya da islahat mərhələsindədir (bəzi hallarda islahat prosesləri artıq yekunlaşdırılmışdır). Bu, məsələn, bu yaxınlarda institusional islahatlar prosesinin həyata keçirildiyi Qırğızıstana aiddir. Hətta mürəkkəb miqrasiya vəziyyətini idarə etmək təcrübəsinə malik bir ölkə olan Rusiya belə, institusional çərçivədə islahatlar prosesindən keçmişdir.

İranda hələ də Miqrasiya İdarəçiliyi və Koordinasiyası həvalə edilən xüsusi qurum yoxdur. İran indi BMqT-nin dəstəyi ilə Mərkəzi Miqrasiya Qurumunun yaradılması prosesindədir.

Yekun Cədvəl: Miqrasiya üzrə məsul olan əsas hökumət orqanının ölkə üzrə xülasəsi*

ÖLKƏLƏRİN SİYAHISI	MƏRKƏZİ MİQRASİYA QURUMLARI	ŞƏRHLƏR
Azərbaycan	**Dövlət Miqrasiya Xidməti**	
Belarus	**Daxili İşlər Nazirliyi**	
Gürcüstan	**DİN** və DİN-in Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyası (SCMI)**	
İran	**Əcnəbilər və Əcnəbi Miqrantların İşləri üzrə Büro** (BAFIA)	*BAFIA-nın miqrasiya portfelinə aid geniş kompetensiyası yoxdur*
Qazaxıstan	**DİN-in Miqrasiya Xidmətləri üzrə Komitəsi**	
Qırğızıstan	**Səhiyyə Nazirliyi və Xarici İşlər Nazirliyi**	*Keçmiş Dövlət Miqrasiya Xidmətinin səlahiyyətləri bu yaxınlarda Səhiyyə Nazirliyi və XİN arasında bölüşdürüldü*
Moldova	**DİN və DİN-in Miqrasiya və Sığınacaq Bürosu (BMA)**	
Rusiya	**Daxili İşlər Nazirliyinin Miqrasiya Məsələləri üzrə Baş İdarəsi (DGMI)**	*2016-cı ilin aprelində Federal Miqrasiya Xidməti ləğv edildi və onun funksiyaları yeni yaradılan Daxili İşlər Nazirliyinin Miqrasiya Məsələləri üzrə Baş İdarəsinə (DGMI) verildi.*
Tacikistan	**Əmək, Miqrasiya və Məşğulluq Nazirliyinin Miqrasiya Xidməti (MOLMEP)**	
Türkiyə	**Daxili İşlər Nazirliyi yanında Miqrasiya İdarəçiliyi üzrə Baş İdarə**	

Türkmənistan	**Dövlət Miqrasiya Xidməti**	
Ukrayna	**Dövlət Miqrasiya Xidməti**	*Miqrasiya siyasətinin hazırlanması üzrə məsuliyyət DİN və Sosial Siyasət Nazirliyi (MSP) arasında bölüşdürülür*
Özbəkistan	**Daxili İşlər Nazirliyinin Miqrasiya və Vətəndaşlıq üzrə Baş İdarəsi**	

* *Miqrasiya ilə bağlı institusional çərçivələr çox vaxt Cədvəldə təqdim edildiyindən daha mürəkkəbdir. Müfəssəl məlumat üçün Ölkə Hesabatlarına baxın (Bu hesabatda Əlavə 8)*
*** Daxili İşlər Nazirliyi*

Miqrasiya ilə bağlı bütün ölkələrə uyğun olan bir universal institusional çərçivə yoxdur və regiondakı ölkələr öz idarəetmə forması, miqrasiyanın xüsusiyyətləri və ehtiyacları və tarixi mirasından asılı olaraq fərqli sistem və strukturları seçmişlər, lakin region ölkələrində qabaqcıl təcrübələrin müxtəlifliyi və zənginliyi region ölkələrində davam edən islahatların cari hazırlanma və ya təkmilləşdirilməsi prosesini dəstəkləmək və/və ya, xüsusilə də, qurumlararası əməkdaşlıq və koordinasiya mexanizmləri, beynəlxalq təşkilatlar, VCT-lər və korrupsiyaya qarşı mübarizə qurumları ilə məsləhətləşmə mexanizmləri və s. sahələrdə gələcək institusional islahatları dəstəkləmək üçün çox faydalı hərəkətverici qüvvə təşkil edə bilər.

Tövsiyə:

- *Miqrasiya üzrə İnstitusional Çərçivəyə (əsas komponentlər, koordinasiya mexanizmləri, beynəlxalq təşkilatların dəstəyi və s.) dair qabaqcıl təcrübələri MRTM çərçivəsində, Miqrasiya İdarəçiliyi üzrə İnstitusional Potensiala dair regional siyasət müzakirəsinin daha geniş kontekstində bölüşmək.*

3. SİYASƏTİN HAZIRLANMASI VƏ SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİ

3.1 Ümumi Məlumat

Siyasətin hazırlanması və siyasətin həyata keçirilməsi sahəsində, regional mənzərə də ziddiyyət təşkil edir, bəzi ölkələr artıq sektor siyasəti ilə birlikdə hərtərəfli miqrasiya siyasətini və fəaliyyət planlarını işləyib hazırlamış və həyata keçirmişlər, digərlərində isə hələ də miqrasiyaya dair qlobal siyasət yoxdur və/və ya öz miqrasiya vəziyyətləri ilə əlaqəli sahələrdə siyasətləri hazırlamamışlar. Ancaq bu ölkələrin hamısı syasətin həyata keçirilməsi baxımından ümumi problemlərlə üzləşirlər.

Buna görə də hesabatda ehtiyacları və çatışmazlıqları müəyyən edərkən mövcud qabaqcıl təcrübələri təqdim etməyə də cəhd edilmişdir, çünki regional dinamikanın bütün iştirakçılara miqrasiya idarəçiliyinin bütün sahələrində, həmçinin idarələrarası məsələlərdə bir-birinin qabaqcıl təcrübələrindən faydalanmağa imkan verəcəyi gözlənilir.

3.2 Mövcud Miqrasiya Siyasəti Çərçivəsi və Dayanıqlı İnkişaf Məqsədlərinin siyasətin formalaşdırılmasında rolu haqqında ümumi məlumat

3.2.1 Mövcud Miqrasiya Siyasətlərinə dair Yekun Cədvəl

Aşağıdakı cədvəl həm hərtərəfli siyasət sənədləri/strategiyaları baxımından, həm də sektor siyasətləri baxımından regiondakı mövcud qabaqcıl təcrübələri təqdim etmək məqsədi daşıyır. Məlumatlar layihənin növbəti mərhələsində yenidən təsdiq olunacaq və tamamlanacaq (cünki müəyyən ölkələr üzrə bəzi məlumatlar mövcud deyil). Bu sənəddə, siyasətin formalaşdırılması və hazırlanması prosesi zamanı Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) (maraqlı tərəflərin məlumatlandırdığı kimi) rolu təqdim edilir.

Cədvəl 2: Ölkə Miqrasiya Strategiyaları

Ölkə	**Hərtərəfli Miqrasiya Siyasəti/Strategiyası**	**Sektor Siyasətləri / Strategiyaları / Fəaliyyət Planı**	**DİM-lər/ Miqrasiya üzrə Qlobal Sazişin ön plana çəkilməsi**

Azərbaycan	"Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəçiliyi Konsepsiyası" (2004-cü il); "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramının (2006-2008-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (25 iyul 2006-cı il); "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 560N-li Fərmanı (19 mart 2007-ci il); Azərbaycan Respublikasının Milli Miqrasiya Profili 2013-2017-ci illər Milli Miqrasiya Strategiyası 2020-2025-ci illər təsdiq prosesindədir.	"Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 mart tarixli 69 nömrəli Fərmanı; "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı" (28 dekabr 2006-cı il); Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi (2013-cü il).	"Bəli, müəyyən dərəcədə"
Belarusiya	Miqrasiyanın ümumi koordinasiyası və idarəedilməsi məqsədi ilə 2016-2020-ci illər üzrə "Belarusiya Respublikasının Əhalinin Sağlamlığı və Demoqrafik Təhlükəsizlik" Dövlət Proqramı çərçivəsində 6 nömrəli "Xarici Miqrasiya" alt proqramı həyata keçirilir.	- Belarusiya Respublikasının 2030-cu ilədək Davamlı Sosial-İqtisadi İnkişaf Strategiyası; - 2019-2023-cü illər üzrə Belarusiya Respublikası Dövlət Sərhədinin İnteqrə Edilmiş İdarəçiliyi Konsepsiyası; - 2018-2022-ci illərdə Belarusiya Respublikasının Sərhəd Təhlükəsizliyinin təmin edilməsinə dair Konsepsiya;	DİM-lər 1, 3, 4, 5, 8, 10, 11, 13, 16 və 17

		-Cinayət və Korrupsiya ilə Mübarizə üzrə 2019-2022-ci illər üzrə Dövlət Proqramı (qaçaqçılıq və insan alverinə qarşı mübarizə üzrə); -Yetkinlik yaşına çatmayanların cinsi zorakılıqdan və istismardan qorunması üzrə Milli Fəaliyyət Planı 2020-ci ilin birinci rübündə həyata keçirilməyə başlanmışdır.	
Gürcüstan	2021-2030-cu illər üzrə Gürcüstanın Miqrasiya Strategiyası	Gürcüstanda yaşayış icazələrinin verilməsinə baxılması və verilməsi qərarı ilə bağlı prosedurların təsdiq edilməsi haqqında Hökumətin 520 N-li Sərəncamı (278.98 KB); Gürcüstanda Vətəndaşlığı olmayan şəxsin statusunun müəyyən edilməsi prosedurlarının təsdiq edilməsi haqqında Hökumətin 523 N-li Sərəncamı (57.47 KB); Əcnəbilərin Gürcüstandan çıxarılması qaydalarının təsdiq edilməsi haqqında Hökumətin 525 N-li Sərəncamı (174.74 KB).	Miqrasiya Strategiyasının 7 Məqsədinin hamısı BMT-nin DİM-ləri ilə əlaqəlidir. Konkret olaraq: 10 (10.7), 17 (17.18); 8 (8.8); 5 (5.2); 16 (16.2); 4.
İran	Miqrasiya ilə bağlı hərtərəfli strateji sənədin olmaması, yalnız sektora aid sənəd mövcuddur.	Əfqan Qaçqınlar üçün Həll yollarının axtarışı Strategiyası (SSAR) ümumi təlimatı və qaçqınların xeyrinə tədbirlərin görülməsi üçün strateji çərçivəni təmin edir.	*Mövcud deyil*

		Əfqan Qaçqınlar üçün Həll yollarının axtarışı Strategiyası BMT QAK -ın dəstəyi ilə İslam Respublikaları Əfqanıstan, İran və Pakistan arasında çoxsaylı maraqlı tərəfləri olan çoxillik regional strategiyadır. Əfqan Qaçqınlar üçün Həll yollarının axtarışı Strategiyası Əfqan qaçqınların müdafiəsini təmin etmək və onlar üçün davamlı həll yolları tapmaq üçün 2011 -ci ildə tətbiq edilməyə başlandı. Əfqan Qaçqınlar üçün Həll yollarının axtarışı Strategiyasının üç əsas məqsədi vardır: qaçqınların könüllü olaraq Əfqanıstana qaytarılmasını asanlaşdırmaq, Əfqanıstanda geri qayıdanların davamlı reinteqrasiyasını dəstəkləmək və ev sahibi olan iki başlıca ölkəni - İran və Pakistanı dəstəkləmək. Əfqan Qaçqınlar üçün Həll yollarının axtarışı Strategiyası 2021 -ci ilədək uzadıldı.	
Qazaxıstan	**Miqrasiya Siyasəti Konsepsiyası (2017-ci il)** Ölkənin iqtisadi, sosial və demoqrafik inkişaf perspektivləri, xarici siyasəti, Avrasiya İqtisadi İttifaqı çərçivəsində əməkdaşlıq prosesləri və qloballaşma tendensiyaları ilə əlaqədar olaraq onun miqrasiya siyasətinin strateji məqsəd və vəzifələrini müəyyənləşdirir.	*Mövcud deyil*	*Mövcud deyil*

	Üç istiqamət: müvəqqəti əmək miqrasiyası; Ölkə ərazisində əhalinin optimal şəkildə yerləşdırılməsi; Etnik qayıdanların uzunmüddətli daimi miqrasiyasını dəstəkləmək.		
Qırğızıstan Respublikası	**Qırğızıstan Respublikasının Miqrasiya Siyasəti Konsepsiyasının layihəsi**	*Mövcud deyil*	*Mövcud deyil*
Moldova	**Miqrasiya və Sığınacaq üzrə Milli Strategiya 2011-2020-ci illər** (Hökumət Fərmanı, 08. 09.2011-ci il) və Fəaliyyət Planı (müddəti başa çatmışdır, yenidən baxılmaqdadır)	**Diaspora üzrə Milli Strategiya-2025** (Hökumət Fərmanı № 200, 26.02.2016-cı il); - **2018-2023-cü illər üzrə Dövlət Sərhədlərinin İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi üzrə Milli Strategiya** və onun həyata keçirilməsi üçün 2018-2020-ci illər üzrə Fəaliyyət Planı (Str. 1101, 14.11.2018-ci il); Milli Diaspora 2025 -in təsdiq edilməsi haqqında Hökumət Qərarı "DAR 1+3" Diaspora Ölkəsində müvəffəq olur" Proqramının təsdiqlənməsi və həyata keçirilməsi haqqında Hökumət Qərarı DMD sahəsində dövlət siyasətinin əlaqələndirilməsi Mexanizminin təsdiq edilməsi haqqında Hökumət Qərarı **Məşğulluq üzrə Milli Strategiya** və Fəaliyyət Planı 2017-2021-ci illər; **İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə üzrə Milli**	*DİM 5* *DİM 8* *DİM 16*

		Strategiya və Fəaliyyət Planı; **Geri qayıtmış Moldova vətəndaşlarının reinteqrasiyası üzrə Milli Plan** (2020 -ci ildə müddəti başa çatmışdır, yenidən baxılma prosesindədir)	
Rusiya	"Rusiya Federasiyasının 2019-2025-ci illər üzrə Dövlət Miqrasiya Siyasəti Konsepsiyası haqqında" Rusiya Federasiyası Prezidentinin 2018 -ci il 31 oktyabr tarixli 622 nömrəli Fərmanı	*Mövcud deyil*	*Mövcud deyil*
Tacikistan	2017-2021-ci illər üzrə Miqrasiya Siyasəti Konsepsiyası	*Mövcud deyil*	*Mövcud deyil*
Türkiyə	**Miqrasiya Strategiyasının Layihəsi** (son mərhələdə - Miqrasiya Şurasının "Milli Miqrasiya Siyasətinin Yaradılması" qərarına uyğun olaraq təsdiqlənmə mərhələsində)	- Qanunsuz Miqrasiya Strategiyası Sənədi və onun Milli Fəaliyyət Planı (2021-2025-ci illər)	*DİM 8* *DİM 10*
Türkmənistan	**Hərtərəfli Miqrasiya Strategiyası mövcud deyildir**	*Mövcud deyil*	*DİM-lərdən istifadə olunmamışdır*
Ukrayna	Növbəti səkkiz il üçün Milli Miqrasiya Siyasətini müəyyən edən **Dövlət Miqrasiya Strategiyası** (2017-ci il 12 iyul).	*Mövcud deyil*	*Mövcud deyil*
Özbəkistan	*Mövcud deyil*	*Mövcud deyil*	*Mövcud deyil*

3.2.2 Siyasət sənədlərində müəyyən edilmiş çatışmazlıqlar:

Yuxarıdakı Cədvəl 2-də təqdim edilən məlumatlar hərtərəfli olmasa da, siyasətin hazırlanmasında aşağıdakı nümunələri və çatışmazlıqları göstərir:

- ✓ Bəzi ölkələrdə hərtərəfli miqrasiya siyasəti mövcuddur. Bu əhatəli miqrasiya siyasətlərinə/strategiyalarına əlavə olaraq, bu ölkələr çox vaxt bu siyasəti tamamlamaq

üçün spesifik/sektor siyasətləri/Fəaliyyət Planları (İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi, diaspora ilə qarşılıqlı əlaqələr, insan alverinə qarşı mübarizə və s sahələrdə) həyata keçirirlər;

- ✓ Bəzi ölkələr bu cür əhatəli strategiyaların hazırlanmasının yekunlaşdırılması mərhələsindədir (məsələn, Türkiyə və Qırğızıstan Respublikası);

- ✓ **MRTM regionundakı bəzi ölkələrdə hələ də hərtərəfli miqrasiya siyasəti yoxdur, lakin bəzi ölkələr belə siyasətləri hazırlamaq üçün konkret addımlar atır** (məsələn, İran).

- ✓ **Bütün ölkələr sektor siyasətləri tətbiq etmişlər**, bu sektor siyasətləri miqrasiya tendensiyalarında milli prioritetləri əks etdirir, lakin bəzi ölkələr hətta onlar üçün prioritet sahələrdə çatışmazlıqlar olduğunu qəbul edirlər. Hətta miqrasiya ilə bağlı yüksək səviyyəli siyasət hazırlanmış ölkələrdə belə, siyasətin hazırlanması baxımından bəzi sektor çatışmazlıqlarının olduğu xüsusi qeyd olunmuşdur (İnteqrasiya haqqında qanunvericilik, diaspora ilə iş və s.)

- ✓ Bir sıra ölkələr, **BMqT-nin siyasətin hazırlamasını dəstəkləməkdə verdiyi töhfənin əhəmiyyətini** xüsusi olaraq qeyd etmişlər;

- ✓ Sektor siyasətlərində, əsas miqrasiya sahələrində siyasətin hazırlanmasında bəzi əhəmiyyətli çatışmazlıqlar müəyyən edilmişdir, bunlar gələcəkdə potensialın artırılması dəstəyinin göstərilməsini tələb edəcək, bu çatışmazlıqlar, xüsusilə (amma bunlarla məhdudlaşmadan) İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi, diaspora ilə qarşılıqlı əlaqələr, İnteqrasiya, Vətəndaşsızlığın azaldılması, COVID-19 və miqrasiya və s sahələrdədir. Aşağıdakı sektor çatışmazlıqları bölməsində bu çatışmazlıqlar ətraflı şəkildə təqdim edilir.

- ✓ **DİM-lər haqqında bilgilərin səviyyəsi və onların** miqrasiya sahəsində strateji sənədlərinin hazırlanmasında **siyasəti hazırlayanlar tərəfindən nəzərə alınması səviyyəsi** ölkədən ölkəyə dəyişir. Bununla birlikdə, Hökumətdən olan maraqlı tərəflərin əksəriyyəti, DİM-lərin heç olmazsa, müəyyən dərəcədə onların işlərini istiqamətləndirdiyini xüsusi qeyd etmişlər. Bəzi hökumətlər DİM-lərin siyasətin hazırlanmasına tam inteqrasiya edildiyini bildirir. Maraqlı tərəflərin siyasətin hazırlanmasında DİM-lərin əhəmiyyətini qəbul etməsi tamamilə müsbət haldır.

Nəticədə, <u>əsas ehtiyaclar aşağıdakılardır:</u>

- ➢ *Bütün ölkələrdə siyasətin hazırlanması və həyata keçirilməsi prosesininin möhkəmləndirilməsinə ehtiyac vardır. Məsələnin əhəmiyyəti, mövcud* çatışmazlıq*lar və regiondakı zəngin təcrübə nəzərə alınmaqla, MRTM regionda siyasətin hazırlanması prosesinin dəstəklənməsində müsbət rol oynayacaq.*
- ➢ *Siyasətin hazırlanması prosesində DİM-lər və Miqrasiya üzrə Qlobal Saziş sahəsində potensialının gücləndirilməsi lazımdır.*

3.3 Siyasətin hazırlaması prosesində problemlər və çatışmazlıqlar

Siyasətin hazırlanmasında əsas çatışmazlıqlar 3 əsas sahədə müəyyən edilmişdir:

- ***İdarələrarası əməkdaşlıq***
- ***BMqT və digər beynəlxalq təşkilatlar ilə əməkdaşlıq***
- ***Vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq***

(1) İdarələrarası koordinasiya:

Miqrasiya idarəçiliyində idarələrarası koordinasiya, ümumiyyətlə mürəkkəb bir işdir və müntəzəm olaraq nəzərdən keçirilmə və yenidən təşkil olunma tələb edir.

- ✓ Regionun bir çox ölkələrində **koordinasiya mexanizmləri ya mövcud deyil, ya da səmərəli işləmir**, beləliklə bu, siyasətlərin keyfiyyət/əhatəlilik səviyyəsini məhdudlaşdırır və bu siyasətlərin həyata keçirilməsində daha az səviyyədə iştirak riski yaradır.

- ✓ Regionun digər ölkələrində **təsirli səylər göstərilmişdir və bəzi ölkələr region üçün qabaqcıl təcrübə təşkil edə bilər** (xüsusilə Azərbaycan, Moldova, Gürcüstan, Rusiyada da çox mürəkkəb idarəetmə sistemi daxilində çox əhatəli system mövcuddur).

- ✓ Yüksək səviyyəli idarələrarası koordinasiya təqdim edən ölkələrdə belə, hər bir quruma aid olan işçilər arasında gündəlik dialoqlar baxımından bəzi çatışmazlıqlar və **məlumat mübadiləsi və mübadilə ediləcək məlumatlara dair razılaşma** baxımından çətinliklər və **toplanan məlumatlar, terminlərin anlayışları ilə bağlı fərqlər** müəyyən edilmişdir.

- ✓ Bəzi ölkələrdə son vaxtlar **institusional islahatlar keçirilmişdir** (xüsusilə Qırğızıstan Respublikasında), buna görə də, müvafiq olaraq idarələrarası əməkdaşlıq sisteminin yaradılması və ya ona yenidən baxılması lazım gələcək.

- ✓ Nəhayət, **siyasətin hazırlanmasında qurumlararası koordinasiyaya çox vaxt mərkəzləşdirilmiş nöqteyi-nəzərdən baxılır** və məsləhətləşmə prosesi zamanı (Rusiya istisna olmaqla) maraqlı tərəflərin böyük əksəriyyəti tərəfindən regional/yerli hakimiyyət orqanlarının cəlb olunması əks olunmamışdır. Bu komponentin gələcəkdə regionda qabaqcıl təcrübə mübadiləsi yolu ilə həll edilməsi lazım gələcəkır.

<u>Tövsiyələr:</u>

- *İdarələrarası əməkdaşlıq, MRTM çərçivəsində, xüsusilə də daha geniş regional dialoq çərçivəsində Miqrasiya üzrə İnstitusional Çərçivələr haqqında (regional/yerli şöbələri də daxil etmək üçün) müzakirə ediləcək vacib komponentdir;*

- *Məlumatların və terminlərin anlayışının müxtəlif dövlət qurumları çərçivəsində uyğunlaşdırılmasına, xüsusilə məlumatların toplanması, miqrasiya anlayışı və*

terminologiyası və qabaqcıl təcrübələrin mübadiləsi üzrə təlimlər vasitəsi ilə nail olmaq lazımdır.

- *Ölkə səviyyəsində BMT-nin Miqrasiya Şəbəkəsinin (UNNM) rolunun artırılmasını dəstəkləmək*

(2) Beynəlxalq Təşkilatlar ilə Əməkdaşlıq və Miqrasiya üzrə Qlobal Saziş və İnsan Hüquqlarının ön plana çəkilməsi

- ✓ Beynəlxalq təşkilatlar ilə əməkdaşlıq həmişə **maraqlı tərəflər tərəfindən yüksək qiymətləndirilir.** Maraqlı tərəflərin istinad etdiyi əsas təşkilatlar: BMqT (bütün ölkələr üçün), Aİ (xüsusilə Aİ Komissiyası və onun müvafiq proqramları və büdcə dəstəyi) Şərq Tərəfdaşlığı ölkələri üçün, BMT -nin Rezident Əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramıdır (DİM-lər, genderin ön plana çəkilməsi, gender və miqrasiya, miqrasiya və inkişaf və s.). BMT-nin QAK (xüsusilə İran, Türkiyə, Orta Asiya ölkələri və Moldova üçün), Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (xüsusilə Budapeşt prosesi, Praqa prosesi, təlimat kitabları və tədqiqat hesabatları və s.), Aİ-nin Moldova və Ukraynaya Sərhəd Yardımı Missiyası (Moldova və Ukrayna), Fronteks (Sərhəd Nəzarəti üzrə Avropa Agentliyi və s.), UNICEF (BMT-nin Beynəlxalq Fövqəladə Uşaqlara Yardım Fondu), Dünya Bankı, ATƏT/DTİHB, UNFPA (BMT-nin Əhali Fondu) da regionda vacib tərəfdaşlar kimi qeyd olunur.

  BMqT və digər əsas beynəlxalq və regional təşkilatlar ilə əməkdaşlıq baxımından bəzi ölkələr miqrasiya ilə məşğul olan əsas beynəlxalq təşkilatların maraqlı və yaradıcı iştirak vasitələrini işə salmışdır və əksər ölkələr faktiki olaraq BMqT-ni siyasətin hazırlanmasına cəlb edirlər və BMT-nin Miqrasiya Şəbəkəsində iştirak edirlər.

  Bununla birlikdə, **yalnız bir neçə ölkə BMqT və digər əsas miqrasiya təşkilatları ilə** siyasətin hazırlanmasında iştirakın struktur mexanizmlərini yaratmışdır (məsələn, Azərbaycan, Gürcüstan və Moldova).

- ✓ **Miqrasiya üzrə Qlobal Sazişin beynəlxalq əməkdaşlığın gücləndirilməsində** müsbət rolu maraqlı tərəflər tərəfindən aydın şəkildə xüsusi olaraq qeyd edilmişdir. Bir neçə maraqlı tərəf artıq Miqrasiya üzrə Qlobal Saziş çərçivəsində əməkdaşlığını gücləndirmiş və bunu etməyənlər üçün isə bu istiqamətdə güclü gözləntilər ifadə edilmişdir.

- ✓ ***Siyasətin hazırlanmasında rəhbər tutulan beynəlxalq norma və prinsiplər baxımından,*** *maraqlı tərəflərin,* ***ümumiyyətlə*** *(gender bərabərliyi və qadın hüquqları sahəsi də daxil olmaqla) riayət etdikləri ümumi* ***insan hüquqları standartlarından daha çox xüsusi miqrasiya standartlarına*** *(məsələn, BMT-nin Qaçqınlar haqqında Konvensiyası) güvəndiyi görünür. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formaların ləğv edilməsi haqqında Konvensiya və ya BMT-nin İşgəncələrə qarşı Konvensiyası kimi alətlər yalnız nadir hallarda maraqlı tərəflər tərəfindən qeyd olunur.*

- ✓ *İqlim dəyişikliyinin və/və ya ekoloji fəlakətin bəzi təsirləri artıq regiondakı daxili və beynəlxalq miqrasiya tendensiyalarına təsir göstərsə də və bu fenomenlərin artacağı gözlənilsə də,* ***ətraf mühit və miqrasiya ilə əlaqəli standartlara hazırda maraqlı tərəflər tərəfindən yetərincə önəm verilmədiyi görünür.***

Tövsiyələr:

- ➢ *Miqrasiya və beynəlxalq hüquq və miqrantların insan hüquqları ilə bağlı potensialın gücləndirilməsi səylərinə daha çox ehtiyac duyulduğu görünür*
- ➢ *Miqrasiya və ətraf mühitlə bağlı potensialın artırılması fəaliyyətlərinə ehtiyac var*
- ➢ *Regional dialoq və potensialın gücləndirilməsi fəaliyyətləri tələb olunur*
- ➢ *MRTM Miqrasiya üzrə Qlobal Sazişin təmin etdiyi yeni imkanları təqdim etmək və region ölkələri üçün bu sahədə qabaqcıl təcrübə mübadiləsi aparmaq üçün yer təklif edir.*

(3) Siyasətin hazırlanmasında vətəndaş cəmiyyəti subyektləri ilə əməkdaşlıq

- ✓ Vətəndaş cəmiyyəti ilə əməkdaşlıq bu və ya digər şəkildə və işin müxtəlif sahələrində regionun bütün ölkələrində həyata keçirilir. Ancaq **bu əməkdaşlıq siyasətin hazırlanması mərhələsində nadir hallarda baş verir.** Hökumətdən olan bəzi maraqlı tərəflər vətəndaş cəmiyyətinin cəlb edilməsi mexanizmlərini işə salıblar, lakin bu mexanizmlər mövcud olduqda, əsasən xüsusi hallarda həyata keçirilir.

- ✓ **<u>Bu sahədə qabaqcıl hökumət təcrübələri mövcuddur</u>** və bunlar regiondakı digər ölkələr üçün hərəkətverici qüvvə ola bilər. Bu qabaqcıl təcrübələr, xüsusilə aşağıdakılardır:

- **<u>Azərbaycanda:</u>** Hökumətin 2012-ci ildə başladığı açıq cəmiyyətin təşviqi və müxtəlif siyasi sahələrdə vətəndaş iştirakçılığının artırılması, habelə insan hüquq və azadlıqlarının müdafiəsi mövzusunda məlumatlılığın artırılması proqramı çərçivəsində 2015-ci ildə DMX-ın yanında **İctimai Şura** yaradılmışdır. **İctimai Şura sığınacaq və miqrasiya siyasətinin və qanunvericiliyinin təkmilləşdirilməsi və miqrantların, qaçqınların və vətəndaşlığı olmayan şəxslərin fərdi hüquqlarına çıxışını (miqrantlar üçün sorğular, Məsləhət Şurası və s.) artırmaqla əlaqədar olaraq vətəndaş cəmiyyəti təşkilatları ilə dialoq üçün platforma rolunu oynayır.** Bu Şura, VCT nümayəndəsinin sədrliyi altında fəaliyyət göstərir. Bu strukturlu mexanizm yaxşı idarəçiliyin yüksək səviyyəsini və dövlətin hesabatlılığını təmin etmək məqsədi daşıyır.

- **<u>Gürcüstanda</u>** Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyasının daxilində **Tematik İşçi Qrupları** (İnteqrasiya, Miqrasiya Risklərinin Təhlili, Miqrasiya Strategiyası, Vətəndaşsızlığın Azaldılması, Vahid Miqrasiya Analitik Sistemi və Miqrasiya və İnkişaf sahələrində) yaradılmışdır. **2013-cü ildə əlavə ekspert köməyini təmin etmək və əməkdaşlıq formatını inkişaf etdirmək üçün bu sahədə çalışan beynəlxalq və qeyri-hökumət təşkilatlarına Komissiya daxilində məsləhətçi statusu verilmişdir.**

- **İranda** qaçqınlar ilə əlaqəli cavab tədbirləri hərtərəflidir və müxtəlif maraqlı tərəfləri əhatə edir. Əcnəbilər və Əcnəbi Miqrantların İşləri üzrə Büro (BAFIA) İranda Əfqan qaçqınlara yardım və müdafiə ilə əlaqədar nailiyyətləri, çətinlikləri və prioritetləri müzakirə etmək məqsədilə Əfqan qaçqınlar üçün həll yollarının axtarışı Strategiyası (SSAR) Tərəfdaşlarının Koordinasiya Toplantılarını müntəzəm olaraq keçirir. Əfqan qaçqınlar üçün həll yollarının axtarışı Strategiyasının İranda tərəfdaşları doqquz nazirlik və digər hökumət təşkilatları, **on üç beynəlxalq və milli qeyri-hökumət təşkilatları** və səkkiz BMT Təşkilatından ibarətdir.

- **Ukraynada** BMT sistemi tərəfindən siyasətin hazırlanmasında inklüziv yanaşmanın maraqlı qabaqcıl təcrübəsinin tətbiqinə təşəbbüs edilmişdir. 2021-ci ilin fevral ayında hökumət strukturları, vətəndaş cəmiyyəti təşkilatları, miqrant və diaspora birlikləri, beynəlxalq təşkilatlar, ali təhsil məssisələrinin və özəl sektorun 90-dan çox nümayəndəsi BMT-nin Miqrasiya üzrə Siyasət Sənədini müzakirə etmək üçün onlayn olaraq bir araya gəlmişdir (bu sənəd Ukraynada həm ölkəyə, həm də xaricə miqrasiya ilə bağlı BMT-nin birgə mövqeyini və miqrasiya idarəçiliyinin gücləndirilməsi strategiyalarını təqdim etməyə yönəldilmişdir).

  Bu qabaqcıl təcrübələr regionda aktiv **bir vətəndaş cəmiyyətinin mövcudluğunu** və **miqrasiya siyasətinin hazırlanması sahəsində birbaşa hökumət-VCT əməkdaşlığının artıq bəzi müsbət təcrübəsini** nümayiş etdirir. Bu, **MRTM çərçivəsində gələcəkdə inkişaf, gücləndirmə və institusionallaşma ilə bağlı siyasətin müzakirəsi üçün** mövcud **potensialı** göstərir.

✓ Yuxarıda qeyd olunan çatışmazlıqlara əlavə olaraq, regiondakı VCT-lər və Hökumətlər, məsləhətləşmə prosesi zamanı verdikləri cavablarda, istər əvvəlcədən məsləhətləşmə prosesləri və/və ya siyasətin hazırlanmasında birbaşa iştirak yolu ilə, **miqrantların özlərinin siyasətin hazırlanmasında iştirakını nəzərdən keçirməyə** meylli deyillər. Lakin az sayda maraqlı istisnalar vardır (məsələn, Azərbaycan haqqında yuxarıda təqdim olunan nümunəyə baxın).

Tövsiyələr:

➢ *Vətəndaş cəmiyyətinin rolunun, həmçinin miqrantların (qadınlar və kişilər) rolunun **miqrasiya ilə bağlı siyasət dialoquna və siyasətin hazırlanmasına daxil edilməsinin gücləndirilməsinə və sistemləşdirilməsinə** ehtiyac var. Siyasət dialoqu və bu mövzuda mövcud qabaqcıl təcrübələrin mübadiləsi MRTM çərçivəsində faydalı şəkildə həyata keçirilə bilər.*

3.4 Siyasətin Həyata Keçirilməsində Əsas Problemlər

3.4.1 Problemlərə dair yekun cədvəl

*Aşağıda verilən Cədvəl 3, miqrasiya sahəsində siyasət və qanunvericiliyin həyata keçirilməsi baxımından **maraqlı tərəflər tərəfindən qəbul edilən əsas problemləri** əks etdirir.*

Cədvəl 3: Siyasətin Həyata Keçirilməsində Əsas Problemlər

Çətinliklər / Ölkə	*COVID Böhranı*	*Maliyyə Resurslarının Olmaması*	*Tam ixtisaslı işçilərin olmaması*	*Koordinasiya Mexanizmlərində çatışmazlıqlar*	*Kifayət qədər olmayan regional əməkdaşlıq*	*Müəyyən sahələrdə siyasətin kifayət qədər hazırlanmaması*	*Texniki potensialın olmaması*	*Geo-siyasi vəziyyət*
Azərbaycan	+				+	+		
Belarus	+	+						+
Gürcüstan	+	+						
İran	+	+	+	+		+	+	+
Qazaxıstan	+		+	+		+	+	
Qırğızıstan	+	+	+	+		+	+	
Moldova	+	+			+	+	+	+
Rusiya								
Tacikistan	+	+	+	+		+	+	
Türkiyə	+	+			+			+
Türkmənistan		+		+			+	
Ukrayna	+							+
Özbəkistan[1]	*Mövcud deyil*	*Mövcud deyil*	*Mövcud deyil*	*Mövcud deyil*	*Mövcud deyil*	*Mövcud deyil*	*Mövcud deyil*	*Mövcud deyil*

3.4.2 Cədvəlin təhlili:

(1) Region ölkələrinin böyük əksəriyyəti, **mövcud COVID 19 böhranını siyasətin həyata keçirilməsi baxımından böyük bir problem** olaraq müəyyən etmişdir.

Mövcud COVID böhranı bütün maraqlı tərəflərə və bütün səviyyələrdə təsir edir və onun miqrantların özlərinə, xüsusən də ən həssas qruplarına (xüsusilə qadınlar, uşaqlar və qaçqınlar) birbaşa mənfi təsiri olur. COVID 19 böhranı regionda xüsusilə aşağıdakılara mənfi təsir göstərir:

- siyasətin formalaşdırılması prosesi (yeni problemləri əks etdirmək üçün bəzi siyasətlərin tamamlanması/dəyişdirilməsi lazım olduğundan və bu, qurumlararası əlaqələndirmə və dialoqa təsir etdiyindən);
- proqramların həyata keçirilməsi və benefisiarlara birbaşa çıxış;
- İqtisadi imkanlar və inkişaf potensialı (insanların hərəkətliliyi kəskin şəkildə azaldı - tələbələr, geri qayıdanlar, çətin vəziyyətdə qalmış miqrantlar- maliyyə və sosial pul köçürmələri;
- Miqrantların və onların ailələrinin sağlamlığına təsir (fiziki və psixi sağlamlıq);
- Ailə həyatı hüquqlarının pozulması (ailənin qovuşması), ailənin yenidən birləşməsi);
- İnsan hüquqlarının pozulmasının kəskinləşməsi (gender-əsaslı zorakılıq, saxlanmada olan qanunsuz miqrantlar və s.).

<u>Tövsiyələr:</u>

[1] Bu hesabatın Cədvəl 1 -də təqdim edildiyi kimi ("Maraqlı tərəflərlə Məsləhətləşmə Prosesinin Statistik Nəticəsi"), Özbəkistan haqqında məlumatlar yalnız mövcud məlumatların təhlili yolu ilə toplanılmış, çünki Özbəkistandan olan maraqlı tərəflərin siyasətin həyata keçirilməsi üçün əsas problemləri ilə bağlı fikirləri bəlli deyildir və buna görə də, yuxarıdakı Cədvəl 3 -də "mövcud deyil" kimi təqdim olunur.

- ***Beynəlxalq miqrasiya kontekstində COVID 19 ilə bağlı problemlər və ona qarşı cavab tədbirləri*** *MRTM çərçivəsində həll oluna bilər.*

(2) **Kifayət qədər maliyyə mənbələrinin olmaması** Aİ-nin büdcə dəstəyindən faydalanan ölkələr daxil olmaqla, region ölkələrinin əksəriyyəti tərəfindən xüsusi olaraq qeyd olunur. **Regional əməkdaşlığın artırılması, layihələrin hazırlanması və maliyyə vəsaitinin toplanması sahəsində potensialın gücləndirilməsi MRTM-in** bu problemin həllinə töhfə verə biləcəyi sahələrdir.

Tövsiyələr:

- ***Maliyyə vəsaitinin toplanması strategiyası, donorların səfərbərliyi və layihə təkliflərinin/tenderin hazırlanması və maraqlı tərəflərin bütün kateqoriyalarının çıxışı olan büdcə xətləri üzrə*** *potensialın gücləndirilməsi fəaliyyətləri bu problemlərin bəzilərinin həllinə kömək edə bilər.*

(3)) **Geo-siyasi vəziyyət** də böyük problem olaraq müəyyən edilmişdir. Bu, xüsusilə "dondurulmuş münaqişə" və ya münaqişə vəziyyətinin və/və ya silahlı münaqişələrin təsir etdiyi ölkələr ilə coğrafi yaxınlığı səbəbindən qaçqınların/miqrantların kütləvi axını vəziyyətindən təsirlənən ölkələr üçün səciyyəvidir.
MRTM ölkələri, bütün aidiyyəti tərəflər üçün faydalı olacaq miqrasiya mövzusunda dialoqda iştirak etməyi qəbul etmişlər. Bu problemin həllinə töhfə vermək üçün **MRTM məcburi yerdəyişmələrin qarşısının alınması və kütləvi axın kontekstində məsuliyyət bölgüsü ilə bağlı sahələrdə dialoq və potensialın gücləndirilməsi səylərini təklif edə bilər.**

Tövsiyələr:

- **Milli azlıqlara mənsub şəxslərin hüquqlarına** dair siyasət dialoqu və təlim

- ***Miqrasiya və gender-əsaslı zorakılığın qarşısının alınması və onlara qarşı cavab tədbirləri*** *(beynəlxalq normalar və qabaqcıl təcrübələr) və münaqişələrin qarşısının alınmasında və münaqişədən sonrakı barışıqda qadınların rolu* ***haqqında təlim***

- ***Miqrantların və qaçqınların ölkəyə kütləvi axını şəraitində məsuliyyət bölgüsünə*** *dair siyasət dialoqu*

(4) Koordinasiya mexanizmlərində çatışmazlıqlar da problem olaraq müəyyən edilmişdir. Yuxarıda (Siyasətin hazırlanmasına dair bölmə) qeyd edildiyi kimi, **MRTM bu məsələdə əhəmiyyətli rol oynaya bilər və miqrasiya üzrə institusional çərçivələrə həsr olunmuş daha geniş bir tədbir çərçivəsində idarələrarası əməkdaşlıqla bağlı qabaqcıl təcrübələrin (o cümlədən regionun xaricindən) mübadiləsi üçün forum təklif edə bilər.**

Tövsiyələr:

- *Miqrasiya üzrə institusional çərçivələr haqqında daha geniş bir regional dialoq kontekstində **MRTM ilə qurumlararası koordinasiyanın müzakirə edilməsi təklif olunur** (yuxarıda siyasətin hazırlanması kontekstində idarələrarası əməkdaşlığa dair bölməyə baxın).*

4. *MİQRASİYAYA DAİR QANUNVERİCİLİK ÇƏRÇİVƏSİ*

4.1 Beynəlxalq Hüquq

- ✓ Bu hesabata əlavə edilmiş (Əlavə 9-da) MRTM-in işində iştirak edən Dövlətlər tərəfindən Əsas Miqrasiya Alətlərinin Ratifikasiyasına dair Yekun Cədvəldə qeyd edildiyi kimi, regionda bütün iştirakçı dövlətlər insan hüquqları, gender və ətraf mühit sahəsində BMT-nin əsas Alətlərinə riayət etmişlər.

- ✓ BMT-nin və BƏT-in miqrasiyaya dair konvensiyaları üzrə vəziyyət daha çox ziddiyyətlidir və **MRTM, belə alətlərin ratifikasiyasının müsbət və mənfi tərəflərini müzakirə etmək və bu beynəlxalq alətlərin regiondakı Tərəf Dövlətlərindən qabaqcıl təcrübələri almaq üçün yaxşı bir forum təklif edə bilər.**

- ✓ **Vətəndaşlığı olmayan şəxslərin müdafiəsi**, vətəndaşsızlığın qarşısının alınması və azaldılması sahəsində vəziyyət daha çox ziddiyyətlidir, çünki vətəndaşsızlıq fenomeninin qarşısını almaq üçün siyasət və qanunlar qəbul etmiş ölkələr daxil olmaqla regionun bir çox ölkələri BMT-nin müvafiq alətlərini ratifikasiya etməmişdir. Regionun yalnız 5 ölkəsi (Azərbaycan, Gürcüstan, Moldova, Türkmənistan və Ukrayna) BMT-nin Vətəndaşlığı olmayan şəxslərin statusu ilə bağlı 1954-cü il Konvensiyasını ratifikasiya etmişdir. Regionun yalnız 4 ölkəsi (Azərbaycan, Moldova, Türkmənistan və Ukrayna) BMT-nin Vətəndaşsızlığın Azaldılması haqqında 1961-ci il Konvensiyasını ratifikasiya etmişdir. Avropa Vətəndaşlıq Konvensiyasına gəldikdə isə, regionun iki ölkəsi (Moldova və Ukrayna) onu ratifikasiya etmişdir, bir ölkə (Rusiya) isə onu imzalamış, lakin hələ ratifikasiya etməmişdir.

- *MRTM vətəndaşsızlıq vəziyyətlərindən hələ də təsirləndiyi bildirilən bir regionda buna aid alətlərin ratifikasiyasının və siyasət və qanunvericilikdə sonrakı düzəliş və dəyişikliklərin müsbət tərəfləri ilə bağlı siyasət müzakirələri və qabaqçıl təcrübə mübadiləsi aparmaq imkanı təqdim edə bilər.*

Qanunvericilikdəki çatışmazlıqlar sahəsində dialoqun qurulmasında (həm məzmun baxımından, həm də yerinə yetirilmə baxımından) MRTM-in işi MRTM ölkələrinin beynəlxalq insan hüquqları rejiminə göstərdiyi güclü öhdəçilik ilə dəstəklənəcəkdir. Bundan əlavə, bəzi ölkələr Avropa Şurasına Üzv Dövlətlərdir və bu səbəbdən AİHK-in və onun mövcud tətbiq mexanizmlərinin Tərəf Dövlətləridir. Bundan əlavə, **regiondakı bütün ölkələr Miqrasiya üzrə Qlobal Sazişin üzvləridir.**

4.2 Qanunvericiliyin Regional Xülasəsi

Regiondakı bütün ölkələr miqrasiya sahəsində qanunvericiliyi qəbul etmiş və həyata keçirirlər. Bəzi ölkələrdə miqrasiya qanunvericiliyinin təsirli bir keçmişi vardır. Məsləhətləşmə prosesi zamanı maraqlı tərəflər mövcud qanunvericilikdə və ya onun həyata keçirilməsində xüsusi boşluqları müəyyən etməmiş, əksinə bəzi qanunların hələ də çatışmadığını vurğulamışlar.

Bu çatışmazlıqların təhlilini aparmaq üçün mövcud olan əhatə dairəsi və sərt vaxt məhdudiyyəti səbəbindən, yuxarıda qeyd olunan hesabatda mövcud miqrasiya qanunvericiliyinindəki çatışmazlıqların təhlili təqdim edilmir, əksinə, miqrasiya qanunvericiliyi baxımından ən çox çatışmayan sahələrin müəyyən edilməsi nəzərdə tutulur. **MRTM-in hər bir ölkəsində mövcud olan miqrasiya qanunvericiliyinin geniş siyahısını "Ölkə Hesabatları" fəslində görə bilərsiniz.**

4.3 Əsas Hüquqi Çatışmazlıqların Təqdimatı:

- ✓ İnsan alveri sahəsində qanunvericilik bazasında əhəmiyyətli çatışmazlıqlar mövcuddur. Bu çatışmazlıqlar, xususilə insan alverçilərinin cinayət məsuliyyətinə cəlb edilməsinə və insan alveri qurbanlarının müdafiəsinə aiddir. Amerika Birləşmiş Ştatlarının İnsan Alverinə dair Hesabatında[2] region ölkələrinin əksəriyyətinin orta səviyyədə olduğu müəyyən edilir, (aşağı baxın) (Səviyyə 3 və ya 2)
- ✓ Əksər ölkələr hələ də İnteqrə Edilmiş Sərhəd İdarəçiliyinə dair mükəmməl qanunvericiliyə ehtiyac duyurlar;
- ✓ Sərhəd keçid məntəqələrində həssas qruplar, sığınacaq axtaranlar və qaçqınlar üçün istiqamətləndirmə mexanizmlərində də əhəmiyyətli çatışmazlıqlar müəyyən edilmişdir;
- ✓ Miqrantların inteqrasiyası ilə bağlı qanunvericilikdə də çatışmazlıqlar müəyyən edilmişdir;
- ✓ Miqrantlarin qəbuluna aid standartlarda, xüsusən də saxlanma və saxlanmanın alternativlərinə aid standartlarda çatışmazlıqlar müəyyən edilmişdir;
- ✓ Miqrantlara pulsuz hüquqi yardım göstərilməsi sahəsində çatışmazlıqlar müəyyən edilmişdir;
- ✓ Qayıdış və reinteqrasiya haqqında qanunvericilikdə də çatışmazlıqlar müəyyən edilmişdir;
- ✓ Əmək miqrasiyası ilə bağlı qanunvericilikdə, xüsusən də əməkçi miqrantların və onların ailələrinin hüquqları ilə bağlı mühüm çatışmazlıqlar müəyyən edilmişdir;
- ✓ Önəmli nailiyyətlərə baxmayaraq, vətəndaşsızlığın qarşısının alınması və azaldılması sahəsində bəzi çatışmazlıqlar müəyyən edilmişdir;
- ✓ Köməkçi müdafiə rejimində çatışmazlıqlar müəyyən edilmişdir;
- ✓ Məlumatların qorunması haqqında qanununda çatışmazlıqlar müəyyən edilmişdir;
- ✓ İqlim dəyişikliyi və ətraf mühit səbəbindən olan miqrantlarının müdafiəsinə dair siyasətlərdə çatışmazlıqlar müəyyən edilmişdir;
- ✓ Regiondakı əksər ölkələrdə COVID 19 və miqrasiyaya dair xüsusi qanunvericiliyə/qaydalara ehtiyac var (ya miqrantları xüsusi hüquqlar ilə/vaksinasiyaya, profilaktika kampaniyasına, yardım proqramlarına və s çıxış ilmkanı ilə mövcud planlara/qaydalara daxil etmək və ya xüsusi ehtiyacları nəzərə alınmaqla, onlar üçün xüsusi planlara daxil etmək).

[2] https://www.state.gov/reports/2021-trafficking-in-persons-report/

5. PRİORİTET OLARAQ MÜƏYYƏN EDİLƏN ƏSAS MİQRASİYA MÖVZULARININ XÜLASƏSİ

Anketlərin, müsahibə qeydlərinin və ölkə hesabatlarının diqqətli təhlili vasitəsi ilə aşağıdakı miqrasiya mövzuları **prioritet çatışmazlıqlar olaraq müəyyən edilmişdir (siyasətin və qanunvericiliyin hazırlanması, həmçinin həyata keçirilməsi baxımından).**

Bu tematik çatışmazlıqlar 5 sütun ətrafında bölünmüşdür:

(1) Qeyri-qanuni miqrasiya ilə mübarizə,
(2) Hərəkətlilik və Qanuni Miqrasiya
(3) Miqrasiya və İnkişaf
(4) Böhran Vəziyyətlərində Miqrasiya
(5) Müdafiə və İnsan Hüquqları (gender daxil olmaqla)
(6) Miqrasiya və ətraf mühit

(1) Qeyr-qanuni Miqrasiyaya qarşı Mübarizə:

- **Sərhəd İdarəçiliyi:**
  - ✓ Regionda bütün ölkələr sərhəd idarəçiliyi sistemini işə salmışdır, lakin çox vaxt onların İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi Sisteminin (IBM) əsas komponentləri yoxdur. Regionun bir neçə ölkəsi (xüsusən, Orta Asiyanın 5 ölkəsi (lakin bunlarla məhdudlaşmır) Orta Asiya və Əfqanıstanda Sərhəd İdarəetmə Proqramı (BOMCA) layihəsi vasitəsilə) İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi sahəsində potensialın gücləndirilməsi dəstəyi alır. BMqT İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi üzrə region ölkələrinə geniş dəstək verir və **MRTM yuxarıda göstərilən əsas çatışmazlıqları aradan qaldırmaq və İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi və onun xüsusi əsas komponentlərinə dair təlim vermək üçün səmərəli bir forumdur.**

  - ✓ **Müəyyən olunmuş əsas çatışmazlıqlar aşağıdakılardır:**

    - **Həssas insanlar üçün identifikasiya və istiqamətləndirmə mexanizmləri**
    - **Risklərin təhlili və risklərin idarə edilməsi**
    - **Üçüncü ölkə vətəndaşlarının qayıdışı və reinteqrasiyası**
    - **Məlumatların toplanması və idarə edilməsi**
    - **Tutulan miqrantların saxlanma sistemləri və standartları**
    - **Texniki və texnoloji potensialın artırılması üçün inkişaf ehtiyacları**

  - ✓ Müəyyən edilmiş çatışmazlıqlara baxmayaraq, regionda İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi ilə bağlı bəzi qabaqcıl təcrübələr mövcuddur və bu təcrübələr MRTM tərəfindən təşkil edilən təlim və siyasət müzakirəsi kontekstində hərəkətverici qüvvə ola bilər. Bu alt-bölmə, qabaqcıl təcrübələrin natamam tipologiyasını aşağıdakı kimi təqdim etmək məqsədi daşıyır:

    - **Siyasət sənədləri/konsepsiya sənədləri** baxımından Azərbaycan, Belarus Gürcüstan, Moldova və Ukrayna hərtərəfli İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi

strategiyalarını qəbul etmişdir. Rusiyada da İnteqrə Edilmiş Sərhəd İdarəçiliyinin güclü elementlərini özündə birləşdirən Dövlət Sərhədinin Federal Hədəf Proqramı vardır.

- **Transsərhəd cinayət və qanunsuz miqrasiya ilə bağlı transmilli əməkdaşlıq** baxımından bəzi ölkələr Aİ-nin Üzv Dövlətləri ilə müqavilələr bağlamışlar. Bu, transsərhəd cinayətlərə və qanunsuz miqrasiyaya qarşı mübarizəyə dair bir neçə ikitərəfli müqavilənin bağlandığı Moldovaya aiddir (2007-ci ildə Slovakiya ilə və 2010-cü ildə Rumıniya ilə).

- **Sərhəd idarəçiliyi üzrə birgə əməkdaşlıq** sahəsində, Aİ-nin Moldova və Ukraynaya Sərhəd Yardımı Missiyası (EUBAM) maraqlı bir sub-regional qabaqcıl təcrübə təşkil edir. Aİ-nin Moldova və Ukraynaya Sərhəd Yardımı Missiyası 2005-ci ildə fəaliyyətə başlamışdır və o vaxtdan başlayaraq Dnestryanı "dondurulmuş münaqişə" kontekstində konkret sərhəd idarəçiliyi tədbirlərini dəstəkləmişdir.

  Aİ-nin Moldova və Ukraynaya Sərhəd Yardımı Missiyasının Moldova-Ukrayna sərhədinin hər iki tərəfindəki məsləhətçi fəaliyyətləri insan alveri və qanunsuz miqrasiyanın qarşısının alınması və onlara qarşı mübarizə, həmçinin insan alveri qurbanlarının hüquqlarının müdafiəsi ilə əlaqədar əməliyyat tədbirlərinin səmərəliliyini artırmaq məqsədi daşıyır.

  Qeyri-qanuni miqrasiya və insan alveri sahəsində Aİ standartlarının lazımi şəkildə tətbiq edilməsini təmin etmək üçün Aİ-nin Moldova və Ukraynaya Sərhəd Yardımı Missiyası Moldova və Ukraynanın sərhəd xidmətlərinə **insan alveri qurbanlarının müəyyən edilməsində istifadə olunan ümumi indikatorların hazırlanmasında, risklərin təhlili və sərhəd yoxlama prosedurlarının təkmilləşdirilməsində köməklik göstərir və müqayisəli statistika yaratmaq üçün yeni müvafiq iş metodlarının hazırlanması və məlumatların toplanmasına dair məsləhət verir.**

- **İnsan Alverinin qarşısının alınması və onunla mübarizə**

  - ✓ Insan alverinin qarşısının alması və həll edilməsi üçün siyasət və proqramlar çatışmazlıqların olması ilə xarakterizə olunur (həm instutisional quruculuq, siyasət, həm də qanunvericiliyin məzmunu və həyata keçirilməsi baxımından). **Qurbanların müdafiəsi sahəsində (istiqamətləndirmə və müdafiə sistemlərinin gücləndirilməsinə ehtiyac), eyni zamanda qanunvericiliyin hazırlanması (cinayət məcəllələri) və həyata keçirilməsi (cinayətkarların məhkəmə təqibi, qurbanların müdafiəsi və s.) sahələrində güclü çatışmazlıq** vardır.

  - ✓ Regionun yalnız bir ölkəsi, Gürcüstan ABŞ Dövlət Departamentinin İnsan alverinə dair Hesabatının 1-ci Pilləsində insan alverinin aradan qaldırılması üçün minimum standartlara tam uyğun olaraq qiymətləndirilir. Bu, Gürcüstana aiddir. Regionun bir neçə ölkəsi ABŞ Dövlət Departamentinin İnsan alverinə dair Hesabatının 2-ci Pilləsində yer alır, yəni İnsan Alverinin aradan qaldırılması üçün minimum standartlara tam cavab verməsələr də, bunun

üçün ciddi səylər göstərirlər (bu, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Moldova, Türkiyə, Özbəkistan və Ukraynaya aiddir). Digərləri isə 3-cü Pillədə sıralanır, bu, o deməkdir ki, bu ölkələr bunun üçün ciddi səy göstərməmiş kimi qiymətləndirilirlər (Belarus, İran, Rusiya, Tacikistan, Türkmənistana aiddir).

- ✓ Gürcüstan və 2-ci Pillədə qiymətləndirilən ölkələr, **insan alverini aradan qaldırmaq üçün minimum standartlara cavab vermək məqsədilə etdikləri səyləri bölüşmək üçün çox maraqlı qabaqcıl təcrübələrə malikdirlər. Bu səylər, xüsusilə vətəndaş cəmiyyətinin rolu, insan alveri qurbanlarının müəyyən edilməsi mexanizmləri, insan alverçilərinə daha sərt cəzaların verilməsi üçün cinayət məcəllələrinə dəyişikliklərin edilməsi, qurbanların müdafiəsi, hüquq-mühafizə orqanlarının təlimi və s. sahələrdə rast gəlinir.**

- **Qanunsuz miqrantların, o cümlədən quru və hava sərhədlərində, qəbulu və saxlanması (saxlanmanın alternativləri, uşaq hüquqları, pulsuz hüquqi yardım və s. daxil olmaqla) üzrə Çərçivələr və Standartlar**

  - ✓ **Bu, regionun bütün ölkələrində təkmilləşdirmə tələb olunan sahədir.** Məsələlər aşağıdakılardan ibarətdir:
    - **İnfrasrukturun inkişafı;**
    - **Həssas qrupların müdafiəsi;**
    - **Saxlanma ilə bağlı qanunvericilik çərçivələri (saxlanmanın məqsədi və müddəti və s.)**
    - **Vətəndaş cəmiyyətindən olan tərəfdaşların saxlanma yerlərinə (o cümlədən beynəlxalq sərhədlərdə) çıxışı**
    - **Saxlanma və qəbul şəraitinin monitorinqi**
    - **İstiqamətləndirilmə mexanizmləri;**
    - **Saxlanma yerlərində qadınların və uşaqların qəbul şəraitinin gender cəhətləri;**
    - **Saxlanma üçün alternativlər;**
    - **Saxlanma qərarlarına məhkəmədə yenidən baxılması;**

- Vətəndaşların və Üçüncü Ölkə Vətəndaşlarının Qayıdışı, Readmissiyası və Reinteqrasiyası

  - ✓ **Regionda bütün ölkələr qayıdış və readmissiya sahəsində çətinliklərlə üzləşirlər.** Bu, xüsusilə aşağıdakı sahələrdə özünü göstərir:

    - **Qayıdış zamanı məlumatların toplanması;**
    - **Readmissiya sazişlərinin müzakirəsi;**
    - **Readmissiya sazişlərinin həyata keçirilməsi, o cümlədən üçüncü ölkə vətəndaşlarına münasibətdə;**
    - **Yola düşmə öncəsi brifinq və geri qayıdan şəxslərə yardım**

- **Geri qayıdan şəxslərin sosial fondlara (pensiyalara) çıxışının təmin edilməsi və xaricdə qazandıqları ixtisasların tanınması (diplomların tanınması və s.)**
- **COVID 19 pandemiyası çatışmazlıqları daha da artırmış və yeni problemlər yaratmışdır, çünki regionda bir çox miqrant çətin vəziyyətdə qalmış və evlərinə qayıda bilməmişdir və/və ya Readmissiya Sazişlərinin həyata keçirilməsinə maneə yaranmışdır.**

✓ **BMqT Könüllü Qayıdış və Reinteqrasiya sahəsində regionda əhəmiyyətli rol oynayır.** Könüllü Qayıdış və Reinteqrasiya proqramları regionun bir çox ölkələrində (Gürcüstan, Moldova, Türkiyə və s.) BMqT tərəfindən dəstəklənir. 2019-cu ildə BMqT reinteqrasiya yardımının hazırlanması, həyata keçirilməsi və monitorinqi ilə bağlı praktiki təlimat – Reinteqrasiyaya dair Təlimatını nəşr etdi. **Bu Təlimat regionda maraqlı tərəflər üçün əsas vasitədir və MRTM çərçivəsi qayıdış, readmissiya və reinteqrasiyaya həsr olunmuş xüsusi təlim fəaliyyətində Təlimatın məzmununu təqdim etmək üçün səmərəli imkan təşkil edir.**

✓ **Region ölkələri, ümumiyyətlə Readmissiya Sazişləri danışıqlarında və həyata keçirilməsi sahəsində fəaldırlar.** BMqT, regionun bir çox ölkələrində Readmissiya Sazişləri üzrə danışıqlar prosesinin və onların həyata keçirilməsinin dəstəklənməsində mühüm rol oynamışdır. Bu cür müqavilələrin əksəriyyəti həm vətəndaşlar, həm də üçüncü ölkə vətəndaşları ilə bağlıdır. Bununla belə, bu cür sazişlərin həyata keçirilməsi çətinliklərlə üzləşir və yuxarıda da qeyd edildiyi kimi, COVID 19, ümumiyyətlə bu sazişlərin həyata keçirilməsinə mənfi təsir etmişdir. Aşağıda regionda mövcud olan ikitərəfli Readmissiya Sazişlərinin nümunələri (tam siyahısı deyil) verilmişdir:

- Regiondakı əksər ölkələr **Aİ ilə Readmissiya Sazişləri** imzalamışdır, bu, xüsusən də Azərbaycan, Belarus, Gürcüstan, Moldova, Rusiya, Türkiyə və Ukraynaya aiddir.

- **Region ölkələri arasında** bir sıra **Readmissiya Sazişləri imzalanmışdır və ya danışıqlar mərhələsindədir** (Gürcüstan **Ukrayna**, İsveçrə, Norveç, Danimarka, **Moldova, Belarus** və İslandiya ilə Readmissiya Sazişləri bağlamışdır. Hazırda Bosniya və Herseqovina, Serbiya, Monteneqro, Şri Lanka, Qazaxıstan, Azərbaycan və Pakistan ilə danışıqlar aparılır. Rusiya Ermənistan, **Özbəkistan, Ukrayn**a, Vyetnam, Norveç, Danimarka, İslandiya, İsveçrə, Qazaxıstan, Qırğızıstan, Türkiyə və s. ilə Readmissiya Sazişləri imzalamışdır).

- **Lakin Readmissiya Sazişlərinin konkret həyata keçirilməsi müəyyən sahələrdə problemli olaraq qalır** (və COVID 19 Pandemiyası həyata keçirilmə problemlərini daha da ağırlaşdırmışdır.)

✓ **Readmissiya və reinteqrasiya sahəsində**, regionda əhəmiyyətli çatışmazlıqlar hökm sürür, belə ki, geri qayıdan miqrantlar tez-tez mənşə ölkələrinə və/və ya daimi yaşadıqları

ölkəyə reinteqrasiya məsələsində taleyin ümidinə buraxılmiş olurlar. Bəzi ölkələrdə aşağıda göstərildiyi kimi müəyyən qabaqcıl təcrübələr tətbiq edilmişdir (siyahı tam deyil):

- **Azərbaycanda** DMX-in yanında müvafiq dövlət qurumlarının nümayəndələrindən ibarət İşçi Qrupu yaradılmışdır. İşçi Qrupu reinteqrasiya məsələlərini müzakirə etmək üçün ildə iki dəfə toplanır. Konkret layihənin icrası baxımından, bu yaxınlarda Azərbaycan Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (ICMPD) dəstəyi və Almaniya, Polşa və Hollandiyanın maliyyə yardımı ilə readmissiya edilmiş Azərbaycan vətəndaşlarına yardım göstərilməsi nəzərdə tutulan RESTART layihəsini həyata keçirmişdir.

- **Türkiyədə:** hər il təkcə Almaniyadan Türkiyəyə 30.000 miqrantın qayıtdığı bildirilir. Könüllü Qayıdış və Reinteqrasiya 2009-cu ildən başlayaraq BMqT-nin Türkiyədəki əsas fəaliyyətlərindən biri olmuşdur. Yardımlı Könüllü Qayıdış və Reinteqrasiya qəbul edən və ya tranzit ölkələrdə qala bilməyən və ya istəməyən və öz ölkələrinə könüllü qayıtmaq istəyən miqrantların qaydalı qayıdışına və reinteqrasiyasına şərait yaradır.
- **Rusiyada:** 2006-cı ildə "Xaricdə yaşayan həmvətənlilərin Rusiya Federasiyasına könüllü köçürülməsinə yardım üzrə Milli Proqram" qəbul edildi. Lakin bu proqram əsasən Rusiya vətəndaşlığı olmayan şəxslərə yönəldilmişdir - 2007-2012-ci illərdə bu Proqram çərçivəsində qayıdan 80.000 nəfərdən yalnız 4% -nin Rusiya vətəndaşlığı olmuşdur.

- **Moldova,** Moldova vətəndaşlarının getdiyi ölkələrlə (Bolqarıstan, Portuqaliya, Avstriya, Estoniya, Lüksemburq və s.) 14 sosial təminat müqaviləsi imzalamışdır ki, bu da təyinat ölkəsində əldə edilmiş pensiya hüquqlarının, həmçinin ölkəyə qayıdışda istifadəsinə imkan verəcəkdir. Hazırda Rusiya Federasiyası, İspaniya Krallığı və Yunanıstan Respublikası ilə danışıqlar aparılır.

(1) Çatışmazlıqlar üzrə tövsiyələr :

- ***Beynəlxalq sərhədlərdə sığınacaq axtaranlar və digər həssas qrupların müdafiəsi üçün İdentifikasiya və İstiqamətləndirmə Mexanizmləri üzrə Beynəlxalq standartlar və qabaqcıl təcrübələrə dair təlim***

- ***Miqrasiya sahəsində Risklərin Təhlilinə dair Təlim (BMqT, FRONTEKS və s.)***

- ***Qanunsuz miqrantların qəbulu və saxlanması (saxlanma alternativləri, uşaq hüquqları və s. daxil olmaqla) üzrə standartlar və qabaqcıl təcrübələrə dair təlim***

- ***İnsan alverinin gender perspektivi də daxil olmaqla insan alveri ilə əlaqəli beynəlxalq norma və standartlar üzrə təlim***

- ***İnsan alverinə qarşı mübarizə təşkilatları, cinayətkarların məhkəmə təqibi, qurbanların müdafiəsi (Palermo Protokolu, Təhlükəsiz evlər və s.) üzrə qabaqcıl təcrübələrin mübadiləsi***

- ***Həm vətəndaşlar, həm də üçüncü ölkə vətəndaşları üçün Readmissiya Sazişinin müzakirəsi və həyata keçirilməsinə dair siyasət müzakirələri (Readmissiya Sazişinin məzmunu, həyata keçirilmə mexanizmləri, həyata keçirilməsindəki problemlər, məlumatların toplanması, təhlili və mübadiləsi, COVID 19-un təsiri və ona qarşı cavab tədbirləri, qabaqcıl təcrübələr və s.)***

- ***Qayıdış, readmissiya və reinteqrasiya (beynəlxalq standartlar, BMqT-nin Təlimatı, reinteqrasiya siyasəti və proqramlarına dair qabaqcıl təcrübələr və s.) üzrə təlim***

(2) ***<u>Qanuni miqrasiya:</u>***

- ✓ Regiondakı bütün ölkələr immiqrasiya ölkələridir, lakin **regionun bəzi ölkələrində miqrasiyanı tənzimləmək, hərəkətliliyi təşviq etmək və miqrantların hüquqlarını müdafiə etmək üçün siyasət və qanunvericilik yoxdur. Bu ciddi çatışmazlıqlar çox vaxt tənzimlənməyən miqrasiyanın mövcudluğuna gətirib çıxarır ki, bu da öz növbəsində beyin itkisinə və milli inkişaf imkanlarının əldən verilməsinə, insan alverinin artmasına və əməkçi miqrantların və onların ailələrinin hüquqlarının pozulmasına səbəb olur.**

- ✓ **Əsas çatışmazlıqlar aşağıdakı kimi müəyyən edilir:**

  - **Regionun bəzi ölkələrində,** əmək miqrasiyası sahəsində, xüsusən də mövsümi miqrasiya sahəsində **mükəmməl miqrasiya idarəçiliyi siyasəti və/və ya mexanizmləri olmadığı görünür**, bu da, həmin miqrantların insan hüquqları ilə əlaqədar ciddi narahatlıq yaradır. **Bəzi ikitərəfli əməkdaşlıq sazişləri regionun bir çox ölkələrində mövcuddur**, lakin onların əsasən əmək miqrasiyasının müvəqqəti və ya qeyri-sabit formalarını dəstəklədiyi və miqrantların və onların ailələrinin insan hüquqları ilə bağlı vacib sahələrə toxunmadığı görünür.

  - Digər ölkələrdə miqrantların qəbulu və sənədləşdirilməsinin əlaqələndirilmiş sistemləri yoxdur (bir pəncərə sistemi və s.).

  - Bəzi ölkələr **miqrantların ixtisaslarını yerli bazarın ehtiyacları ilə uyğunlaşdırmaq üçün əmək bazarının təhlilini** aparmış və ya aparmaqdadırlar (məsələn, Moldova və Türkiyə), lakin **əksər ölkələr bu cür təhlillər aparmırlar və/və ya bu cür təşəbbüsləri həyata keçirmək üçün hələ də potensialın gücləndirilməsi səylərinə ehtiyacları var.**

  - Əksər ölkələr hələ də **xarici sərmayədarları və yüksək ixtisaslı miqrantları cəlb etmək üçün siyasət və qanunvericiliyi** işləyib hazırlamalıdırlar.

- Ümumiyyətlə, regionda maraqlı təcrübələr olmasına baxmayaraq, **tələbələrin hərəkətliliyinə dair siyasətin hazırlanması və həyata keçirilməsi mövcud deyildir**.

- **Əməkçi miqrantların və onların ailələrinin insan hüquqlarının müdafiəsi bir neçə ölkədə və/və ya sahədə kifayət dərəcədə mövcud deyildir.** Bu, xüsusilə əmək miqrasiyası tənzimlənmədikdə (çox vaxt de-fakto "dairəvi miqrasiya" sxemləri şəklində) baş verir.

- COVID 19 pandemiyası, regiondaxili səviyyə də daxil olmaqla, regionda əmək miqrasiyası axınlarına güclü təsir göstərmişdir (xüsusilə Rusiya ilə Orta Asiya ölkələri arasında). Miqrantlar, vaxtı keçmiş sənədlər və/və ya yenidən giriş qadağaları ilə, miqrasiya ölkəsində çətin vəziyyətdə qalmışdır (bu, xüsusilə Tacikistana aiddir). Regionda bəzi ölkələr tərəfindən tətbiq edilən müəyyən yumşaldıcı siyasət və proqramlara baxmayaraq, bu vəziyyət sənədsiz əməkçi miqrantlarının artmasına və onların həssaslıq səviyyələrində, insan alveri situasiyalarında, həmçinin, insan hüquqlarının pozulması hallarında sonrakı artıma gətirib çıxarmışdır.

✓ **Qabaqcıl təcrübələr** aşağıdakı kimi müəyyən edilmişdir:

Bununla belə, bəzi ölkələr əmək miqrasiyası sahəsində qabaqcıl təcrübələri inkişaf etdirmişlər ki, bu da MRTM-in fəaliyyəti kontekstində qabaqcıl siyasət müzakirəsinə/təlimə/qabaqcıl təcrübə mübadiləsinə xidmət edə bilər.

- Regionun bir neçə ölkəsi **əmək miqrasiyası sahəsində ikitərəfli əməkdaşlıq müqavilələri** imzalamışdır, bu müqavilələrdən bəziləri region üçün qabaqcıl təcrübələr təqdim edə bilər. Bu müqavilələrdən bəzilərinin beynəlxalq standartlara uyğun gəlmədiyi görünür, buna görə də, onlar miqrantların və onların ailələrinin insan hüquqlarının müdafiə olunmasına tam olaraq əmin olmağa imkan vermir. Bu cür müqavilələr, məsələn, aşağıdakılardır:

  - **Moldova,** əmək miqrasiyası sahəsində (**Ukrayna, Rusiya Federasiyası, Azərbaycan, Belarusiya, İtaliya, İsrail və Bolqarıstan** ilə) Moldova vətəndaşlarının həmin ölkələrin ərazisində işlə təmin olunma hüququnu, həmçinin məşğulluq şərtlərini tənzimləyən 7 ikitərəfli müqavilə imzalamışdır;

  - **Özbəkistan/Rusiya və Tacikistan/Rusiya Əmək Müqavilələri** (Rusiya Özbək və Tacik miqrantlar üçün əsas təyinat ölkəsidir). Mənşə ölkənin səlahiyyətli orqanları miqrantların təlimi (yola düşmə öncəsi təlimlər) və Rusiya tərəfi (işəgötürənlər) isə özbək miqrantlara mənzil, uyğun əmək haqqı və təhlükəsiz iş şəraitini təmin etmək üçün məsuliyyət daşıyır). Bu sxem yalnız müvəqqəti/mövsümi miqrasiya ilə məhdudlaşır;

  - **Ukrayna** (Əhalinin Sosial Müdafiəsi Nazirliyi) Rusiya ilə əmək miqrasiyasını tənzimləyən Anlaşma Memorandumu imzalamışdır. **Əmək miqrasiyasına dair**

oxşar ikitərəfli müqavilələr Azərbaycan və Belarusiya da daxil olmaqla bir sıra digər ölkələr ilə də imzalanmışdır.

- **Sosial təminat və pensiya sahəsində** də qabaqcıl təcrübələr hazırlanmışdır. Məsələn, **Moldova, Moldova vətəndaşlarının təyinat ölkələri ilə** (Bolqarıstan, Portuqaliya, Avstriya, Estoniya, Lüksemburq və s.) **14 sosial təminat müqaviləsi imzalamışdır** ki, bu da onlara təyinat ölkəsində əldə edilən pensiya hüquqlarından, həmçinin ölkəyə qayıtdıqda, istifadə etməyə imkan verəcək. Hazırda Rusiya Federasiyası, İspaniya Krallığı və Yunanıstan Respublikası ilə danışıqlar aparılır.

- Regionun bir neçə ölkəsi **tələbələrin hərəkətliliyinə şərait yaratmaq** üçün maraqlı proqramlar qəbul etmişdir. Bəzi qabaqcıl təcrübələr aşağıdakılardır (siyahı tam deyil):

- **Azərbaycan** Hökuməti 2007-ci ildə Təhsil Nazirliyi tərəfindən **tələbələrin hərəkətliliyinə şərait yaratmaq və artırmaq məqsədi ilə** həyata keçirilən **gənclərin təhsili ilə bağlı on illik bir proqrama** başlamışdır. Proqramın müddəti 2019-2023-cü illəri əhatə etmək üçün daha da uzadıldı. Bu, seçilmiş tələbə qruplarının milli əmək bazarına uyğun olan bacarıqları əldə etməsi üçün xaricdə təhsil almasına imkan verir. Proqram, bütün təhsil səviyyələrində 5000 azərbaycanlı tələbəni hədəfə alan müxtəlif təhsil kurslarında müxtəlif təqaüdlər təklif edir. Tələbələrin yarıdan çoxu əsasən İngiltərə, Almaniya və Fransadakı Avropa universitetlərində təhsil alır, digərləri isə Türkiyə və Rusiya Federasiyasındakı universitetlərdə oxuyurlar.

- .**Rusiya da xarici tələbələrin hərəkətliliyi üçün** (xüsusilə Orta Asiya və Qafqazdan olan) çox cəlbedici ölkədir və tələbələrin hərəkətliliyi üçün cəlbedici bir siyasətə malikdir. Lakin, təhsili başa vurduqdan sonra iş imkanları asan əldə edilmir və bunun əvəzində yüksək ixtisaslı miqrantların qanunsuz miqrasiyasına səbəb ola bilər.
  Rusiya **Özbəkistan, Macarıstan, Anqola, Kamboca və Slovakiya Respublikası ilə xarici ixtisasların tanınması ilə bağlı ikitərəfli müqavilələr** imzalamışdır.

- **Türkiyə** də tələbələr üçün cəlbedici ölkədir. **2005-ci ildən başlayaraq Türkiyə universitetlərində qeydiyyatdan keçmiş əcnəbi tələbələrin sayı iki dəfə artmışdır.** Bunun səbəbi, **hökumətin xarici tələbələri cəlb etmək məqsədi daşıyan siyasətidir** (Türkiyənin təhsil sistemi beynəlxalq standartlara uyğunlaşdırılmış və ERASMUS proqramına qoşulmuş, ingilis dilində kurikulumlar hazırlanmışdır. Bundan əlavə, hökumətin iddialı təqaüd siyasəti həyata keçirilmişdir).

- **Ukrayna** da **tələbə hərəkətliliyini asanlaşdıran islahatlar** həyata keçirmişdir. (Ukraynanın "Ali Təhsil haqqında" 2014 -cü il tarixli Qanunu milli ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyasına və Ukrayna universitetlərinin Erasmus + və

Horizon 2020 kimi proqramlarda fəal iştirakını təmin etməyə yönəldilmişdir). Nəticədə, Ukrayna indi xaricə vacib tələbə təchizatçısıdır.

(2) <u>Çatışmazlıqların aradan qaldırılması üzrə tövsiyələr:</u>

- ***Əməkçi miqrantların və onların ailələrinin müdafiəsi üzrə beynəlxalq standartlara dair (BMT və BƏT Konvensiyaları) Təlim***
- ***Hər bir miqrant kateqoriyasının və ailələrinin sənədləşdirilməsi*** *üzrə standartlar və qabaqcıl təcrübələr haqqında təlim*
- ***Beyin axını və beyin itkisinin qarşısını almaq və həll etmək üçün siyasət və vasitələr*** *üzrə qabaqcıl təcrübə mübadiləsi*
- *Tərk edilən ailələr, problemlərin və imkanların müəyyən edilməsi və mövcud qabaqcıl təcrübələrin təqdimatı*
- ***Miqrantların Qəbulu Standartlarına (bir pəncərə sistemi)*** *dair standartlar və qabaqcıl təcrübələr üzrə təlim*
- ***Miqrantların İnteqrasiyasına (standartlar və qabaqcıl təcrübələr)*** *dair standartlar və qabaqcıl təcrübələr üzrə təlim*
- ***Beynəlxalq və Avropa Təhsil sistemlərinə (ERASMUS və s.) mövcud inteqrasiya proqramları və diplomların tanınması daxil olmaqla, tələbələrin hərəkətliliyi üzrə (ali təhsil müəssisələri ilə)*** *qabaqcıl təcrübələrin mübadiləsi*
- ***Ailənin qovuşması, ailənin yenidən birləşməsi və ailənin birliyi prinsipi*** *ilə bağlı standartlar və qabaqcıl təcrübələr haqqında təlim*
- ***Mövsümi və dairəvi miqrasiya (gender baxımından miqrantların hüquqları daxil olmaqla)*** *üzrə qabaqcıl təcrübələrin mübadiləsi*
- ***Yüksək ixtisaslı mütəxəssislərin miqrasiyası: anlayışı, cəlbedici siyasətlər üzrə qabaqcıl təcrübələr, xarici investorların hüquqi statusu (qabaqcıl təcrübələr)***
- ***COVID-in regionda hərəkətliliyə təsirinə, yumşaldıcı tədbirlərə, insan hüquqlarına təsirinə və tələb olunan cavab tədbirlərinə dair siyasət müzakirəsi***

(3) <u>Miqrasiya və İnkişaf</u>

- **Regionda bəzi ölkələr** (əsasən, Şərq Tərəfdaşlığı əməkdaşlığı kontekstində, amma yalnız onunla məhdudlaşmadan, BmqT və BMTİP-in dəstəyi ilə) **miqrasiyanı inkişaf strategiyalarına daxil etmək üçün inkişaf etmiş mexanizmlər tətbiq etmişlər.** Bu, xüsusilə **Moldovaya** (xaricdə çoxlu miqrant əhalisi və fəal diasporası olan ölkə) aiddir.

- ✓ Bütün region ölkələri miqrasiyanın təklif etdiyi inkişaf potensialından məlumatlıdır, lakin onlardan bəziləri beynəlxalq hərəkətliliyi bir imkan olaraq deyil, milli inkişaf baxımından (beyin itkisi və beyin axını vasitəsilə) təhdid olaraq görürlər.

- ✓ Nəhayət, **qabaqcıl/ən yaxşı təcrübəyə malik ölkələr də daxil olmaqla, institusional və siyasət çərçivələri hələ də yoxdur, miqrantlar ilə** (qadınlar və kişilər, o cümlədən gənclər) **məsləhətləşmə sistemləri də mövcud deyildur**. Regionda diaspora ilə məsləhətləşmə sahəsində qabaqcıl təcrübə mövcuddur. Məsələn, Moldova diaspora ilə əlaqələr üzrə xüsusi bir dövlət qurumu yaratmışdır.

- ✓ **MRTM-in bu imkanları təqdim etmək üçün bir forum təmin etməsi** vacibdir ki, **miqrasiya paradiqmasında bir sıra dəyişikliklər əidiyyəti ölkələrin xeyrinə baş versin** (region xaricində olan bəzi ölkələr region üçün bu sahədə yaxşı bir təcrübə ola bilər).

- ✓ **DİM-lər regionda maraqlı tərəflərə əsasən məlumdur** və məsləhətləşmə prosesində ölkələrdən bəziləri onları sistemli şəkildə siyasətin hazırlanmasına daxil etdiyini bildirmişlər, lakin miqrasiyanın inkişafa daxil edilməsini dəstəkləmək üçün onların tam potensialı regionda ölkələr tərəfindən hələ reallaşdırılmamışdır.

(3) Çatışmazlıqlar üzrə tövsiyələr:

- ➢ *Miqrasiyanın Milli İnkişaf Strategiyalarına və Planına daxil edilməsi üçün metodologiyanın, vasitələrin və qabaqcıl təcrübələrin təqdim edilməsi*

- ➢ *Miqrasiyanın milli inkişafa təsirinin ölçülməsi (həm emiqrasiya, həm də immiqrasiya ölkələri), məlumatların toplanması və məlumatların təhlili vasitələri, indikatorların hazırlanması və qabaqcıl təcrübə mübadiləsi (regionda və onun hüdudlarından kənarda).*

- ➢ *Mənşə **ölkəyə diasporanın cəlb edilməsi** üzrə qabaqcıl təcrübə mübadiləsi (qabaqcıl təcrübələr region xaricindəki ölkələri də əhatə edə bilər, məsələn Mərakeş)*

- ➢ *Qadın miqrantların inkişafda rolu (miqrasiya ölkəsi və mənşə ölkəsi) DİM-lər və Miqrasiya*

- ➢ *Miqrantların mənşə ölkəsinin inkişafında pul köçürmələrin (maliyyə (pul) və qeyri -maddi köçürmələr) rolu*

- ➢ *Emiqrasiya ölkələrində beyin axınının qarşısını alınması üzrə siyasətlər, immiqrasiyada beyin itkisi və beynəlxalq hərəkətliliyin inkişafı potensialı*

(4) Böhran vəziyyətində miqrasiya

- ✓ MRTM regionunda bütün ölkələr, fərqli dərəcədə, **miqrasiya böhranı vəziyyətlərinə cavab tədbirləri baxımından çətinliklər ilə üzləşir**. Yalnız Türkiyə 3,6 milyondan çox sığınacaq axtaran və qaçqın qəbul etmişdir. İran onilliklər ərzində 3 milyondan çox qaçqın və digər məcburi miqrantı qəbul etmişdir. Digər ölkələr həm qaçqın, həm də məcburi köçkün böhranı ilə üzləşmişdir. Azərbaycan uzun sürən qaçqın və məcburi köçkün vəziyyətlərinin həllində geniş təcrübəyə malikdir. Region ölkələrinin çoxu, həmçinin vətəndaşsızlığın azaldılması və qarşısının alınması ilə bağlı problemləri həll etmək məcburiyyətində qalmışdır.

- ✓ Bu sahələrdə əldə olunan əhəmiyyətli nailiyyətlərə baxmayaraq, əsas problemlərin hələ də həll edilməsinə ehtiyac vardır və miqrasiyanın böhran aspekti MRTM-in işinin vacib komponenti olaraq qalacaq.

- ✓ Əfqanıstanda sürətlə dəyişən və qeyri-sabit vəziyyəti, geo-siyasi, humanitar və təhlükəsizlik problemlərini nəzərə alsaq, bunun, regionun əksər ölkələri üçün (xüsusən Tacikistan, Özbəkistan, Türkiyə, İran, Rusiya və s üçün, amma onlarla məhdudlaşmadan) təhlükə yarada biləcəyi ehtimal olunur. MRTM çərçivəstində ABŞ qoşunlarının ölkədən çıxarılmasının nəticəsi kontekstində Əfqanıstan və miqrasiya, fövqəladə vəziyyətlər üçün fəaliyyətin planlaşdırılmasına dair xüsusi regional dialoq və insan hüquqları və miqrasiya meylləri (qaçqınların və miqrantların könüllü olaraq qayıdışı, məcburi miqrasiya) haqqında regional müzakirə (bura həm də güclü gender perspektivi və məsuliyyətın bölgüsü ilə bağlı müzakirələr də daxil olacaq) təkidlə tövsiyə olunur.

- ✓ BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının sığınacaq sistemləri yaradan və qaçqınların yerli inteqrasiyasına kömək edən hökumətləri dəstəklədiyini nəzərə alaraq, MRTM məsləhətləşmə prosesində maraqlı tərəflər tərəfindən müəyyən edilən və regional dialoqun güclü əlavə dəyər kəsb edəcəyi prioritet regional sahələrə diqqət yetirəcəkdir.

- ✓ Belə bir siyasət dialoqu bütün dünyada həssas bir mövzudur və bu, xüsusilə Miqrasiya üzrə Qlobal Sazişin imzalanması prosesi kontekstində və Aİ-nin üzv dövlətlərinin dialoqu çərçivəsində müfəssəl şəkildə müzakirə edilmişdir. MRTM, bu əsas siyasət məsələsinə dair siyasət dialoqu üçün bir forum təklif edə bilər.

- ✓ Regionun əksər ölkələri BMT-nin Qaçqınlar üzrə Konvensiyasının Tərəf Dövlətlərdir. Tərəf Dövlət olmayan (İran) və ya Avropadan olmayan qaçqınlar üçün coğrafi məhdudiyyət nəzərdə tutulan Konvensiyanı ratifikasiya edən ölkələr (Türkiyə) qaçqınlara və məcburi köçkünlərin digər kateqoriyalarına münasibətdə güclü qonaqpərvərlik nümayiş etdirmişlər. Bu konteksdə, köməkçi müdafiə formalarının daxil olduğu siyasət və qanunvericiliyin qəbul edilməsi və **həyata keçirilməsi onlara 1951-ci il Konvensiyasının ciddi anlayışından kənar sahələrdə də qaçqınların müdafiəsi sistemini gücləndirməyə imkan verəcəkdir.** Bəzi ölkələr müvafiq Aİ Direktivinin ("Aİ-nin İxtisaslar üzrə Direktivi") öz hüquqi çərçivələrinə köçürülməsi prosesindən keçmişdir və buna görə də, köməkçi müdafiə formalarını (kütləvi şəkildə insan hüquqlarının pozulması, ümumiləşdirilmiş münaqişə vəziyyəti və s.) tam şəkildə öz qanunvericiliklərinə daxil etmişdir. Bütün iştirakçı ölkələr bu standartlardan və Aİ-nin Direktivlərini hüquqi

çərçivələrinə köçürən ölkələrin qabaqcıl təcrübələrini paylaşmaqdan ciddi şəkildə faydalana bilər.

- ✓ Vətəndaşsızlığın azaldılması və qarşısının alınması regionun əksər ölkələrində (xüsusilə Orta Asiya ölkələri, Rusiya və Ukrayna) əsas prioritetləri təşkil etmişdir. Regionun bir neçə ölkəsi BMT-nin müvafiq alətlərini ratifikasiya etmişdir *(yuxarıda, bu hesabatın 1-ci Fəslində ratifikasiya cədvəlinə baxın)*. Az sayda digər ölkələr də Avropa Şurası çərçivəsində Vətəndaşlığa dair Konvensiyasının Tərəf Dövlətləridir. Regionun bütün ölkələri vətəndaşlıq haqqında qanunlar qəbul etmişdir. Regioun bəzi ölkələri qabaqcıl təcrübələr təqdim edirlər, bu, xüsusilə **Türkmənistana və Qırğızıstan Respublikasına** aiddir.

  Son 15 ildə Türkmənistan 26 min qaçqın və vətəndaşlığı olmayan şəxsə vətəndaşlıq vermişdir. Bunlara, 2011-ci ildə ölkənin Vətəndaşlığı olmayan şəxslərin statusu ilə bağlı 1954-cü il Konvensiyasına qoşulduğu gündən başlayaraq vətəndaşlıq almış təxminən 13000 vətəndaşlığı olmayan şəxs daxildir.Vətəndaşlıq vəziyyəti haqqında son zamanlar qəbul edilmiş Aktlar vətəndaşsızlığın **qarşısını** doğuşda **almağa** kömək etmiş, sənədsiz valideynləri olanlar da daxil olmaqla ölkədə doğulan bütün uşaqların doğumlarının qeydiyyata alınmasını təmin etmişdir.

- ✓ **Böhran miqrasiyasının gender perspektivi** BMT-nin əhəmiyyətli bir prioritetidir və Miqrasiya üzrə Qlobal Sazişdə tam şəkildə öz əksini tapmışdır.

(4) <u>Çatışmazlıqlar üzrə tövsiyələr:</u>

- ➢ *Qaçqınların və miqrantların kütləvi axını vəziyyətində humanitar tədbirlər və məsuliyyət bölgüsü anlayışı, onların praktiki reallaşması (siyasət və təcrübələr) və gələcək planlar haqqında siyasət dialoqu*

- ➢ ***Köməkçi müdafiə anlayışı**, norma və standartlar və qabaqcıl təcrübələrin paylaşılması haqqında **təlim***

- ➢ ***Vətəndaşsızlığın qarşısının alınması və azaldılması və regionda qabaqcıl təcrübələrin** (uşağın doğuşda qeydiyyatı, vətəndaşlığa dair qanununun gender perspektivi və beynəlxalq standartlar və s. daxil olmaqla) **mübadiləsi ilə bağlı beynəlxalq norma və standartlar üzrə** təlim*

- ➢ ***Beynəlxalq Humanitar Hüquqa (münaqişədə olan qadınlar daxil olmaqla** (müdafiə və iştirak perspektivləri (gender-əsaslı zorakılıq və münaqişə-BMT-nin Qətnamələri və s.-münaqişələrin qarşısının alınmasında və münaqişədən sonra qadınların rolu) dair beynəlxalq norma və standartlar üzrə təlim*

- ➢ ***ABŞ qoşunlarının ölkədən çıxarılmasının nəticəsi kontekstində Əfqanıstan və miqrasiya**, fövqəladə vəziyyətlər üçün fəaliyyətin planlaşdırılması, insan hüquqları və*

miqrasiya meyllərinə (qaçqınların və miqrantların könüllü olaraq geri qayıtması, məcburi miqrasiya və sığınacaq, məcburi miqrasiyanın gender perspektivi və s.) ***dair xüsusi regional dialoq***

(5) <u>Miqrantların insan hüquqları:</u>

Regionda maraqlı tərəflər, ümumiyyətlə miqrantların (o cümlədən öz ölkələrinin xaricdəki vətəndaşlarının) insan hüquqlarından narahatdırlar, bununla belə, siyasət və qanunvericiliyin hazırlanma və yerinə yetirilmə baxımından gücləndirilməsinə ehtiyac vardır.

Regionda bütün ölkələr BMT-nin İnsan Hüquqları üzrə əsas alətlərinə Tərəf Dövlətlərdir, bundan əlavə bir neçə ölkə Avropa Şurasının üzvüdür və bu səbəbdən miqrantların insan hüquqları ilə bağlı MRTM çərçivəsində ümumi bir dialoq platforması mövcuddur. Məsləhətləşmə prosesində maraqlı tərəflərin ehtiyaclarına və hər bir ölkənin vəziyyətinin təhlilinə əsaslanaraq, əsas ehtiyaclar aşağıdakı sahələrdə müəyyən edilmişdir:

- ✓ Bəzi ölkələrdə açıq şəkildə miqrantları əhatə edən İnsan Hüquqları üzrə Hərtərəfli Strategiyalar və Fəaliyyət Planları mövcuddur (bu, məsələn, Moldova və Azərbaycana aiddir), lakin regionun bir çox ölkələri bunları hələ etməmişdir.

- ✓ Regionun bütün ölkələrində miqrantların insan hüquqları baxımından siyasətin hazırlanması və həyata keçirilməsində bəzi çatışmazlıqlar müəyyən edilmişdir. Çatışmazlıqların əsas sahələri aşağıdakı kimi müəyyən edilmişdir:

    - **Miqrantların həssas qruplarına xüsusi yanaşmalar**

    - **Milli azlıqlara mənsub şəxslərin müdafiəsinin təmin edilməsində məcburi yerdəyişmələrin və/və ya sosial kənarlaşdırmanın qarşısının alınması**

    - **Uşaqların müdafiəsi (miqrantların bütün kateqoriyaları), müşayiət olunmayan yetkinlik yaşına çatmamış və ayrılmış uşaqların müdafiəsi**

    - **Miqrantların və onların ailələrinin insan hüquqları**

    - **Ailə həyatı hüququ və ailə birliyi anlayışı**

    - **Böhran vəziyyətində olan qadınlar və gender-əsaslı zorakılığın qarşısının alınması və müdafiəsi**

(5) <u>Çatışmazlıqlar üzrə tövsiyələr</u>:

- ➢ *Miqrantların hüquqlarının ölkələrin insan hüquqları qanunvericiliyinə və/və ya mövcud İnsan Hüquqları üzrə Milli Strategiyalarına daxil edilməsinə dair siyasət dialoqu və qabaqcıl təcrübələrin mübadiləsi*

- *Uşaqların Müdafiəsi (müşayiət olunmayan və ayrılmış uşaqlar daxil olmaqla) və beynəlxalq standartlara dair təlim*

- *Gender, yaş və müxtəlifliyin miqrasiyanın planlaşdırılması və həyata keçirilməsinə daxil edilməsinə dair qabaqcıl təcrübə mübadiləsi*

- *Beynəlxalq standartlara və miqrantların və onların ailələrinin insan hüquqlarına dair təlim*

- *Vətəndaşsızlığın qarşısının alınması və azaldılması*

- *Beynəlxalq standartlar, Qadınlar böhran vəziyyətində və gender-əsaslı zorakılıq*

- *Milli azlıqlara mənsub şəxslərin müdafiəsinə aid beynəlxalq standartlar*

- *Əməkçi miqrantların müdafiəsi ilə bağlı beynəlxalq standartlar*

- *Miqrantların (bütün kateqoriyalar) hüquqlarının müdafiəsində AİHK-in (və AİHM -in məhkəmə praktikasının) rolu*

- *Ailəyə, miqrantların ailə həyatı hüququna və ailə birliyi anlayışına aid beynəlxalq standartlar*

(6) Ətraf mühit:

Maraqlı tərəflərin bəzilərinin ekoloji fəlakətlər nəticəsində daxili və xarici miqrasiyanın təsirinə məruz qalmasına və ya artıq məruz qalmış olmasına baxmayaraq, ətraf mühit (adətən) onların prioritet qayğılarına o qədər də daxil deyildir.

Dünya Bankının Son Hesabatına[3] görə, **su çatışmazlığı, 1970-2000-ci illər arasında ölkələr daxilində ümumi miqrasiyanın 10 faiz artımı ilə əlaqələndirilir. Bu əsrin sonlarında quraqlığın pisləşməsinin təxminən 700 milyon insana təsir edəcəyi proqnozlaşdırılır.** Bu iqlim şokları inkişaf etməkdə olan ölkələrə qeyri-mütənasib təsir göstərəcək, insanların 85 faizindən çoxu isə aşağı və ya orta gəlirli ölkələrdə yaşayır. Yaxın gələcəkdə Yaxın Şərq və Şimali Afrika (MENA) regionunun bu tendensiyaların təsirinə, xüsusilə məruz qalacağı bildirilir.

"Miqrasiya və ətraf mühit" iqlim dəyişikliyindən daha geniş bir fenomendir. Miqrasiya üzrə Qlobal Sazişdə, **təbii fəlakətlər, iqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası şəraitində miqrasiyanın bir reallıq olduğu** qəbul edilir və həm miqrantları, həm də dövlətləri dəstəkləmək öhdəlikləri nəzərdə tutulur.

Miqrasiya və ətraf mühitin bütün regionda siyasətin hazırlanması və həyata keçirilməsində prioritet istiqamət olduğu şübhəsizdir.

[3] https://www.worldbank.org/en/topic/water/publication/ebb-and-flow-water-migration-and-development

Maraqlıdır ki, **regionun, heç olmazsa bir ölkəsinin (Tacikistan) Miqrasiya Qanununda (1999-cu il tarixli 881 nömrəli qanun) ekoloji miqrasiya ilə bağlı xüsusi müddəalar vardır.** Bu sahədə artıq mövcud olan siyasət və qanunvericiliyə yenidən baxılması faydalı olardı.

- ✓ **Region ölkələrinin priventiv siyasətlər, risklərin təhlili və fövqəladə hallar üzrə fəaliyyət planı hazırlaması, həmçinin əlaqədar şəxslər üçün qoruyucu tədbirlər qəbul etməsi və həyata keçirməsi məqsədi ilə dəstək alması üçün bu, yaxın gələcəkdə daha çox siyasətin hazırlanması və həyata keçirilməsini tələb edəcək** bir sahədir.

(6) <u>Çatışmazlıqlar üzrə tövsiyələr:</u>

- ➢ *İqlim dəyişikliyi və təbii fəlakətlə əlaqədar yerdəyişmə (o cümlədən, region xaricindən) və mövcud qarşısını alma və müdafiə mexanizmləri haqqında təlim.*

- ➢ *Qabaqcıl təcrübə mübadiləsi daxil olmaqla (o cümlədən, region xaricindən) miqrasiyanın və ətraf mühitin hökumətin planlaşdırmasına daxil edilməsi və bu cür siyasətlərin və proqramların təsirinin dəyərləndirilməsi.*

6. <u>MƏLUMATLARIN TOPLANMASI VƏ TƏHLİLİ</u>

6.1 <u>Məlumatların Toplanması və Təhlilində əsas nailiyyətlər haqqında ümumi məlumat</u>

Aşağıdakı cədvəldə, əsas regional tendensiyaları və çatışmazlıqları işıqlandırmağa imkan verən məlumatların toplanması və təhlili sisteminin əsas komponenti verilir.

<u>Yekun Cədvəl 4: Ölkə Başına Məlumatların Toplanması və Təhlilinin Əsas Komponentləri</u>

	<u>Məlumatların Toplanması və Təhlili Bölməsi</u>	<u>İxtisaslı Analitiklər Ehtiyatı</u>	<u>Miqrasiya Profili</u> (o cümlədən, <u>Miqrasiya Profilinin növü</u>)	<u>Gender üzrə ayrılmış məlumatlar</u>	<u>Məlumat mübadiləsi üzrə Qurumlararası Saziş</u>	<u>Məlumatların Qorunması Sistemi</u>	<u>Dərc olunan Statistik Hesabatlar</u>
<u>ÖLKƏLƏR</u>							
Azərbaycan	**BƏLİ**	**BƏLİ**	**BƏLİ**	**BƏLİ**	**BƏLİ**	**BƏLİ**	**BƏLİ, İllik, Rüblük, Aylıq (mövcuddur)**
Belarusiya	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**

Gürcüstan	**BƏLİ**	**BƏLİ**	**BƏLİ**	**BƏLİ Bəzən**	**BƏLİ**	**BƏLİ**	**BƏLİ, İllik, (mövcuddur)**
İran	**Xeyr**	**Xeyr**	**Xeyr**	**BƏLİ Bəzən**	**Xeyr**	**Yalnız bəzi elementlər**	**Xeyr**
Qazaxıstan	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**
Qırğızıstan	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**
Moldova	**BƏLİ**	**BƏLİ**	**GMP**	**BƏLİ Bəzən**	**BƏLİ**	**BƏLİ**	**BƏLİ, İllik, Rüblük (mövcuddur)**
Rusiya	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**
Tacikistan	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**
Türkiyə	**BƏLİ**	**Xeyr**	**Xeyr**	**BƏLİ Bəzən**	**BƏLİ**	**Mövcud deyil**	**BƏLİ, İllik (mövcuddur)**
Türkmənistan	**Xeyr**	**Xeyr**	**Xeyr**	**BƏLİ Bəzən**	**Xeyr**	**Xeyr**	**BƏLİ, İllik (mövcud deyil)**
Ukrayna	**BƏLİ**	**BƏLİ**	**GMP**	**BƏLİ Bəzən**	**Mövcud deyil**	**Mövcud deyil**	**BƏLİ, İllik (mövcuddur**
Özbəkistan	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**	**Mövcud deyil**

6.2 Məlumatların Toplanması və Təhlili sahəsində çatışmazlıqların və ehtiyacların təhlili

Regionda vəziyyət çox ziddiyyətlidir və aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Bəzi ölkələr mükəmməl məlumat toplama və məlumat təhlili bölmələri (xüsusilə Azərbaycan, Gürcüstan, Moldova və Ukraynaya aiddir) yaratmışdır, digərləri isə hələ hazırlığın ilkin mərhələsindədir.

- Aİ ilə Viza Sərbəstləşdirilməsi Prosesindən faydalanan bütün ölkələrdə MMP və ya GMP şəklində Miqrasiya Profilləri mövcuddur.

- **Qurumlararası məlumat mübadiləsi,** ümumiyyətlə tutarlı məlumat toplama və analiz sistemi olan ölkələrdə (Azərbaycan, Gürcüstan və Moldovada olduğu kimi) mövcuddur.

- Məlumatların Qorunması sistemlərinin bu üç ölkədə mövcud olduğu bildirilir, lakin ümumilikdə Region üzrə bu sistemlər zəifdir, mövcud olmayan ölkələrə baxın.

- Məlumatların toplanması sistemi olan ölkələrdə **gender üzrə ayrılmış məlumatlar** mövcuddur. Digərlərində ya ayrılmış məlumatlar yoxdur, ya da bu cür məlumatlar müntəzəm olaraq toplanmır.

- Azərbaycandan başqa (dörd belə sazış qeyd olunmuşdur), digər ölkələrdə **məlumat mübadiləsi ilə bağlı konkret ikitərəfli saziş** yoxdur. Bu, MRTM kontekstində gələcəkdə tədqiqat və iş üçün maraqlı bir sahə olacaq.

- **Statistik Hesabatlar** məlumat toplanması və təhlili sistemlərini tətbiq edən ölkələrdə (onlayn olaraq) **ictimaiyyət üçün açıqdır** (bu, xüsusilə keyfiyyət və kəmiyyət məlumatlarının statistikasının DMX-ın veb saytında mövcud olduğu Azərbaycana aiddir, lakin onunla məhdudlaşmır. DMX, həmçinin dövri Miqrasiya jurnalı buraxır). Nəşrlərin müntəzəmliyi illik, rüblük və aylıq hesabatlar (əsasən hər ikisinin və ya hamısının birləşməsindən ibarət olur) diapazonunda dəyişir. Bununla birlikdə, illik hesabatlar ilə əlaqədar olaraq mətbuat və/və ya VCT-lərə rəsmi brifinq keçirilməsi təcrübəsinin olması regionun heç bir ölkəsində görünmür.

- **Media qurumlarının** rəsmi məlumatların yeganə və ya əsas mənbəyi olaraq hökumət qurumları (xüsusən mərkəzi hökumət orqanları) tərəfindən hazırlanan məlumatlara çox güvəndiyi görünür.

<u>Məlumatların qorunması və təhlilinə dair tövsiyələr:</u>

Yuxarıda göstərilənləri nəzərə alaraq, MRTM aşağıdakı sahələrdə əhəmiyyətli rol oynaya bilər:

- *MRTM çərçivəsində **miqrasiya sahəsində məlumatların toplanması və təhlili və məlumatların qorunması sistemlərinin möhkəmləndirilməsi** istiqamətində potensialın gücləndirilməsi fəaliyyətləri, o cümlədən məlumatların müqayisə oluna bilməsi üçün miqrasiya məfhumları və anlayışlarının razılaşdırılması lazımdır. Bu cür fəaliyyətlərə gender komponenti daxil olmalı və regionda mövcud olan qabaqcıl təcrübələrə əsaslanmalıdır.*

- ***Sübuta əsaslanan miqrasiya məlumatlarının verilməsi** birinci dərəcəli əhəmiyyətə malikdir, RMTM bütün əsas maraqlı tərəflər ilə bir tədbirin keçirilməsini təşkil etməlidir.*

- ***Media qurumları** üçün onlara beynəlxalq miqrasiya haqqında məlumat verərkən istifadə etdikləri məlumatları anlamağa və əlavə məlumat mənbələri haqqında məlumat əldə etməyə imkan verən seminar.*

7. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

7.1 Regional Xülasə

Regionun bütün ölkələrinin miqrasiya və sığınacaq sahəsində möhkəm beynəlxalq və regional dialoq və əməkdaşlıq təcrübəsi vardır. MRTM regionunda hər bir ölkə, ilk növbədə BMqT və BMTQAK olmaqla BMT agentlikləri ilə miqrasiya məsələlərinə dair uzun bir əməkdaşlıq ənənəsinə malikdir. **BMqT ilə əməkdaşlıq, regiondakı bütün tərəfdaşlar tərəfindən son dərəcə dəyərli olaraq qeyd olunmuşdur.**

Son iki-üç onillikdə **yeni əsas tərəfdaşlar da ortaya çıxmışdır**, **bu, xüsusilə Avropa İttifaqı və onun Üzv Dövlətləri ilə əməkdaşlığa aiddir**. Paralel olaraq, keçmiş Sovet İttifaqının bəzi ölkələri arasında (məsələn, Sərhəd İdarəçiliyinə aid olan məsələlərdə Rusiya ilə Belarusiya arasında) sektor sahələrində də bəzi əməkdaşlıq səyləri yaradılmışdır. Digər regional dialoqlar/razılaşmalar, məsələn, MDB çərçivəsində bir sıra dövlətlər üçün yaradılmışdır.

Miqrasiya dialoqunun bu sahəsində, xüsusilə ölkələrin xaricdəki vətəndaşlarının qayıdışı və readmissiyası, məlumat mübadiləsi və sosial müdafiəsi ilə bağlı sahələrdə **ikitərəfli əməkdaşlıq** regiondakı hökumətlər üçün də əhəmiyyətlidir. Bəzi ikitərəfli əməkdaşlıq müqavilələri artıq mövcuddur (məsələn, Azərbaycanda, Gürcüstanda, Moldovada) və qabaqcıl təcrübə mübadiləsi regionun digər ölkələrinin ehtiyaclarına xidmət edəcəkdir.

7.2 BMqT ilə əməkdaşlıq və Miqrasiya üzrə Qlobal Sazişin rolu

Bu əməkdaşlıq, məsləhətləşmə prosesində maraqlı tərəflər tərəfindən miqrasiyanın bütün sahələrində əks etdirilir. Miqrasiya Strategiyalarının və Fəaliyyət Planlarının (həm əhatəli, həm də sektorlar üzrə) dəstəklənməsində BMqT ilə əməkdaşlıq maraqlı tərəflər tərəfindən xüsusilə yüksək qiymətləndirilmişdir. İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi daxil olmaqla sərhəd idarəçiliyi sahəsində əməkdaşlıq da, xüsusilə yüksək qiymətləndirilmişdir.

BMqT bütün maraqlı tərəflərə, hökumətə və VCT-lərə məlumdur və maraqlı tərəflərlərin bütün kateqoriyaları üçün Miqrasiya üzrə təbii tərəfdaş sayılır və miqrasiya ilə əlaqədar siyasətlərin və qanunvericiliyin hazırlanması və həyata keçirilməsi zamanı onunla həmişə məsləhətləşmələr aparılır.

Lakin, belə bir əməkdaşlıq heç də həmişə regiondakı bütün ölkələrin dövlət idarəçiliyi siyasətinin yaradılması prosesində nəzərə alınmır (bu, müəyyən ölkələrə aiddir, məsələn, Moldova).

Miqrasiya üzrə Qlobal Saziş BMqT ilə gücləndirilmiş və strukturlu əməkdaşlıq üçün dinamika yaratmışdır. Məsləhətləşmə aparılan demək olar ki, bütün maraqlı tərəflər Miqrasiya üzrə Qlobal Saziş haqqında məlumatlıdır və bir çox Hökumətdən olan maraqlı tərəflər bunun artıq BMqT ilə əməkdaşlığın gücləndirilməsinə müsbət təsir etdiyini düşünür və ya yaxın gələcəkdə belə olacağını mülahizə edirlər.

Bütün ölkələr Marakeş Paktını[4] imzalamışdır. Regiondakı ölkələrin əksəriyyəti BMT-nin Miqrasiya Şəbəkəsinin üzvləridir (Aşağıda Cədvəl 5-ə baxın). Regionun üç ölkəsi artıq (BMqT -in dəstəyi ilə) Miqrasiya üzrə Qlobal Sazişin Ölkə Hesabatını hazırlamışdır.

Yekun Cədvəl 5: Miqrasiya üzrə Qlobal Sazişdə İştirakçılıq

[4] Təhlükəsiz, Nizamlı və Leqal Miqrasiya üzrə Qlobal Saziş rəsmi olaraq 2018 -ci il 10, 11 dekabr tarixlərində Marrakeshdə təsdiq edilmişdir.

MİQRASİYA ÜZRƏ QLOBAL SAZİŞ / ÖLKƏLƏRİN SİYAHISI	Miqrasiya üzrə Qlobal Sazişi imzalayan İştirakçılar	BMT-nin Miqrasiya Şəbəkəsinin üzvü	Miqrasiya üzrə Qlobal Sazişin Ölkə Hesabatı
Azərbaycan	X	X	X
Belarusiya	X	X	X
Gürcüstan	X	X	
İran	X		
Qazaxıstan	X	X	X
Qırğızıstan	X	X	
Moldova	X	X	X
Rusiya	X		
Tacikistan	X		
Türkiyə	X	X	
Türkmənistan	X	X	
Ukraine	X		
Özbəkistan	X		

Miqrasiya üzrə Qlobal Sazişin həyata keçirilməsi gələcək illərdə güclü dinamika yaratmalıdır, bu proses tam şəkildə MRTM-in işində əks olunmalı və onun işi ilə müşayiət olunmalıdır.

Regionun bir neçə ölkəsi (xüsusilə Azərbaycan və Moldova) Miqrasiya üzrə Qlobal Saziş ilə bağlı könüllü Milli Hesabatlarını hazırlamışdır.

Miqrasiya üzrə Qlobal Sazişə dair Tövsiyələr:

- *BMT-nin Miqrasiya Şəbəkəsində iştirak edən ölkələrin qabaqcıl təcrübələrini paylaşmaqla (VCT-lərdən gələn rəylər daxil olmaqla) MRTM kontekstində bütün maraqlı tərəflər ilə keçiriləcək Miqrasiya üzrə Qlobal Sazişlə bağlı potensialın artırılması fəaliyyəti (təlim).*

- *Miqrasiya İcmalı üzrə Forum (IMRF) 2022-ci ildə keçiriləcək. Nəticələri MRTM (bütün maraqlı tərəflərin iştirakı ilə) çərçivəsində maraqlı tərəflərə təqdim ediləcək və müzakirə ediləcək.*

7.3 BMT -nin digər əsas Tərəfdaş Agentlikləri ilə Əməkdaşlıq

- ✓ Regionda bir çox ölkə milyonlarla qaçqını qəbul etmək və uzunmüddətli qaçqın situasiyaları ənənəsinə malikdir (İran və Türkiyə kimi). Belə ölkələrin **BMTQAK ilə,** xüsusilə uzunmüddətli və səmərəli **əməkdaşlığı** vardır. BMTQAK, xüsusi mandatına görə vacib tərəfdaş olaraq qeyd edilir və dünyada və regionda qaçqınların artması ilə onunla əməkdaşlığın yüksək səviyyədə qalacağı gözlənilir.

- ✓ **Miqrasiyanın gender aspektləri kifayət qədər tədqiq edilməmiş və işıqlandırılmamış bir mövzudur.** Regionun bəzi ölkələrində (məsələn, Moldova) **UNWOMEN (BMT-QADINLAR)** ilə əməkdaşlıq barəsində məlumat verilmişdir, lakin, xüsusilə COVID və COVID-dən sonrakı şəraitdə daha çox iş görülməlidir.

- ✓ Miqrasiya və İnkişaf və xüsusilə genderlə əlaqədar sahələrdə **BMTİP və Dünya Bankı ilə** uğurlu **əməkdaşlıq** maraqlı tərəflər tərəfindən qeyd edilir.

- ✓ **BMT-nin Beynəlxalq Fövqəladə Uşaqlara Yardım Fondu də miqrasiya səhəsində əsas tərəfdaşıdır, lakin uşaqların müdafiəsi və müşayiət olunmayan və təcrid olunmuş yetkinlik yaşına çatmayan uşaqlarla bağlı daha çox əməkdaşlıq lazımdır.**

- ✓ İnsan hüquqları sahəsində, BMT-nin ailə təşkilatlarına əlavə olaraq, regionun bir neçə ölkəsi ATƏT/DTİHB-dən də siyasi dəstək və təlimatlar alır. Avropa Şurası orqanları Hökumətdən olan müəyyən maraqlı tərəflər tərəfindən yaxşı tərəfdaş hesab olunur (məsələn, Moldova, Ukrayna).

<u>BMT Tərəfdaşlığına dair tövsiyələr:</u>

- ➢ *Miqrasiya üzrə Qlobal Saziş kontekstində, BMT-nin əsas təşkilatları ilə miqrantların və qaçqınların kütləvi axını və məcburi köçkünlərlə iş şəraitində bu təşkilatların rolları və məsuliyyətləri ilə bağlı regional müzakirələr aparmaq təklif olunur.*

- ➢ *COVID şəraitində və COVID-dən sonrakı şəraitdə Miqrasiyanın gender aspektləri üzrə potensialın artırılması*

- ➢ *Uşaqların müdafiəsi və müşayiət olunmayan və təcrid edilmiş yetkinlik yaşına çatmayan uşaqlar sahəsində potensialın artırılması fəaliyyətləri*

- ➢ *Əfqanıstana dair regional dialoq çərçivəsində, BMT Təşkilatları, həmçinin digər tərəfdaşlar (məsələn, ATƏT) dialoqa şərait yaradılmasında mühüm rol oynaya bilər.*

- ➢ *Miqrasiya və ətraf mühitlə bağlı problemlərin həlli üzrə regional səylər çərçivəsində BMqT və digər Tərəfdaşlar (məsələn, Dünya Bankı), bu sahədə hökumətlə dialoqun dəstəklənməsində aparıcı rol oynaya bilər.*

7.4 <u>Aİ ilə Əməkdaşlıq</u>

7.4.1 Ümumi Mülahizələr

Son iki onillik ərzində Aİ bütün benefisiar ölkələrdə hərtərəfli miqrasiya idarəetmə sisteminin qurulmasında böyük rol oynamışdır. Hazırda belə məlum olur ki, Aİ ilə dialoqun səviyyəsi nə qədər əhatəli olmuşdursa, miqrasiya sistemləri baxımından da bir o qədər çox nailiyyət əldə edilmişdir. Aİ ilə bu cür dialoqlar beynəlxalq təşkilatlar (ilk növbədə BMqT, həmçinin BMT QAK, BMTİP, BMT-QADINLAR, BMT-nin Beynəlxalq Fövqəladə Uşaqlara Yardım Fondu və s., eləcə də -BMT agentliyi olmayan təşkilatlar, ilk növbədə Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz) tərəfindən ciddi şəkildə dəstəklənmişdir.

7.4.2 Aİ ilə Dialoqlar/Tərəfdaşlıqlar haqqında ümumi məlumat

Aşağıda Cədvəl 6-da, region ölkələrinin Avropa İttifaqı (Aİ) ilə bağladığı əməkdaşlıq sazişlərinin/çərçivələrinin yekun cədvəli verilir.

Yekun Cədvəl 6: Aİ ilə Əməkdaşlıq Dialoqları və Çərçivələri haqqında

Ölkələrin siyahısı / **Əməkdaşlıq Çərçivələri /Sazişlər**	**Az**	**Bel**	**Gür**	**İra**	**Qaz**	**Qır**	**Mol**	**Rus**	**Tac**	**Tür**	**Türkmənistan**	**Ukr**	**Öz**
Şərq Tərəfdaşlığı	X	X	X				X					X	
Universitet Tələbələri üçün Hərəkətlilik Tərəfdaşlığı	X	X					X						
Assosasiya Sazişi			X				X			X		X	
Dərin və Hərtərəfli Azad Ticarət Sazişi			X				X					X	
Viza *rejiminin liberallaşdırılması haqqında Müqavilə*			X				X					X	
Viza verilməsinin sadələşdirilməsi haqqında	X	X											
Aİ-nin Moldova və Ukraynaya Sərhəd Yardımı Missiyası (EUBAM)							X					X	
Qara Dəniz Sinergiyası	X	X	X				X	X		X			
Aİ-nin Readmissiya Sazişi	X	X	X				X	X		X		X	
Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi	X		X		X	X	X	X	X	X*	X	X	X
Budapeşt Prosesi	X	X	X	X	X	X	X	X	X	X	X	X	X
Praqa Prosesi	X	X	X		X	X	X	X	X	X	X	X	X
Orta Asiya və Əfqanıstanda Sərhəd İdarəetmə Proqramı 10 (BOMCA 10)					X	X			X		X		X

* Türkmənistan ilə **Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi** qüvvədə deyil.

- Şərq Tərəfdaşlığı və Aİ ilə Viza Dialoqları

Regionda beş ölkə Aİ ilə Şərq Tərəfdaşlığında Tərəf Dövlətdir. Bir neçə ölkə, miqrasiya idarəçiliyi sahəsində hərtərəfli islahatlar ilə nəticələnən *Viza* rejiminin liberallaşdırılması və ya Viza verilməsinin sadələşdirilməsi prosesinə uğurla başlamışdır.

Sərhəd İdarəçiliyi baxımından Orta Asiya ölkələri Orta Asiya və Əfqanıstanda Sərhəd İdarəetmə Proqramı (BOMCA) Layihəsindən faydalanırlar. (BOMCA 10, Aİ tərəfindən maliyyələşdirilən və İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi vasitəsilə davamlı iqtisadi inkişafı təşviq edərək regionda təhlükəsizlik və sabitliyi artırmaq məqsədi daşıyan qabaqcıl bir təşəbbüsdür).

EUBAM (Aİ-nin Sərhəd Yardımı Missiyası) Moldova və Ukraynaya xüsusi sərhəd yardımı ehtiyaclarında dəstək verir.

- Hərəkətlilik üzrə Tərəfdaşliq

Aİ ilə Şərq Tərəfdaşlığı çərçivəsində **üç ölkə Hərəkətlilik üzrə Tərəfdaşlığa dair Sazişi həyata keçirir**. Ölkəyə xas layihələr həyata keçirilir (məsələn, Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəzin (ICMPD) Mobilaze 2 layihəsi, Azərbaycanda). Ölkələrin milli prioritetlərini əks etdirən iş sahələrində ölkə layihələrinin çoxu tərəfindən Hərəkətlilik üzrə Tərəfdaşlıq həyata keçirilmişdir.

.

Miqrasiya üzrə regional potensialın artırılması və dialoq çərçivəsi baxımından, Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəzin (ICMPD) Budapeşt və Praqa prosesləri vasitəsilə rəhbərlik etdiyi potensial artırma prosesləri də geniş regional perspektivi özündə əks etdirən əsas regional və potensial artırma proseslərdir.

Bu kontekstdə xüsusi olaraq qeyd olunmalıdır ki, **regionun bütün ölkələri Budapeşt prosesi çərçivəsində həyata keçirilən fəaliyyətlərdə iştirak edirlər** (bu, MRTM ilə sinergiya yaratmağa imkan verir).

Praqa Prosesi Avropa İttifaqı ölkələri, Şengen Bölgəsi, Şərq Tərəfdaşlığı, Qərbi Balkanlar, Orta Asiya, Rusiya və Türkiyə arasında miqrasiya tərəfdaşlığını təşviq edən məqsədli bir miqrasiya dialoqudur. Hal-hazırda Çexiya, Macarıstan, Litva, Polşa, Aİ-nin fəaliyyətdə olan sədrliyi və Avropa Komissiyasından ibarətdir. Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz (ICMPD) Praqa Prosesi Katibliyinə ev sahibliyi edir.

Budapeşt Prosesi Avropadan İpək Yolu regionuna (Əfqanıstan, Banqladeş, İran, İraq və Pakistan) qədər uzanan miqrasiya ilə bağlı Avropanın Şərq qonşularını, Qərbi Balkanları və Orta Asiyanı əhatə edən regionlararası dialoqdur. Budapeşt Prosesi İpək Yolu Layihəsi çərçivəsində ölkələrə kolleqalar arasında öyrənmə və təlimə, habelə konkret layihələrin hazırlanmasına və əməkdaşlığa şərait yaratmaq üçün bir platforma təqdim edərək onlara praktiki dəstək təklif edir. O, 55 hökumətə, həmçinin 17 regional və beynəlxalq təşkilata dialoq və operativ əməkdaşlıq üçün bir platforma təmin edir. Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz Budapeşt Prosesinin Katibliyinə ev sahibliyi edir.

Miqrasiya Mediası Təlim Akademiyası (MOMENTA 2) (Azərbaycan, Belarusiya, Gürcüstan, Moldova və Ukrayna.) Bu, Aİ tərəfindən maliyyələşdirilən bir layihədir və ümumi məqsədi Avropa Tərəfdaşlığı ölkələrində mövcud **qanuni miqrasiya kanalları və miqrasiya imkanları** haqqında Aİ-yə balanslaşdırılmış və sübuta əsaslanan məlumatların verilməsi vaitəsilə miqrasiyaya dair məlumatlı qərarlarının qəbul edilməsinə kömək etməkdir. Bu, xüsusilə, media nümayəndələrinin miqrasiyaya dair məlumatların verilməsi potensialını inkişaf etdirməyə yönəldilmişdir.

Aİ Tərəfdaşlığı ilə bağlı tövsiyələr:

- ***Praqa prosesinin fəaliyyətləri/ölkələri/tərəfdaşları ilə, xüsusilə məlumatların toplanması/miqrasiya monitorinqi məntəqəsi, Praqa prosesi təlimi Akademiyası və s. sahələrdə əməkdaşlıq yaratmaq.***

- ***Budapeşt prosesinin fəaliyyətləri üzrə əməkdaşlıq və sinergiya yaratmaq (MRTM -in bütün ölkələri Budapeşt Prosesində iştirak edir) və həmçinin mövcud tədqiqatları və tərəfdaşlıqları artıraraq fəaliyyətlərin bir-birini tamamlamasını təmin etmək.***

- ***Şərq Tərəfdaşlığı ölkələrinin hüdudlarından kənarda faydalı olması üçün MOMENTA 2 layihəsi ilə sinergiya yaratmaq və MRTM-in miqrasiya haqqında məlumat verilməsində Medianın potensialını inkişaf etdirmək məqsədini dəstəkləmək.***

- ***Avropa İttifaqı ilə tərəfdaşlığa dair siyasət dialoqunu dəstəkləmək (maraqlı tərəflərin bütün kateqoriyaları üçün qabaqcıl təcrübələr, əsas alətlər və proqramlar)***

8. VƏTƏNDAŞ CƏMİYYƏTİNİN İŞTİRAKÇILARI İLƏ ƏMƏKDAŞLIQ

8.1 Regional Xülasə

- ✓ Vətəndaş Cəmiyyəti Təşkilatları ilə əməkdaşlıq hərtərəfli miqrasiya idarəetmə sisteminin əsas komponentidir və MRTM-in fəaliyyətlərinin formatı bir tərəfdən Hökumətdən olan maraqlı tərəflər, digər tərəfdən VCT-lər arasında güclü sinergiya yaradılmasına imkan verəcək şəkildə işlənib hazırlanacaq.

- ✓ MRTM regionunun bütün ölkələri artıq miqrasiya sahəsində VCT-lər ilə uğurlu əməkdaşlıq qurmuşdur. Artıq qeyd edildiyi kimi, **vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq siyasətin hazırlanması sahəsində, miqrantlara xidmətlərin göstərilməsi sahələrində olduğundan daha nadir hallarda baş verir.**

- ✓ Vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq adətən müsbət qiymətləndirilsə də, **regiondakı miqrasiya orqanları, ümumiyyətlə VCT-lərə,** hətta miqrantların həssas qruplarına humanitar xidmətlərin göstərilməsi fəaliyyətini həyata keçirən təşkilatlara **heç bir maliyyə yardımı göstərmir**. Maliyyələşdirmə, əsasən beynəlxalq təşkilatlar və/və ya Aİ layihələrindən (və ya digər regional mənbələrdən) və ya ikitərəfli əməkdaşlıqdan qaynaqlanır. Buna görə də,

QHT-lər beynəlxalq təşkilatların, regional layihələrin və ya ikitərəfli donorların maliyyə mənbələrindən asılıdırlar.

✓ VCT -lər ilə əməkdaşlıq səviyyəsi VCT-lərin kateqoriyasından asılıdır.

8.2 QHT-lər, Miqrant Assosasiyaları və Miqrantların Özləri ilə Əməkdaşlıq

8.2.1 Əsas Çatışmazlıqların Xülasəsi

✓ Hökumət orqanlarının **QHT-lər və miqrant assosiasiyaları ilə əməkdaşlığı, adətən, regionun bütün ölkələrində mövcuddur.**

✓ Bununla birlikdə, belə bir əməkdaşlığın daha çox **miqrantlara psixo-sosial və hüquqi xidmətlərin göstərilməsi sahəsində** baş verdiyi görünür. Ölkələrin böyük əksəriyyətində QHT-lər və Miqrant Assosasiyaları tərəfindən **dövlət siyasətinin hazırlanmasında sistematik bir iştirak olmadığı görünür**. Bəzi ölkələr miqrasiya ilə bağlı qanunvericilik və/və ya Fəaliyyət Planlarının hazırlanması prosesində QHT-lərdən rəy aldıqlarını bildirirlər (bu, xüsusilə Azərbaycan, Belarusiya və Moldovaya aiddir). Bundan əlavə, Miqrasiya üzrə bir neçə Fəaliyyət Planında vətəndaş cəmiyyəti ilə əməkdaşlığa dair konkret müddəalar vardır (məsələn, Gürcüstan və Moldovada, belə səylər Qırğızıstan və Qazaxıstanda da edilir).

✓ Belə əməkdaşlığın qiymətləndirilməsi adətən yaxşıdır (həm Hökumət strukturlarından, həm də QHT -lərin özlərindən) və həm Hökumətdən olan maraqlı tərəflər, həm də QHT-lər, o cümlədən aşağıdakı sahələrdə qarşılıqlı əməkdaşlığı gücləndirmək və genişləndirməkdə istəkli görünürlər.

COVID 19 pandemiyası ilə, miqrantlara çıxış imkanı problemli olduğu üçün QHT-lərin fəaliyyətinin əngəllənməsi/kəsilməsi ehtimalı daha yüksəkdir. Bu səbəbdən, miqrantlar ilə işləyən QHT-lərdən COVID 19 və yeni miqrasiya problemlərinə həsr olunmuş hər hansı bir dialoq/potensialın artırılması tədbiri üçün rəy almaq çox vacib olacaq.

✓ **Miqrantların özləri ilə əməkdaşlığın** (qadınlar və kişilər), çox vaxt bu prosesin beynəlxalq və ya regional təşkilatlar və ya ikitərəfli donorlar tərəfindən təşviq edildikdə/idarə olunduqda və maliyyə dəstəyi verildikdə və ya miqrantlar diaspor təşkilatlarının nümayəndələri olduqda baş verdiyi görünür. **Regionda miqrantlar ilə bütün mərhələlərdə (siyasətin hazırlanması və həyata keçirilməsi) (qadın miqrantlar daxil olmaqla) məsləhətləşmə proseslərinin gücləndirilməsinə ehtiyac vardır.**

8.2.2 Regiondakı Qabaqcıl Təcrübələrin Təqdim edilməsi

Yuxarıda göstərilən çatışmazlıqlara baxmayaraq, regionda[5] miqrasiya idarəçiliyi və/və ya proqramların/layihələrin həyata keçirilməsi sahəsində VCT-lər ilə konkret əməkdaşlıq baxımından bəzi maraqlı qabaqcıl təcrübələr müəyyən edilmişdir, bu alt-bölmədə təqdim olunan belə təcrübələrin natamam siyahısı aşağıdakı kimidir:

[5] Siyasətin hazırlanması sahəsində hökumət/VCT əməkdaşlığına dair qabaqcıl təcrübələr üçün yuxarıdakı Hesabatın xüsusi Bölməsinə baxın.

- **<u>Azərbaycanda</u> DMX yanında İctimai Şura** çərçivəsində **QHT-lər həssas miqrantlara psixososial və humanitar yardım göstərir.** Azərbaycan dili kursları da təşkil olunur və miqrantlar ilə onların hüquqlarına dair məlumatlandırma sessiyaları keçirilir (vətəndaşlıq hüquqları, müvəqqəti qeydiyyat, vizanın müddətinin uzadılması və s. mövzularda).

- **<u>Qazaxıstanda</u> hökumət insan alveri qurbanları** (Qazaxıstan vətəndaşları) **üçün sığınacaq işlətməyə kömək etmək** və psixoloji, hüquqi və tibbi yardım göstərmək üçün **bəzi qeyri-kommersiya təşkilatlarına maliyyə dəstəyi verir**. Vətəndaş olmayan şəxsləri də əhatə etmək məqsədi ilə hökumət, əcnəbi qurbanlara kömək etmək və onları sığınacaqlara yerləşdirmək üçün ölkənin rayonlarından birində QHT-lərdən birini maliyyə baxımından dəstəkləyən pilot layihəyə başlamışdır. **Bu, regionda hökumət orqanları tərəfindən QHT-lərin birbaşa maliyyələşdirilməsinin qabaqcıl təcrübələrindən biridir.**

- **<u>Orta Asiyada,</u>** VCT-lər/hüquqşünaslar şəbəkəsi **2015 -ci ildə Vətəndaşsızlıq üzrə Orta Asiya Şəbəkəsini (CANS)** yaratmışdır. Vətəndaşsızlıq üzrə Orta Asiya Şəbəkəsi, regionun bütün beş ölkəsindən (Qazaxıstan, Qırğızıstan Respublikası, Tacikistan, Türkmənistan və Özbəkistan) **olan jurnalistlər, hüquqşünaslar və ümumi vətəndaş cəmiyyəti fəallarından təşkil olunmuşdur.** Hökumətlər ilə aparılan təbliğat işi, xüsusilə hüquqi duzəlişlərin edilməsinə kömək etmişdir (məsələn, vətəndaşlığı olmayan şəxslərin vətəndaşlığa qəbulu üçün "məqsədəuyğun prosedurları" təmin edən 174 nömrəli Qayda). Fərqanə Hüquqşünasları, vətəndaşlığı olmayan 55 minə yaxın insanın sənədlərinin qaydaya salınmasına kömək etmişdir. **Bu, hüquqların təşviqi və vətəndaşsızlığın azaldılması sahəsində vətəndaş cəmiyyətinin oynaya biləcəyi müsbət rolun** əla nümunəsidir və **regionda regiondaxili vətəndaş cəmiyyəti əməkdaşlığının bir nümunəsi olaraq xüsusilə maraqlıdır.**

- **<u>Rusiya</u>** da insan alveri sahəsində vətəndaş cəmiyyəti ilə əməkdaşlıq baxımından bəzi qabaqcıl təcrübələr təqdim etmək üçün maraqlıdır. 2013-cü ildə BMqT-nin dəstəyi ilə Rusiya Qırmızı Xaç Komitəsi Sankt-Peterburqda miqrantları müvəqqəti qəbul etmək üçün qəbul mərkəzi açdı. Mərkəz insan alveri qurbanlarına hərtərəfli reabilitasiya yardımı göstərir. 2013-2019-cu illər arasında 170-dən çox qaçqın, miqrant və insan alveri qurbanı bu mərkəzdən dəstək almışdır.

  2018-ci ildə Sankt -Peterburq Qırmızı Xaç Komitəsi "Miqrantların İnteqrasiyası və Uyğunlaşması üzrə Sankt-Peterburq Məlumat Mərkəzi"ni dəstəkləmək üçün **Rusiya Prezidentindən Qrant almışdır.** Bu layihə Sankt-Peterburqda miqrantların və qaçqınların inteqrasiyasına kömək etmək üçün pulsuz rus dili və kompüter kursları təşkil etmək, qaçqınları və miqrantları yerli hakimiyyət orqanları ilə görüşdə müşayiət etmək, miqrant və qaçqın uşaqlari üçün məktəb fəaliyyətləri hazırlamaq kimi tədbirləri əhatə etmişdir.

  Prezidentin qrantı 2019-2020-ci illərdə başlayan **"Sankt-Peterburqda miqrantların və onların ailə üzvlərinin hüquqi və mədəni inteqrasiyası" layihəsini maliyyələşdirmək üçün də istifadə edilmişdir.** Layihənin məqsədlərindən biri Sankt-Peterburqdakı təhsil müəssisələrində miqrant uşaqlara rus dilinin öyrədilməsidir. Layihə, eyni zamanda

miqrantlara miqrasiya qanunvericiliyi, cəmiyyətə inteqrasiya, sosial-iqtisadi hüquqlar və vəzifələrə dair hüquqi və digər məsləhətlər verir.

Rus Pravoslav Kilsəsinin miqrantlara kömək üçün vediyiyi dəstək də maraqlıdır. Moskva Patriarxlığının Xarici Əlaqələr Şöbəsi, Sinodal Xeyriyyə İdarəsi və eyni Patriarxlığın Ortodoks Kilsəsinin Sosial Şöbəsi, qeyri-qanuni miqrasiya vəziyyətləri nəticəsində həssas vəziyyətdə olan insanlara yardımı əlaqələndirir.

- **Türkiyədə** QHT-lər **humanitar yardım və dayanıqlıq dəstəyinin çatdırılmasında** mühüm rol oynayır. Ölkədəki sığınacaq vəziyyətinin geniş miqyasını nəzərə alaraq, həm beynəlxalq, həm də milli QHT-lər yardımların çatdırılmasında əsas vəzifələri öz üzərlərinə götürmüşlər və onların miqrant və qaçqınlarla görünməsi benefisiarlar tərəfindən onların çox vaxt dövlətin humanitar və müdafiə mexanizmlərinin ayrılmaz hissəsi kimi qəbul edilməsinə şərait yaratmışdır.

8.3 Özəl Sektor ilə əməkdaşlıq

8.3.1 Ümumi xülasə:

Özəl sektor inkişaf nəticələrinin əldə edilməsində mühüm rol oynayır və onun iştirakı yerdəyişmə, miqrasiya və dayanıqlı inkişaf arasında əlaqəni gücləndirməyə kömək edə bilər. Dayanıqlı İnkişaf Məqsədləri (DİM), Miqrantlar və Qaçqınlar haqqında Nyu -York Bəyannaməsi, Miqrasiya üzrə Qlobal Saziş və Qaçqınlar haqqında Qlobal Sazişdə özəl sektorun bu əhəmiyyətli rolu qəbul edilir.

Bütün bu çərçivələrdə özəl sektoru yalnız maliyyə mənbəyi olaraq deyil, həm də miqrantların həyatlarının yaxşılaşdırılmasına və miqrantların inteqrasiyasına və onların immiqrasiya ölkələrinin milli inkişafına kömək etmək perspektivlərinə imkan yaradan aktiv bir iştirakçı olaraq inkişafa cəlb edilməsi üçün ortaq qərarlar təbliğ edilir.

Bu əməkdaşlığın innovativ xarakteri və Dayanıqlı İnkişaf Məqsədləri və Miqrasiya üzrə Qlobal Sazişin özəl sektorun cəlb edilməsinə dair siyasətlərin qəbul edilməsi və həyata keçirilməsini canlandırmaq üçün güclü potensialı nəzərə alınmaqla, bu alt-bölmədə milli təcrübələrin bəzi müfəssəl təhlili və təqdimatı verilmişdir. Anketlərin təhlilinin və kabinet təhlilinin birləşdirilməsi aşağıdakı regional tendensiyaları müəyyən etməyə imkan vermişdir:

8.3.2 Əsas tendensiyalar və çatışmazlıqların xülasəsi:

- ✓ MRTM regionunda, **əksər ölkələrdə özəl sektoru cəlb etmək üçün bəzi təşəbbüslər irəli sürülmüşdür**. Bununla birlikdə, **bu təşəbbüslər, xüsusilə** də miqrantların və qaçqınların mənşə ölkələrində ümumiləşdirilmiş zorakılıq və/və ya münaqişə vəziyyətləri nəticəsində miqrantların **kütləvi axınına hərtərəfli cavab tədbirləri kontekstində**, **əsasən beynəlxalq təşkilat tərəfindən yönləndirilməkdə davam edir.**

- ✓ **Kütləvi qaçqın və məcburi köçkün axınını qəbul edən bütün ölkələrdə özəl sektorun cəlb edilməsi ilə bağlı bəzi proqramlar mövcuddur.** Bu proqramlar müxtəlifdir və miqrasiya

sahələrinin geniş spektrinə yönəldilmişdir. Bəzi proqramlar müvəqqəti olaraq həyata keçirilir, digərləri isə daha sistematikdir və hökumət planlaşdırmasına daxil edilmişdir.

- ✓ **Region ölkələri özəl sektorun iştirakının məzmunu və mümkün həddi haqqında həmişə tam məlumatlı olmurlar (iştirak tipologiyası məlum deyil).**

- ✓ Regiondakı hökumətlər öz ölkələrində özəl sektorun rolunu lazımı qədər qiymətləndirməməyə meyllidir və **onlar miqrasiya sahəsində özəl sektorun mövcud dəstəyinin və bunun təsirinin qiymətləndirilməsini aparmamışlar**.

8.3.3 Özəl Sektorun İştirakına dair ölkə nümunələrinin təqdim edilməsi:

Aşağıda göstərilən nümunə indikativ dəyərə malikdir və həyata keçirilən işlərin müxtəlifliyini göstərmək məqsədi daşıyır, onlar da indikativ dəyərə malikdir və tam siyahı deyil:

- **Azərbaycanda** özəl sektor ilə strukturlu əməkdaşlıq mexanizmi mövcuddur. DMX-ın yanında Məsləhət Şurası yaradılmışdır və o, bir çox ölkələrin Ticarət Palatalarını və biznes assosasiyalarını birləşdirir. Biznes assosiasiyaları (məsələn, Caspian European Club) və özəl sektorun nümayəndələri ilə görüşlər onların rəylərini almaq, ehtiyaclarını öyrənmək və suallarını cavablandırmaq üçün mütəmadi olaraq keçirilir.

  Özəl Sektor ilə əməkdaşlıq layihələrinin konkret nümunələrinə gəldikdə, Azərbaycan, Dünya Bankının dəstəyi ilə, 1999-cu ilin oktyabr ayında 10 milyon ABŞ dolları məbləğində **Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunu** təsis etmişdir. 2000-ci ildə ABŞ-in Beynəlxalq İnkişaf Agentliyi (USAID) **2 milyon ABŞ dolları məbləğində Sosial İnvestisiya Təşəbbüsünə** başlamışdır. Hər iki fond icmalara infrastrukturlarını (yollar, məktəblər, irriqasiya sistemləri) yaxşılaşdırmaq üçün kiçik qrantlar verir. Qrant almaq hüququ qazanmaq üçün qrant alan icmadan həyata keçirilmə xərclərinin 10-20 faizini ödəməsi gözlənilir. **Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, gəlir yaratmaq üçün kreditlər verir və təlimlər təşkil edir.**

  ENI Group/AGIP (İtalyan çoxmillətli neft və qaz şirkəti) 2000-2001-ci illər ərzində **Xanlar və Beyləqanda 400-ə yaxın məcburi köçkün ailəsi üçün on səkkiz aylıq 2.2 milyon ABŞ dolları məbləğində məskunlaşma layihəsinin maliyyələşdirilməsinə razılıq vermişdir.**

- **İran** miqrasiya və qaçqın məsələlərində Avstraliya, Almaniya, İtaliya, Yaponiya, Koreya, Livan, İspaniya və Böyük Britaniyanın özəl sektorları ilə əməkdaşlıq edir.

  Əfqan Qaçqınlar üçün Həll Strategiyası (SSAR) İranda qaçqınlar üzrə cavab tədbirləri üzrə ümumi təlimatları və strateji çərçivəni təmin edir. Əfqan Qaçqınlar üçün Həll Strategiyası Əfqanıstan İslam Respublikası, İran və Pakistan arasında BMT QAK-ın dəstəyi ilə gerçəkləşən bənzərsiz çoxtərəfli və çoxillik regional strategiyadır. Əfqan Qaçqınlar üçün Həll Strategiyası Əfqanıstanlı qaçqınların

müdafiəsini təmin etmək və onlar üçün davamlı həll yolları tapmaq üçün 2011-ci ildə tətbiq edilməyə başladı. Bu, Sequa (özəl maliyyələşdirmə) tərəfindən dəstəklənir.

2019-cu ilin iyun ayında Sequa, İranda yaşayan Əfqan qaçqınları üçün peşə təlimi və təhsili layihəsini (ARIVET) həyata keçirmək məqsədi ilə İranın Tehran şəhərində layihə ofisi yaratdı və layihənin işçi heyətini işə götürdü. Layihə hazırda İranda yaşayan Əfqan qaçqınların işədüzəlmə qabiliyyətlərini (məşğulluq imkanlarını) artırmaq və yaşayış vasitələrini təmin etmək məqsədi daşıyır. Layihənin təmin etdiyi bacarıqlarla əfqan qaçqınlar, vaxtı gəldikdə, könüllü olaraq Əfqanıstana qayıtmaq üçün öz ölkələrində iş imkanlarına çıxış əldə edəcəklər.

İranın Əcnəbilər və Əcnəbi Miqrantların İşləri üzrə Bürosu və Almaniyanın ixtisaslı sənətkarlıq təşkilatları ilə birlikdə Sequa 2022 -ci ilin fevral ayına qədər Tehranda, həmçinin Kerman və Məşhəd əyalətlərində yaşayan əfqan qaçqınlarına ixtisas verilməsi üzərində işləyəcək.

- **Türkiyə** də, Türkiyə üçün 2020-2021 -ci illər üzrə Regional Qaçqın və Dayanıqlılıq Planı (3RP) çərçivəsində (Kənd Təsərrüfatı və Meşə Nazirliyi, Miqrasiya İdarəsi Ümumi Müdirliyi, Ailə, Əmək və Sosial Xidmətlər Nazirliyi və digər əlaqədar nazirliklər, idarələr və tərəfdaşlar ilə əməkdaşlıq və tərəfdaşlıq çərçivəsində həyata keçirilən) özəl sektorla strukturlu əməkdaşlıq mexanizminə malikdir. Plan müxtəlif iştirakşıların cəlb edilməsini və əsas xidmət təminatçıları olan özəl sektor və yerli qurumlarla tərəfdaşlıq tələb edən vahid birgə yanaşmaya əsaslanır.
- **Ukraynada** miqrasiya məsələləri ilə bağlı özəl sektorla əlaqə üçün xüsusi bir forum yoxdur. Bununla birlikdə, Xarici İşlər Nazirliyi ilə Vodafone, Lifecell, Kyivstar kimi mobil operatorları arasında xaricdə çətin vəziyyətdə olan Ukrayna vətəndaşları ilə bağlı razılaşmalar da daxil olmaqla, xüsusi əməkdaşlığa dair sübutlar mövcuddur. Müqavilələrə uyğun olaraq, mobil operatorlar XİN-ə ölkədəki diplomatik nümayəndəlikdə saxlanılan telefon nömrələrinə qısa mesaj göndərməklə zərər çəkmiş ərazilərdəki vətəndaşları mümkün təhdidlər barədə məlumatlandırılmaqda kömək edirlər.

Özəl Sektorun İştirakına dair Tövsiyələr:

- *Dayanıqlı İnkişaf Gündəliyi və Miqrasiya üzrə Qlobal Saziş miqrasiya sahəsində mövcud inkişaf və sektor siyasəti və strategiya sənədlərinə daxil etmək vasitəsilə regionda özəl sektorun iştirakına dair siyasət müzakirələrini canlandırmaq və özəl sektorla əməkdaşlığı institusionallaşdırmaq üçün çərçivə və imkanlar təqdim edir.* ***MRTM bu siyasət dialoqunu və qabaqcıl təcrübə mübadiləsini (o cümlədən regionun xaricindən) həyata keçirmək imkanı təklif edir.***

- *Regionun əksər ölkələrdə miqrasiya dövrü boyunca* ***Özəl Sektorun İştirakının Xəritəsini*** *hazırlamaq tövsiyə olunur (özəl sektorda məşğulluğun tipologiyası: özəl sektor miqrantlar üçün malların təchizatçısı kimi, özəl sektor hökumət üçün xidmət təminatçısı kimi, özəl*

sektor miqrantlar üçün işəgötürən və iş yaradan kimi, miqrasiya idarəçiliyinə təsir göstərmək üçün özəl sektora lobbiçilik edilməsi, qabaqcıl təcrübələr və s.).

- *Əldə edilmiş təcrübədən istifadə etmək, qabaqcıl təcrübə yaratmaq və Dövlət Sektorunun İştirakı üzrə Milli Strategiyalar hazırlamaq məqsədi ilə **Özəl sektorun iştirakının** (xüsusilə də, səmərəlilik, effektivlik və davamlılıq) **təsirinin** ölçülməsinə ehtiyac vardır.*

8.4 Ali təhsil müəssisələri ilə əməkdaşlıq

- ✓ Regionda ali təhsil müəssisələri ilə əməkdaşlıq özünün tam potensialına çatmaqdan çox uzaqdır. Regionda vəziyyətin ziddəyyətli olduğu görünür. Rusiya Federasiyası və Azərbaycan kimi ölkələrin, qabaqcıl təcrübə kimi istifadə edilə biləcək çox maraqlı əməkdaşlıq proqramları yaratdığı görünür.

- ✓ Qabaqcıl təcrübələr baxımından:

- **Azərbaycanda** ali təhsil müəssisələri ilə əməkdaşlığın bir neçə qabaqcıl təcrübəsi haqqında məlumat verilir. Bu, məsələn, Xəzər Universitetinin **Miqrasiya Bacarıqları Mərkəzinə (MCC)** aiddir. **Miqrasiya Bacarıqları Mərkəzi** akademik tədqiqatları təşviq etmək və aparmaq, müəllimləri, tədqiqatçıları, tələbələri və təcrübəçiləri hazırlamaq məqsədi daşıyan **Regional Araşdırma Şəbəkəsinin bir hissəsidir**. Miqrasiya Bacarıqları Mərkəzi BMqT-nin Azərbaycandakı Nümayəndəliyinin və müvafiq dövlət qurumlarının nümayəndələri də daxil olmaqla, yerli və beynəlxalq ekspertlər tərəfindən təlim kursları təşkil etməklə **tədqiqatçılar, müəllimlər, tələbələr, QHT-lər və digər təcrübəçilər üçün maarifləndirmə fəaliyyətləri** həyata keçirir.
  Miqrasiya Bacarıqları Mərkəzi bütün məlumatların daha geniş ictimaiyyətə (miqrasiya xidmətinin əməkdaşları, jurnalistlər, tədqiqatçılar, dövlət qurumları, vətəndaş cəmiyyəti) əlçatan olmasını təmin etmək üçün **nəşrlər və statistik məlumatlar hazırlayır və geniş yayır**. O, **miqrasiyanın vəziyyəti, insan alveri, qeyri-qanuni miqrasiya, qaçqınlar və sığınacaq axtaranlar** mövzularında seminarlar, konfranslar təşkil edir. Miqrasiya Bacarıqları Mərkəzi **Dünya İqtisadiyyatı və Miqrasiya Prosesləri üzrə Magistr Proqramının təşkili və aparılmasını** dəstəkləyir. Miqrasiya Bacarıqları Mərkəzinin əməkdaşları, e-təlim platformasını və miqrasiya ilə əlaqəli tədqiqat və rəsmi qurumların məlumatlarının qoşulan bazasını dəstəkləməkdən və yeniləməkdən məsuldurlar.

- Həmçinin, **Rusiyada,** xüsusilə də Sosial Siyasət İnstitutu çərçivəsində miqrasiya işi ilə bağlı maraqlı kurikulumlar hazırlanmışdır. Rusiyada digər universitetlər və tədqiqat mərkəzləri də miqrasiya işi üzrə magistr proqramları təklif edirlər (məsələn, Tomsk Dövlət Universiteti (miqrasiya idarəçiliyi, miqrant strategiyaları, miqrantların uyğunlaşması və inteqrasiyası, miqrasiya ilə əlaqədar müxtəlif sahələrdə yaradılan beynəlxalq standartlar və qabaqcıl təcrübələr üzrə). Lomonosov adına Moskva Dövlət

Universiteti, İrkutsk Dövlət Universiteti kimi bəzi universitetlər bu proqramların tərəfdaşlarıdır.

Avropa Şurası mütəxəssislərinin dəstəyi ilə digər regional təlim tədbirləri də təşkil edilmişdir (məsələn, Rusiya Xalqlar Dostluğu Universitetində təşkil edilən "Qlobal miqrasiya tendensiyaları 2020: təhlükəsizlik, səhiyyə sistemi və inteqrasiya" mövzusunda milli konfrans).

- Regionun bir neçə digər ölkəsinin bu sahədə təklif edə biləcəyi qabaqcıl təcrübələri vardır (məsələn, **Gürcüstan, Türkiyə** və s.). MRTM-in fəaliyyətlərinin planlaşdırılmasının növbəti inkişaf mərhələsində region ölkələrində mövcud olan kurikulumların nəzərdən keçirilməsinə ehtiyac vardır.

- Pulsuz hüquqi yardım göstərmək üçün **Hüquq Klinikalarının**, demək olar ki, mövcud olmadığı görünür (**Gürcüstanın** təcrübəsi bu sahədə maraqlı qabaqcıl təcrübə təşkil edə bilər).

8.5 Media ilə Əməkdaşlıq

8.5.1 <u>Ümumi</u>

- ✓ Məsləhətləşmə prosesinin keçirilmə vaxtının məhdud olması səbəbindən, yalnız 5 Media qurumudan (hamısı Azərbaycandan) rəy alınmışdır, buna görə də aşağıda qeyd olunan nəticələr, əsasən, Hökumətdən olan maraqlı tərəflər tərəfindən alınan sorğu anketlərinə verilən cavablara, həmçinin məsləhətləşmə prosesinə paralel olaraq aparılan kabinet təhlillərinə əsaslanır. **Aşağıda verilən vəziyyət və boşluqların təhlili, buna görə də, layihənin həyata keçirilməsinin növbəti dövrü ərzində ciddi şəkildə yoxlanma və dəqiqləşdirmə tələb edəcək.**

- ✓ **Hökumətdən olan maraqlı tərəflər və media arasında əməkdaşlığının miqyası və miqrasiya sahəsində İctimai məlumatlandırma strategiyalarının hazırlanması səviyyəsinin Region ölkələri arasında çox böyük dərəcədə fərqli olduğu görünür.**

- ✓ **Media ilə əməkdaşlığın inkişaf üçün əhəmiyyətli bir potensial olduğu görünür**.

  Media qurumları bir qayda olaraq hökumətlərin miqrasiyaya dair məlumatlarına çox güvənirlər.

  Miqrasiya meylləri ilə bağlı aylıq hesabatlar bir qayda olaraq mətbuata təqdim edilmir (mətbuat brifinqləri). Bu cür mətbuat brifinqləri ölkədəki miqrasiya vəziyyətinin görünmə dərəcəsinin artmasına, medianın məlumatvermə keyfiyyətinin yüksəlməsinə, hökumətlərin əldə etdiyi nailiyyətlərin görünmə dərəcəsinin artırılmasına və miqrasiya fenomeni və miqrantların vəziyyətinə medianın və ümumiyyətlə ictimai rəyin marağının artmasına kömək edəcək.

8.5.2 İctimaiyyəti Məlumatlandırma Strategiyaları, Media üçün Brifinqlər və İctimaiyyətlə Əlaqələr

- ✓ **Ümumiyyətlə, ictimaiyyəti məlumatlandırma və ictimaiyyətlə əlaqələr sahəsində regionda əhəmiyyətli çatışmazlıqlar var.** Xarici Əlaqələr, həm miqrasiya siyasətinin hazırlanmasına və həyata keçirilməsinə yaxşı səviyyədə dəstək vermək, həm də donorlar tərəfindən (həm milli, həm beynəlxalq, həm dövlət, həm özəl) səfərbərliyi təmin etmək üçün əsas elementlərdir.

- ✓ **Bir neçə ölkədə** miqrasiya sahəsində və ya miqrasiya daxil olmaqla **ictimaiyyəti məlumalandırma strategiyaları** miqrasiya idarəçiliyindən məsul olan əsas orqanlarda/nazirliklərdə **artıq mövcuddur**. Bu, məsələn, Gürcüstan, Türkiyə və Moldovaya aiddir.

- ✓ **Az sayda ölkə media qurumlarını məlumatlandırmaq üçün mexanizmlər tətbiq etmişdir**, bu Gürcüstan və Azərbaycana aiddir (DM-in rəhbəri ildə iki dəfə mətbuat konfransı/brifinqlər keçirir). Bu cür mexanizmləri qəbul edən bu ölkələrdən bəzilərində mütləq İctimaiyyəti Məlumatlandırma strategiyası yoxdur, məsələn, Azərbaycanda, digərlərinin İctimaiyyəti Məlumatlandırma strategiyasına malik olmasına baxmayaraq, belə bir mexanizmə malik olmadığı məlum olur (bu, xüsusilə Moldovaya aiddir).

- ✓ **Regionda bir neçə ölkədə nə İctimaiyyəti Məlumatlandırma strategiyası, nə də media qurumu üçün brifiq mexanizminin olmadığı görünür.**

- ➢ ***Yuxarıda göstərilənləri nəzərə alaraq, qabaqcıl təcrübə mübadiləsi üçün yaxşı potensial təklif edən Azərbaycan, Gürcüstan, Moldova, Türkiyə kimi ölkələrlə bu mövzu üzrə biliklərin regional səviyyədə qarşılıqlı zənginləşdirilməsi üçün maraqlı yollar mövcuddur*** *(bəzi ölkələr üçün məsləhətləşmə prosesi bu mövzuda məlumat toplamağa icazə vermədi və bu səbəbdən regionda daha çox ölkə qabaqcıl təcrübələr təqdim edə bilər).*

8.5.3 Hökumətdən olan maraqlı tərəflər tərəfindən Media məlumatlarının keyfiyyətinin qiymətləndirilməsi

- Media qurumları tərəfindən hazırlanan məlumatların keyfiyyəti ilə əlaqədar hökumət rəsmiləri tərəfindən aparılan qiymətləndirmə, ondan ibarətdir ki, ümumiyyətlə onlar yerdəki vəziyyəti (Azərbaycan, Gürcüstan, Türkiyə və Türkmənistana aiddir) yaxşı əks etdirmişdir. Az sayda ölkə media qurumlarından asılı olaraq ziddiyyətli bir vəziyyət bildirirlər (bu, Moldovaya aiddir), bəziləri isə vəziyyətin, ümumiyyətlə zəif əks etdirildiyini hesab edirlər (İran).

- Qeyd: Məsləhətləşmə prosesində 5 media qurumunun iştirak etdiyi Azərbaycan istisna olmaqla, qiymətləndirmə prosesi zamanı media qurumundan heç bir məlumat toplana bilmədi. Buna görə də, bu mərhələdə, miqrasiya ilə bağlı gördükləri işlərinin və miqrasiya sahəsində əməkdaşlığın və məlumatların təkmilləşdirilməsi ehtiyaclarının Media tərəfindən necə qavranılmasına dair regional xülasə təqdim etmək mümkün deyil.

- *Yol xəritəsinin hazırlanmasının növbəti mərhələsində, Medianın potensialının artırılması ehtiyaclarını və miqrasiya sahəsində Hökumət/Media əməkdaşlığını gücləndirməyin mümkün yollarını müəyyən etmək üçün bu prosesə Medianın daxil edilməsi (təmsilçi Medianın seçilməsi) vacib olacaq.*

MRTM üzrə Ümumi Tövsiyələr:

- *Bütün mərhələlərdə (siyasətin hazırlanması və həyata keçirilməsi, ehtiyacların qiymətləndirilməsi, proqram və layihələrin dəyərləndirilməsi) miqrantlar ilə güclü bir gender komponenti olan Məsləhətləşmə proseslərinə dair qabaqcıl təcrübələrin mübadiləsi (hər cinsdən və hər mənşədən olan miqrantların məsləhətləşmə proseslərinə daxil edilməsini təmin etmək üçün).*

- *Jurnalistlər üçün Miqrasiya haqqında məlumatların verilməsi üzrə Mediaya Təlim (Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz (ICMPD) bu yaxınlarda Təlimat Kitabını nəşr etmişdir)* [6]

- *Özəl sektorun miqrasiyaya cəlb edilməsi/səfərbərliyi ilə bağlı qabaqcıl təcrübələrin mübadiləsi (beynəlxalq təşkilatlardan və region xaricindəki ölkələrdən qabaqcıl təcrübələr)*

- *Tədqiqata və Miqrasiyaya dair siyasət dialoqu (görkəmli ali təhsil müəsisəsinin nümayəndəsi ilə) və qabaqcıl təcrübə mübadiləsi*

FƏSIL 2

TƏLİM POTENSİALININ İNKİŞAFI SAHƏSINDƏ REGİONAL ÇATIŞMAZLIQLARIN TƏHLİLİ VƏ EHTİYACLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

2.1 Giriş

[6] Almaniya Federal Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən və *Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz* tərəfindən 2020-ci il - Mart 2021 -ci ildə həyata keçirilən MOMENTA 2 (Miqrasiya Mediası Təlim Akademiyası) layihəsi çərçivəsində hazırlanmış Miqrasiya üzrə Təlimat Kitabı, Mart 2021-ci il.

Bu fəsil, region ölkələrinin təhsil potensialındakı bəzi çatışmazlıqları təhlil etmək və regiondakı hökumət rəsmilərinin miqrasiya sahəsində təlimlərə nə dərəcədə sistemli yanaşmalar tətbiq etməsini qiymətləndirmək məqsədi daşıyır (xüsusilə ali təhsi müəssisələri və digər iştirakçılar ilə əməkdaşlıq vasitəsilə). Bu, eyni zamanda, regionun digər ölkələrinə fayda verə biləcək bəzi ölkədaxili təcrübələrin qiymətləndirilməsinə də yönəldilmişdir.

Təlim potensialı ilə bağlı məlumatlar daha çox maraqlı tərəflərin sorğu anketlərinə verdiyi cavabların təhlili yolu ilə toplanmış və kabinet təhlilləri ilə, xüsusən də rəsmi dövlət veb saytlarının öyrənilməsi ilə tamamlanmışdır.

Təlim potensialına dair məlumatların əksəriyyətinin kabinet təhlili prosesləri vasitəsilə əldə edilə bilməyəcəyini nəzərə alaraq, hesabatda verilən məlumatlar, əsasən, Hökumətdən olan maraqlı tərəflərin məsləhətləşmə prosesində onlara verilən (maraqlı tərəflərlə məsləhətləşmə prosesinin nəticəsi haqqında) anketlərə cavab verdiyi ölkələrə aid olacaqdır (Əlavə 7-yə baxın).

Yuxarıda göstərilənləri nəzərə alaraq, **təlim potensialı ilə bağlı mövcud çatışmazlıqların təhlili gələcəkdə əlavə möhkəmləndirmə tələb edəcək** (Layihənin 2021-ci ilin sentyabrında başlayan növbəti həyata keçirilmə mərhələsində, xüsusilə vəziyyətləri bu fəsildə daha az əks olunan ölkələrin (məsləhətləşmə prosesi zamanı toplanan xüsusi məlumatların olmaması səbəbindən) verdiyi məlumatlarla tamamlamaq üçün).

2.2 Milli Təlim Təşkilatları və Miqrasiya İdarəçiliyi sahəsində kurikulumlar

2.2.1 Ümumi məlumat

- **Regionun bir çox ölkələrində miqrasiya və sığınacaq sahəsində çalışan dövlət qulluqçuları üçün artıq yaxşı fəaliyyət göstərən təlim müəssisələri mövcuddur.** Bu, məsələn, Azərbaycan, Gürcüstan, Moldova və Türkiyəyə aiddir.

- Bu cür təşkilatlar ya miqrasiya ilə bağlı xüsusi təlim mərkəzləri ola bilər, ya da miqrasiya idarəçiliyi və/və ya miqrasiya idarəçiliyinin bəzi xüsusi elementləri daxil olmaqla daha geniş portfelə malik təlim mərkəzləri ola bilər. Bir neçə ölkədə miqrasiya idarəçiliyi Polis akademiyalarının proqramlarına daxil edilmişdir (bu, əsasən sərhəd idarəçiliyi sahəsinə aiddir), lakin miqrasiya və beynəlxalq müdafiənin bu cür proqramlara daxil edilməsinin qabaqcıl təcrübəsi regionda mövcuddur, bəzi nümunələr aşağıda verilir:

    - **Azerbaijanda** Dövlət Miqrasiya Xidmətinin "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Təlim Mərkəzi" adlı xüsusi bir təlim mərkəzi var.

    - Gürcüstanda, **Gürcüstanın** Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyası miqrasiya idarəçiliyi ilə əlaqəli heç olmazsa, 3 dövlət təlim müəssisəsinin olması haqqında məlumat verir: Ədliyyə Nazirliyinin Tədris Mərkəzi, Daxili İşlər Nazirliyinin Təlim Akademiyası, Xarici İşlər Nazirliyinin nəzdində Diplomatik Təlim və Tədqiqat İnstitutu.

- Moldovada Daxili İşlər Nazirliyinin xüsusi bir təlim müəssisəsi vardır, Moldova Respublikasının "Stefan Cel Mare Akademiyası". Bu, polis işçilərinin hazırlanmasını və təlimini üç pillədə və mərhələdə təşkil edən akkreditə olunmuş dövlət ali təhsil müəssisəsidir: bakalavr dərəcəsi (I dövr), magistr dərəcəsi (II dövr) və doktorluq dərəcəsi. Polis Elmləri Fakültəsi Daxili İşlər Nazirliyi və digər benefisiarlar üçün (bura DİN-in bir orqanı olan Sərhəd Polisi İdarəsi daxildir) bakalavr təhsili (I dövr) və magistr təhsili (II dövr) verir.

  Stefan Cel Mare Akademiyası, MRTM regionu ölkələri də **(Azərbaycan, Gürcüstan, Rusiya, Belarusiya, Ukrayna və Türkiyə)** daxil olmaqla **bir neçə təhsil qurumu ilə 36 əməkdaşlıq razılaşması və müqaviləsi bağladı.**

- **Türkiyədə**, Türkiyə Milli Siyasət Akademiyası və Təhsil Nazirliyi, miqrasiya ilə məşğul olan işçilərin potensialının artırılmasında fəal rol oynayır. Konkret insan hüquqları sahəsində, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarında göstərildiyi kimi, Milli Polis Akademiyası çərçivəsində insan hüquqları və insan hüquqları pozuntuları ilə bağlı xüsusi bir jurnal nəşr olunur.

- **Belarusiyada** Regional Təlim Mərkəzi fəaliyyət göstərir: Miqrasiya və İnsan Alverinə Qarşı Mübarizə üzrə Beynəlxalq Təlim Mərkəzi. BMqT-nin dəstəyi ilə 2007-ci ildə yaradılmışdır. Mərkəz mütəmadi olaraq bir neçə keçmiş Sovet İttifaqı ölkəsindən milli və beynəlxalq miqrasiya və hüquq-mühafizə orqanları üçün təlimlər keçirir, təlimçilər kimi xarici mütəxəssislər cəlb edilir. Yalnız 2019 -cu ildə beynəlxalq təşkilatların dəstəyi ilə 13 yüksək səviyyəli kurs daxil olmaqla 23 təlim keçirilmişdir.

- Maraqlıdır ki, **regionun bəzi ölkələrində,** xüsusilə Azərbaycan və Gürcüstanda, **dövlət təlim mərkəzləri xaricdən olan təlim alanlar üçün də açıqdır.** Regionun bəzi ölkələrində digər ölkələrdən təlim almaq istəyənləri qəbul etmək üçün tərəfdaşlıqların qurulub-qurulmadığına dair məlumatlar bu hesabatın hazırlanması zamanı mövcud deyildi, ancaq bu, region ölkələri arasında müzakirə ediləcək maraqlı bir regional məsələ olardı.
- Bu mərkəzlərdə **təlimçilər,** əsasən eyni hökumət strukturuna mənsub olan məmurlardır (məsələn, Gürcüstan və Türkiyəyə aiddir). Bununla birlikdə, bəzi ölkələr **təlimçilərin həm hökumət strukturu daxilindən, həm də strukturun xaricindən olan səxslərdən ibarət ola biləcəyini bildirirlər**. Bu, xüsusilə təlimin Dövlət Miqrasiya Xidmətinin təlimçiləri tərəfindən həyata keçirildiyi, lakin təlimin mövzusundan asılı olaraq, həmçinin digər dövlət qurumlarının, beynəlxalq və qeyri-hökumət təşkilatlarının mütəxəssislərinin də təlimçi kimi dəvət oluna biləcəyi Azərbaycana aiddir.

2.2.2 Tövsiyələr

- *Ümumiyyətlə,* ***Miqrasiya üzrə Qlobal Sazişin prinsipi/strukturuna uyğun olaraq, hökumət rəsmiləri üçün potensialın artırılması fəaliyyətlərinin gücləndirilməsinə*** *ehtiyac var. Çox vaxt dövlət məmurları ya kifayət qədər təhsilə malik olmurlar, ya da təlim aldıqları zaman yalnız öz xüsusi iş sahələrində təlim alırlar (və gender, insan hüquqları və*

ətraf mühit perspektivləri daxil olmaqla miqrasiyanın bütün komponentlərinə kifayət qədər çıxış əldə edə bilmirlər), bu da, öz növbəsində hərtərəfli miqrasiya idarəetmə siyasəti və proqramlarının hazırlanmasına, həyata keçirilməsinə və/və ya dəyərlənləndirilməsinə imkan vermir. Bu cür səylər maliyyələşdirmə strategiyası ilə (donorların səfərbərlik komponenti də daxil olmaqla) müşayiət olunmalıdır.

- ***Regional sinergiyalar, xüsusilə təlim alanların mübadiləsi/regionun digər ölkələrindən olan təlim alanlara çıxış, mövcud əməkdaşlıq müqavilələri əsasında qabaqcıl təcrübələrin mübadiləsi vasitəsilə*** *(regionda mövcud qabaqcıl təcrübələrə əsaslanaraq),* ***gücləndirilməlidir.***

- ***Region ölkələrində bu cür mərkəzlərin inkişafına kömək etmək və*** *bir-birini tamamlama əsasında* ***regional sinergiya yaratmaq üçün bu qurumlardan mövcud kurikulumlarının toplanmasına*** *ehtiyac var.*

- *Miqrasiya idarəçiliyi sahəsində hökumətin təlim mərkəzlərində xaricdən olan təlim alanlar /xaricdən olan təlim alanlar üçün təqaüd mübadiləsini gücləndirmək üçün* ***Polis Akademiyaları ilə hökumətin digər təlim mərkəzləri arasında mövcud əməkdaşlıq müqavilələrini və*** *miqrasiya ilə əlaqədar kurikulumlar üzrə* ***regional sinergiya potensialını araşdırmaq*** *lazımdır. Miqrasiya idarəçiliyi sahəsində hökumətin təlim mərkəzlərində xaricdən olan təlim alanlar/ xaricdən olan təlim alanlar üçün təqaüd mübadiləsi sahəsində regional əməkdaşlıq ilə bağlı qabaqcıl təcrübələri toplamaq.*

2.3 Hökumət məmurları üçün potensialın artırılması fəaliyyətlərinin planlaşdırılması və həyata keçirilməsi

2.3.1 Təlim Planları:

- ✓ *Regionda heç olmazsa, bir anket doldurmuş ölkələrinin əksəriyyəti təlim planına sahib olduqlarını bəyan etmişdir. Bu, xüsusilə* ***Azərbaycan, Gürcüstan, Moldova və Türkiyəyə*** *aiddir.*

  - **Azərbaycan üçün mövcud system inkişaf etmiş sistemdir, çünki Təlim planı hökumətin təsdiq etdiyi "DMX-in Perspektiv İş Planı"na daxil edilmişdir.** Bundan əlavə, Tədris Mərkəzinin illik İş Planı və Təlim Mərkəzinin illik İş Planının həyata keçirilməsi üçün Fəaliyyət Planı da hökumət tərəfindən təsdiq edilmiş sənədlərdir.

  - **Gürcüstanda** Daxili İşlər Nazirliyinin Akademiyasının təlim planı, miqrasiya ilə əlaqədar seçilmiş bir sıra mövzular üzrə təlimləri əhatə edən təsdiq edilmiş bir hökumət sənədidir.

- ✓ **Ancaq bəzi ölkələrin təlim planının olmadığını bildirməsi və belə planlar olduqda isə miqrasiya idarəçiliyinin bu planlara kifayət qədər daxil ediməməsi səbəbilə regionda bəzi əhəmiyyətli çatışmazlıqlar olduğu təsbit edilmişdir.**

- ✓ Təlim planlarının olduğunu bildirən bütün ölkələr planlarına insan hüquqları və gender məsələlərini daxil etdiklərini bildirmişlər.

- ✓ **Təlim planları haqqında məlumat verən bütün ölkələr, təlim imkanlarına çıxış baxımından gender bərabərliyini təmin edən mexanizmləri tətbiq etdiklərini bildirmişlər.** Bununla yanaşı, **konkret bir təcrübə paylaşılmamışdır** və bu ölkələrin miqrasiya idarəçiliyi sahəsində işçi heyətinin potensialının inkişafı ilə bağlı daha geniş siyasət müzakirəsi səbəbilə regiondakı digər ölkələr ilə konkret ölkə təcrübəsini bölüşə biləcəyi maraqlı olardı.

- ➢ *Bu səbəbdən MRTM-in işi çərçivəsində bu sahədə qabaqcıl təcrübə mübadiləsi tövsiyə olunur, bu, miqrasiya idarəçiliyi sahəsində (insan hüquqları və gender komponenti daxil olmaqla) işçi heyətinin potensialının artırılması ilə bağlı daha geniş siyasət müzakirəsi çərçivəsində təlim planları üzrə qabaqcıl təcrübə mübadiləsi şəklini ala bilər.*

2.3.2 Təlim büdcəsi

- Regiondakı hər bir ölkədə vəziyyət fərqli olsa da, bütün ölkələrin **miqrasiyaya dair öz təlimlərinə və digər potensialın gücləndirilməsi fəaliyyətlərinə büdcə ayırmaqda və maliyyəlşdirməkdə çətinlik çəkdikləri** görünür.

- Bir sıra ölkələr (o cümlədən Gürcüstan, İran və Türkiyə) miqrasiya ilə bağlı potensialın artırılması üçün **xüsusi təlim büdcəsinə** malik olduqlarını bəyan edirlər. Ölkələrin böyük əksəriyyəti (Azərbaycan və Moldova daxil olmaqla təlim planları olsa da), **təlim fəaliyyətlərinin əsasən alternativ maliyyə mənbələri hesabına, yəni beynəlxalq təşkilatlar ilə əməkdaşlıq yolu ilə həyata keçirildiyini** vurğulayır. Bu cür təşkilatlar, xüsusilə region üçün aşağıdakılardır: BMqT, BMTQAK, Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz, FRONTEKS, ATƏT-in DTİHB və s.

- Potensialın artırılması fəaliyyətləri üçün vəsait çatışmazlığını azaltmağa kömək edən **Təlimçilərin Təlimi Sistemləri** (TT), **ümumiyyətlə region ölkələrində mövcud deyildir**. DİN Akademiyasının xüsusi Təlimçilərin Təlimi kursu olduğu üçün Gürcüstan region üçün qabaqcıl təcrübə ola bilər.

- ➢ *Yuxarıda təsvir olunan çatışmazlıqları nəzərə alsaq, MRTM çərçivəsində regional dialoq əsas rol oynayacaq, çünki o, təlim resurslarının və donorların səfərbərliyi üçün strategiyalar və vasitələrin səmərəliliyini və effektivliyini maksimum dərəcədə artırmağa imkan verən biliklərin qarşılıqlı zənginləşdirilməsini dəstəkləmək və regional sinergiya yaratmaq məqsədi daşıyır.*

2.4 Potensialın artırılması sahəsində məlumatların toplanması və təhlili

2.4.1 Statistika

- Region ölkələrindəki vəziyyət ziddiyyətlidir. Əksər ölkələr təlim alanların sayının illik statistikasını apardıqlarını bəyan edirlər (xüsusən Azərbaycan, Gürcüstan, İran, Moldova və Türkiyəyə aiddir), digərləri üçün isə bu məlumatlar mövcud deyil və/və ya illik statistika yoxdur.

- Planlarında təlim imkanlarından istifadə etmək baxımından gender bərabərliyini təmin edən mexanizmi olan bəzi ölkələr də daxil olmaqla bir neçə ölkədə **gender üzrə ayrılmış məlumatlar** (təlimin benefisiarları haqqında) yoxdur (beləliklə, bu mexanizmləri işləməz hala gətirir).

2.4.2 Dəyərləndirmə sistemləri və təlimin təsirinin qiymətləndirilməsi

Təlim sessiyalarının dəyərləndirilməsində və onların dövlət qulluqçularının işinə təsirinin qiymətləndirilməsində və miqrantların özlərinə təsirlərinin qiymətləndirilməsində bəzi meyllər və çatışmazlıqlar aşağıdakı kimi müəyyən edilmişdir:

- **Potensialın artırılması tədbirlərinin dəyərləndirilməsi sistemlərinin, ümumiyyətlə zəif olduğu görünür.** Əksər ölkələr təlimin sonunda təlimlərin dəyərləndirilməsini həyata keçirdiklərini bildirirlər.
    - Bu cür vasitələr, əsasən təlim alanlar tərəfindən doldurulacaq dəyərləndirmə formalarından və bal vərəqlərindən ibarətdir;
    - Bəzi ölkələr peşəkar təlimçilərinin daxili dəyərləndirmə sistemini və s. tətbiq etmişlər.

- Bu səylərə baxmayaraq, **təlimin məzmunu və ya təsiri ilə bağlı sistemləşdirilmiş keyfiyyət təhlili olmadığı görünür.**

- Potensialın artırılması fəaliyyətlərinin həm təlim alanların işinə, həm də miqrantlara xidmətlərin göstərilməsinə **təsirinin qiymətləndirilməsinin**, **xüsusilə olmadığı görünür**. Bu, təlimin təsiri ilə bağlı maraqlı tərəflərdən alınan məlumatın qeyri - müəyyən olduğu və/və ya ümumiyyətlə verilməməsi ilə əsaslandırılır.

  Region ölkələrində **təsirlərin ölçülməsi ilə bağlı konkret indikatorların olmadığı** məlum olur.

➢ *MRTM məlumatların toplanması və təhlili və potensialın artırılması fəaliyyətlərinin təsirinin ölçülməsi mövzusunu müzakirə etmək üçün, xüsusilə də məlumatların toplanması və məlumatların təhlili üzrə regional potensialın artırılması fəaliyyətinin daha geniş kontekstində və miqrasiya idarəçiliyi sahəsində işçi heyətin potensialının inkişafı ilə bağlı xüsusi dialoq (insan hüquqları və gender komponenti daxil olmaqla) çərçivəsində yaxşı bir imkan təqdim edəcək.*

2.5 Təlim materialları və Təlimat kitabları

- Regiondakı hökumət orqanları, **öz strukturlarının hazırladığı təlimat kitablarından çox, digər iştirakçıların hazırladığı təlimat kitablarına daha çox etibar etməyə meyllidirlər**. (bunu vaxtın və maliyyə resurslarının olmaması ilə izah etmək olar; standart təlimat kitabları hazırlayan Beynəlxalq Təşkilatlar ilə yaxşı əməkdaşlıq səviyyəsi də bu faktorları tamamlayan faktor ola bilər).
  Regionda yalnız bir ölkə (Türkiyə) son üç ildə miqrasiya sahəsində öz təlim kitabçasını hazırladığını bildirmişdir (e-təlim), lakin bu məlumatların yenidən təsdiqlənməsi tələb olunacaq.

- Son üç il ərzində, əsasən də BMqT və ya digər beynəlxalq təşkilatların dəstəyi ilə, regionda bəzi maraqlı təlim kitabları və materiallar hazırlanmışdır. Bu, məsələn, BMqT ilə əməkdaşlıqda Dövlət Sərhəd Komitəsinin Təcrübəçiləri üçün Təlimat Kitabının hazırlandığı Belarusiya aiddir. Təlimat, geri qayıtmış şəxslərin insan hüquqlarına və insan ləyaqətinə hörmət edilməsini təmin edən sürətli readmissiya prosedurları da daxil olmaqla, bütün əsas aspektləri əhatə edir. Bu Təlimat indi Sərhəd Xidməti İnstitutunun kurikulumunun bir hissəsini təşkil edir.

  - *Gələcəkdə, bu məsələ barəsində daha ətraflı məlumat əldə etmək və eyni zamanda Hökumətdən olan maraqlı tərəflər və/və ya Beynəlxalq Təşkilatlar tərəfindən regionda hazırlanan təlimat kitablarını təhlil etmək maraqlı olardı.*

  - ***MRTM-də belə bir təlimat kitabı/təlim materialının ehtiyatı yaradıla və modullarla təqdim oluna bilər** (Təlimat kitabının/materialın dilini və s. müəyyən etmək daxil olmaqla). Bu, resursları maksimum dərəcədə artırmağa təsir edərdi.*

2.6 Son üç il ərzində regionda əsas təlim meyllərinin xülasəsi

2.6.1 Təlimçilər və Təlim alanlar haqqında ümumi məlumat:

Regionun əksər ölkələrində, **regiondakı əsas miqrasiya qurumlarının məmurları həm təlim alanlar, həm də təlimlərin təminatçıları olmuşlar.** Bu, Təlimçilərin Təliminin inkişafı üçün, eləcə də potensialın artırılması ehtiyacları, problemləri, imkanları və təsirləri haqqında məhsuldar bir dialoq üçün MRTM çərçivəsində yaxşı bir potensialın olduğunu göstərir.

2.6.2 Təlimin əhatə dairəsi, məzmunu və həcmi:

Təlimin əhatə dairəsi, məzmunu və miqdarı miqrasiya idarəçiliyinin prioritetindən asılı olaraq ölkələrə görə dəyişir, lakin bəzi regional tendensiyalar aşağıdakı kimi müəyyən edilə bilər:

- **Əsas Miqrasiya İdarəetmə Orqanında** (Nazirlik, Büro, Xidmət və s.) **tam təşəkkül tapmış təlim mərkəzi olan ölkələr öz işçi heyətləri üçün kəmiyyətcə daha yüksək təlim təklif etməyə meyllidir.**

- **Əsas Miqrasiya İdarəetmə Orqanında** (Nazirlik, Büro, Xidmət və s.) **tam təşəkkül tapmış təlim mərkəzi olan ölkələr öz işçi heyətlərinə** Miqrasiya üzrə Qlobal Saziş və

Qaçqınlar haqqında Qlobal Sazişin əksər fəsillərini əhatə edən **daha geniş spektrdə təlim təklif etməyə meyllidirlər.**

- **Bir neçə ölkədə**, xüsusən də (amma bunla məhdudlaşmadan) aşağıdakı sahələrdə bəzi **yaradıcı potensialın artırılması fəaliyyətləri müəyyən edilmişdir**:

    - **İşçilərin etik davranış qaydaları və davranış kodeksi;**
    - **Korrupsiyaya qarşı mübarizə;**
    - **Miqrantlar üçün sənədlərin idarə edilməsinin elektron sistemləri;**
    - **Stresin qarşısının alınması və stresin idarə edilməsi;**

- Təlim fəaliyyətlərinin maraqlı və yaradıcı siyahısına baxmayaraq, **bəzi sahələrdə təlimlərinin ölkə sorğusunda təqdim olunan siyahıda çox yaxşı təqdim olunduğu, digər mövzuların isə, ümumiyyətlə təqdim olunmadığı və ya az təqdim olunduğu** görünür.

    - **Sərhəd idarəçiliyi və qeyri-qanuni miqrasiyaya qarşı mübarizə** ilə bağlı mövzular **ölkə səviyyəsində alınan və verilən təlimlər siyahısında yaxşı təmsil olunur.** Bu cür təkrarlanan mövzular, xüsusilə aşağıdakılardır: saxta sənədlərin müəyyən olunması, sərhəd yoxlaması proseduru; profilləşdirmə, sərnişinlər ilə əlaqə, müsahibə bacarıqları, qanunsuz miqrantların müşayiət edilməsi, sərhədçilər üçün müdaxilə və həbs qərarı; terrora qarşı mübarizə, insan alveri və tərcümə cinayətləri və s.).

      Bu, qarışıq miqrasiya axını kontekstində dövlətlərin sərhədlərini qorumaq və qeyri-qanuni miqrasiyanın qarşısını almaq üçün qanuni yüksək tələbi ilə izah edilə bilər və bu səbəbdən də son üç ildə sərhəd idarəçiliyi mövzusuna dair təlimlər əhəmiyyətli yer tutur. Bundan əlavə, region ölkələri sərhədlərin idarə edilməsi üçün beynəlxalq dəstəkdən (məsələn, Avropa İttifaqının Orta Asiyada maliyyələşdirdiyi layihələr), o cümlədən, potensialın artırılması fəaliyyətləri vasitəsilə faydalanmışlar *(Qeyd: Bu, İnteqrə edilmiş Sərhəd İdarəçiliyinin gələcək illərdə potensialın artırılması fəaliyyəti olmayacağı qənaətinə gəlmir).*

    - **Qaçqınların beynəlxalq müdafiəsinin** də son üç il ərzində prioritetləşdirildiyi görünür (bu, xüsusilə sığınacaq prosedurları, sığınacaq axtaranlar ilə müsahibələr keçirilməsi, mənşə ölkəsi haqqında məlumatlar, sığınacaq axtaranların istiqamətləndirilməsi mexanizmləri və s. mövzulara aiddir).

      Bu, ölkələrin (Türkiyə və İran kimi) kütləvi axın ilə üzləşdiyi və beynəlxalq müdafiəyə ehtiyacı olan çox sayda insanı və/və ya məcburi köçkünü qəbul etdiyi regiondakı miqrasiya tendensiyaları ilə izah edilə bilər. Daha az qaçqın olan ölkələrdə son illərdə beynəlxalq standartlara uyğun sığınacaq sistemləri qurulmuş

və gücləndirilmişdir və beynəlxalq müdafiə mövzusunda təlimlər prioritet olmuşdur.

- **Məlumatların toplanması və təhlili üzrə təlim sessiyaları** bir neçə ölkə tərəfindən son üç il ərzində keçirilən təlimlər siyahısına daxil edilmişdir.

  Müvafiq proqram təminatı ilə bağlı təlimlər, çox vaxt, hökumətlərin potensialının artırılması səyləri ilə müşayiət olunur. Bu, hökumətlərin sübuta əsaslanan miqrasiya siyasəti hazırlamağın, həmçinin risklərin təhlilini aparmaq üçün vasitələrin hazırlanmasının və miqrasiyanın milli inkişafa təsirini maksimum dərəcədə artırmağın vacibliyi barədə məlumatlı olduğunu göstərir.

- **Qayıdış və Readmissiya** üzrə Təlimlər, milli səviyyədə potensialın gücləndirilməsi səylərində də yaxşı əks olunur (bununla belə, Readmissiya Sazişləri və onların həyata keçirilməsi kimi real çatışmazlıqlar müəyyən edilmişdir).

- **Məsləhətləşmə prosesində, miqrasiya idarəçiliyinin bəzi vacib komponentləri,** son üç il ərzində təşkil edilən **təlim mövzusu olaraq, ümumiyyətlə qeyd edilməmişdir. Bu çatışmazlıqlar, xüsusilə aşağıdakı sahələrdə ortaya çıxır** (aşağıdakı siyahı indikativ xarakter daşıyır və tam siyahı deyildir):

  - **"Miqrasiya və Ətraf Mühit" (bu heç bir potensialın artırılması tədbirlərində görünmür)**

  - **Miqrantların və sığınacaq axtaranların saxlanılması və qəbulu standartları** (bu nadir hallarda görünür)

  - **Gender və Miqrasiya** (bunun heç bir potensialın artırılması tədbirlərində olmadığı görünür)

  - **Məcburi yerdəyişmələrin qarşısının alınması:** Ayrı-seçkiliyə qarşı mübarizə, ksenofobiyanın qarşısının alınması və milli azlıqların hüquqları, ümumiyyətlə son üç ildə təlim mövzusu olmamışdır.

  - **Miqrantların insan hüquqlarının** lazımı qədər təmsil olunmadığı görünür (uşaq miqrantların hüquqları, müşayiət olunmayan azyaşlılar, həssas qruplar üçün istiqamətləndirmə mexanizmləri, əməkçi miqrantların hüquqları və s.)

  - **Əmək miqrasiyası** da nadir hallarda qeyd olunur (əksər ölkələrdə, o cümlədən Orta Asiyanın bütün ölkələrində prioritet olmasına baxmayaraq)

  - Regionda vətəndaşsızlığın azaldılması və vətəndaşlıq əldə etmək imkanı baxımından hələ də mövcud olan çatışmazlıqlara baxmayaraq, **vətəndaşsızlığın azaldılması və vətəndaşlıq** nadir hallarda qeyd olunur.

- Region ölkələrinin əksəriyyəti tərəfindən siyasət prioriteti kimi qəbul edilməsinə baxmayaraq, **miqrantların inteqrasiyası** da nadir hallarda qeyd olunur.

2.6.3 Hədəf auditoriya/Təlimlərin Benefisiarları:

Dövlət qulluqçuları tərəfindən keçirilən potensialın artırılması fəaliyyətləri üçün hədəf auditoriyanın/təlim alan şəxslərin müxtəliflik səviyyəsi region ölkələrinə görə dəyişir, lakin **bəzi meyllər aşağıdakı kimi müəyyən edilə bilər:**

- ✓ Ümumiyyətlə, həm təlim qurumundan olan dövlət qulluqçuları, həm digər maraqlı orqanların (Nazirliklər/Xidmətlər və s.) dövlət qulluqçuları təlimlərin benefisiarları olmuşdur.

- ✓ Bəzi hallarda bu təlim mərkəzinə vətəndaş cəmiyyəti iştirakçıları (məsələn, Gürcüstan) və/və ya ali təhsil müəssisələrinin üzvləri/tələbələr daxildir (məsələn, Gürcüstan və Moldova). Çox az sayda ölkə mediaya təlim keçdiyini qeyd etmişdir. Miqrantların özlərinə təlimlərə gəldikdə, maraqlı tərəflər ilə məsləhətləşmə prosesində toplanan məlumatların təhlilindən görünür ki, son üç ildə yalnız Azərbaycan onlara təlim keçməsi haqqında bildirilmişdir.

- ➢ ***Gələcəkdə*** *miqrantlar üçün həm xüsusi təlimlər, həm də məlumat sessiyaları (onların hüquq və öhdəlikləri, xidmətlərə çıxışı, korrupsiyaya qarşı mübarizə tədbirləri və mövcud qaynar xətlər, gender bərabərliyi və s. ilə bağlı təlimlər) təşkil etmək vasitəsilə və öz növbəsində, miqrasiya ilə bağlı siyasətin hazırlanmasını dəstəkləyəcək sinergiya yaratmaq məqsədi daşıyan birgə fəaliyyətlərin yaradılması yolu ilə* ***miqrantların özlərinə birbaşa hökumət strukturları tərəfindən təlim imkanlarının artırılmasına/məlumat sessiyalarının keçirilməsinə ehtiyac olduğu aydındır.***

2.6.4 Təlimi təmin edən Beynəlxalq Təşkilatların və VCT -lərin rolu:

Bu sahədə əsas tendensiyalar və çatışmazlıqlar aşağıdakılardır:

- Son üç il ərzində əsas tendensiyalar və çatışmazlıqlar **dövlət qulluqçularının digər dövlət qulluqçularından təlim almaqla yanaşı, daha çox beynəlxalq təşkilatlar tərəfindən verilən təlimləri almasıdır.**

- Regionun bütün ölkələrində **beynəlxalq təşkilatlar ilə əməkdaşlığın hökumət rəsmiləri tərəfindən yüksək qiymətləndirildiyi görünür**. Bu Budapeşt və Praqa prosesləri kimi regional prosesləri və ya ikitərəfli əməkdaşlıqları əhatə etmişdir. Beynəlxalq təşkilatlar tərəfindən təmin edilən potensialın artırılması fəaliyyətlərinin, miqrasiya siyasətinin hazırlanmasından başlayaraq, beynəlxalq standartlar, habelə nou-haunun konkret ötürülməsi (məsələn, saxta sənədlərin müəyyən edilməsi, sərhəd yoxlamaları və s.) kimi geniş diapazonda mövzuları əhatə etdiyi görünür.

- **Ali-təhsil müəssisələrinin** nümayəndələri tərəfindən bəzi təlimlərin verildiyi **nadir hallarda bildirilir**, bu, MRTM-in dəstəyi ilə inkişaf etdiriləcək bir sahədir.

- **QHT sektoru ilə də eyni çatışmazlıqlar müəyyən edilmişdir** (təlimlər üzrə əməkdaşlıq hələ də kifayət qədər inkişaf etməmişdir).

- **Miqrantlara və ya miqrantların assosasiyalarına gəldikdə, regionda heç bir ölkə, miqrant assosasiyaları və/və ya miqrantların özləri tərəfindən verilən potensialın artırılması fəaliyyətlərindən faydalanmadığını bildirir** (bir neçə ölkədə diaspora üzvləri və/və ya diaspora rəhbərləri istisna olmaqla, məsələn Moldova).

  Miqrantların və miqrant təşkilatlarının, miqrasiya ölkələrinin hökumət həmkarları ilə bölüşmək üçün geniş və spesifik bilik və təcrübəsi var və bu da öz növbəsində siyasətin hazırlanmasına dəstək ola bilər, lakin regionun əksər hökumətlərinin belə bir əməkdaşlığın gətirə biləcəyi bu potensial haqqında tam məlumatlı olmadığı və/və ya bu potensialı həyata keçirmək üçün mexanizmlər yaratmadığı görünür.

- ✓ *Gələcəkdə **miqrantlar ilə birgə potensialın artırılması fəaliyyətinin hazırlanması və təşkili** yolu ilə bu çatışmazlığı aradan qaldırmaq tövsiyə olunur (miqrasiyanın psixo-sosial aspektləri, miqrantların inteqrasiyası, miqrant qadınların miqrasiya və inkişafda rolu və s kimi mövzularda birgə təlimlər keçirməklə sinergiya tədricən yaradıla bilər.).*

- ✓ *MRTM **mümkün/uyğun olduqda, miqrantların və miqrant assosasiyası nümayəndələrinin** planlaşdırılan potensialın artırılması tədbirlərində **ekspert kimi (həm qadınlar, həm də kişilər) iştirak etməsini** və miqrantların və **miqrant ekspertlərin** MRTM-in **ekspertləri siyahısına daxil edilməsini təmin etməlidir**.*

2.6.5 <u>Təlimdən başqa potensialın artırılması fəaliyyətləri</u>

- **<u>Təlim səfərləri:</u>**

  Qabaqcıl təcrübələrin alınması və/və ya mübadiləsinə yönəldilmiş təlim səfərləri də əhəmiyyətli potensial artırma vasitəsidir. **Regionun bir neçə ölkəsi son üç il ərzində heç olmazsa, bir təlim səfəri keçirildiyini qeyd etmişdir.**

  Yalnız Moldovanın DİN-in Miqrasiya və Sığınacaq Bürosunun əməkdaşları 9 təlim səfəri etmişlər.
  Son 3 il ərzində DMX-in 19 işçisi 7 ölkədə təhsil səfərlərində iştirak etmişdir (Koreya, Almaniya, İtaliya, Polşa, Gürcüstan, ABŞ, Fransa).
  Digər tərəfdən bəzi ölkələr (məsələn, İran), son üç il ərzində belə bir səfər edilməsi barədə məlumat verməmişlər.
  Məsləhətləşmə prosesində region ölkələri, regionun digər ölkələri üçün qabaqcıl təcrübə təklif edə biləcəklərini düşündükləri maraqlı və bir-birini tamamlayan iş sahələrini xüsusi qeyd etmişdir.

- **<u>Tvininq Layihələri:</u>**

Regionda vəziyyət çox ziddiyyətlidir. **Bir neçə ölkə miqrasiya sahəsində Tvinninq Layihəsindən faydalanmışdır (xüsusilə Azərbaycan, Gürcüstan və Moldova).**

Tvininq Layihələri bilik və təcrübəni strukturlu və uzunmüddətli perspektivdə ötürmək üçün möhkəm bir vasitədir. Bu cür layihələrin əlavə dəyəri, bu cür tvinninq müqavilələri bağlamaq prosedurları MRTM çərçivəstində miqrasiya idarəçiliyi sahəsində potensialın artırılması mövzusunda daha geniş regional kontekstdə faydalı şəkildə müzakirə edilə bilər.

- *Təlim səfərləri vasitəsilə qabaqcıl təcrübələrin regiondaxili mübadiləsini təşviq etmək məqsədi ilə, MRTM çərçivəsində MRTM-in kurikulumunun həyata keçirilməsi müddətində regionda mövcud qabaqcıl təcrübələri nəzərdən keçirmək və uçotunu aparmaq üçün mexanizm yaratmaq faydalı olardı.*
- *Həmçinin, miqrasiya idarəçiliyi sahəsində işçi heyətinin potensialının inkişafına dair daha geniş regional dialoq çərçivəsində tvinninq müqavilələri bağlamaq təcrübələri və prosedurlarına dair qabaqcıl təcrübələri təqdim etmək və müzakirə etmək tövsiyə olunur.*

FƏSİL 3

MİQRASİYA İLƏ BAĞLI REGİONAL

POTENSİALIN ARTIRILMASI/ TƏLİM EHTİYACLARININ MÜƏYYƏN EDİLMƏSI

1 GİRİŞ

1.1 Müəyyən etmə Parametrlərinin Təqdim olunması

Bu potensialın artırılması/təlim ehtiyaclarının müəyyən edilməsi aşağıdakı tədbirlər və parametrlər əsasında hazırlanmışdır:

- Miqrasiya İdarəçiliyinin və aşağıdakılardan irəli gələn təlim ehtiyaclarının təhlili:
    - Milli Məsləhətçilərin maraqlı tərəflər ilə apardığı müsahibələrin nəticələrinin diqqətlə təhlili;
    - Maraqlı tərəflər tərəfindən doldurulmuş anketlərin ətraflı nəzərdən keçirilməsi və təhlili;
    - Milli Məsləhətçilər tərəfindən hazırlanan Ölkə Hesabatları/ Kabinet təhlillərindən irəli gələn **mövcud çatışmazlıqların təhlili** (həm miqrasiya idarəçiliyi, həm də potensialın artırılması baxımından) (bu hesabatın 2 -ci fəsli)
    - **Məsləhətləşmə prosesində iştirakçı ölkələr tərəfindən ifadə olunan potensialın artırılması ehtiyacları** (prosesin nəticəsi Yekun Cədvəl 7-də öz əksini tapmışdır)

- **MRTM-in iştirakçı ölkələrinin,** xüsusilə **BMT-nin Dayanıqlı İnkişaf Gündəliyi, Miqrasiya üzrə Qlobal Saziş**, həmçinin iştirakçı ölkələrin **riayət etdiyi** beynəlxalq müqavilələr çərçivəsində əməl etdiyi **prinsip və normalar.**

- **Regionda miqrasiya meyllərinin, sistemlərinin və dialoqunun xüsusiyyətləri**

- Miqrasiya idarəçiliyi sistemləri hərtərəfli yanaşma tələb etdiyindən RTMM-in **miqrasiya mövzuları baxımından** da əhatəlilik məqsədi var (**insan hüquqları, gender və ətraf mühit** kimi qurumlararası məsələlər bu səbəbdən tam şəkildə əhatə ediləcək).

- MRTM geniş diapazonda maraqlı tərəflər ilə (Hökumət, QHT-lər, Miqrant assosasiyaları, hər yaşdan, cinsdən və mənşədən olan miqrantlar, ali təhsil müəssisələri, media, özəl sahibkarlıq) dialoq baxımından əhatəli olmağa çalışır. O, sinergiya və tərəfdaşlıq qurmaq məqsədi daşıyır.

1.2 Maraqlı tərəflər/hədəf qruplar və iştirak səviyyəsi

- Bir neçə dəfə xüsusi olaraq qeyd edildiyi kimi, MRTM iştirakçı ölkələr üçün təlim və regional siyasət dialoqu üçün bir forum təklif etmək məqsədi daşıyır. Bu səbəbdən bu təklif həm təlim, həm də regional siyasət dialoquna dair mövzuların müəyyən edilməsini tələb edir.

- Maraqlı tərəflərin müxtəlif kateqoriyaları arasında sinergiya üçün əlavə imkanlar yaratmağın MRTM-in əlavə dəyəri olduğu düşünüldüyündən, mövcud ilkin təklif, ümumiyyətlə, bütün maraqlı tərəfləri (fəaliyyətinin spesifikliyi nəzərə alınmaqla media istisna təşkil edir) əhatə edir.

- Bəzi siyasət dialoqlarının müəyyən bir həssaslıq səviyyəsinə malik ola biləcəyi səbəbindən, bu dialoqlar müstəsna olaraq VCT -ləri əhatə edə bilməz. Növbəti mərhələdə, yol xəritəsi ilə bağlı məsləhətləşmə prosesi, qarşıdakı seminarda iştirakçılar ilə müzakirə və sonrakı razılaşma əsasında, RTCM-in hər bir tədbirinin hədəf iştirakçılarını daha yaxşı müəyyənləşdirməyə imkan verəcəkdir.

- Bundan əlavə, bu təklifdə media və ali təhsil müəssisələri və miqrantlar üçün bəzi xüsusi fəaliyyətlər təklif edilmişdir.

- İştirakçıların səviyyəsi (yüksək səviyyədəki rəhbərlik, orta səviyyədəki rəhbərlik, təcrübəçilər) bu təklifdə müvəqqəti olaraq müəyyən edilir, lakin əlavə müzakirə və düzəlişlər tələb edəcək. Ümumiyyətlə, yüksək və orta səviyyəli menecerlərin siyasət dialoquna cəlb edilməsi planlaşdırılır.

1.3 <u>Növbəti mərhələ</u>

- Təlim ehtiyaclarının müəyyən edilməsi və MRTM üçün kurikulumun hazırlanması prosesi, MRTM -in inkişafının növbəti mərhələsində (sentyabr ayından başlayaraq) hökumət rəsmiləri və miqrasiya sahəsində bütün digər əsas maraqlı tərəflər ilə Yol Xəritəsi prosesi haqqında məsləhətləşmə aparıldıqda, daha da gücləndiriləcək.

- Aşağıdakı təklif, buna görə də, "davam edən iş" hesab edilməlidir və potensialın artırılması prioritetləri və Yol Xəritəsinin hazırlanması ilə bağlı qarşıdakı müzakirəni dəstəkləmək üçün strukturlu bir əsas təşkil edir.

2 MARAQLI TƏRƏFLƏR TƏRƏFİNDƏN İFADƏ EDİLƏN TƏLİM EHTİYACLARININ TƏQDİM EDİLMƏSİ

2.1 Təlim Ehtiyaclarına dair Yekun Cədvəl

Məsləhətləşmə prosesi zamanı hazırlanan əsas vasitələr Hökumətdən olan maraqlı tərəflər üçün hazırlanmış anket, xüsusilə Miqrasiya üzrə Qlobal Sazişin quruluşuna uyğun gələn **təlim ehtiyacları haqqında yekun cədvəldir**. Bu cədvəl məlumatların təhlilini asanlaşdırmaq üçün sadələşdirilmişdir, lakin maraqlı tərəflərdən alınan bütün məlumatları onların asanlıqla istifadə və təhlil edilə biləcəyi şəkildə təqdim edir.

Yekun Cədvəl 7 (4 -ən yüksək prioritetin, 1 ən aşağı prioritetin qiymətini müəyyən edir)

	Azərbaycan	Belarusiya	Gürcüstan	İran	Qazaxıstan	Qırğızıstan	Moldova	Rusiya Federasiyası	Tacikistan	Türkiyə	Türkmənistan	Ukrayna
1. Beynəlxalq miqrasiyanın qlobal konteksti	4	4	4	3			4			3	Mövcud deyil	Mövcud deyil
2.Miqrasiya üzrə beynəlxalq əməkdaşlıq	4		3	4			4				Mövcud deyil	Mövcud deyil
3. Beynəlxalq Miqrasiya Qanunu	4		3	3			4				Mövcud deyil	Mövcud deyil
4. Miqrantların insan hüquqları	3	4	3	2			3			3	Mövcud deyil	Mövcud deyil
5.Gender və miqrasiya	3	4	4				3			3	Mövcud deyil	Mövcud deyil
6.Uşaqlar və miqrasiya	3	4	4	3			3			3	Mövcud deyil	Mövcud deyil
7. Miqranların zorakılığa, istismara və sui-istifadəyə qarşı həssaslığı	3	4	4	4			3			3	Mövcud deyil	Mövcud deyil
8. Miqrasiya idarəçiliyi və siyasət dövrü	4		3	3			4			3	Mövcud deyil	Mövcud deyil
9. Miqrasiyaya üzrə əlaqə (məlumatlandırma)	4		3	3			4			3	Mövcud deyil	Mövcud deyil
10. Gəliş öncəsi asanlaşdırma: pasport və viza idarəçiliyi	4		4	3			Mövcud deyil			3	Mövcud deyil	Mövcud deyil
11. Miqrasiyanın tənzimlənməsi:sərhəd idarəçili	4		4	3			Mövcud deyil				Mövcud deyil	Mövcud deyil
12. Miqrasiya və inkişaf	4		4				4				Mövcud deyil	Mövcud deyil
13. Əmək miqrasiyası və hərəkətlilik	4	3	4				3				Mövcud deyil	Mövcud deyil

14. Ailə və miqrasiya	4	4	4	3			3				Mövcud deyil	Mövcud deyil
15.Gənclik və miqrasiya	3	4	3	3			3				Mövcud deyil	Mövcud deyil
16. Sağlamlıq və miqrasiya	3	3	3				3				Mövcud deyil	Mövcud deyil
17. İnteqrasiya və Sosial birlik	4	3	3	3			4			3	Mövcud deyil	Mövcud deyil
18. Miqrasiya, ətraf mühit və iqlim dəyişikliyi	3		2	3			1			3	Mövcud deyil	Mövcud deyil
19.Miqrant qaçaqçılığı	4		4	3			1			3	Mövcud deyil	Mövcud deyil
20. İnsan alveri və onunla əlaqəli istismar və sui-istifadə formaları	3		4	3			1			3	Mövcud deyil	Mövcud deyil
21. Miqrantların qayıdışı və reinteqrasiyası	4		4	3			4			3	Mövcud deyil	Mövcud deyil
22. Böhranların hərəkətlilik aspektləri	4		3	3			4				Mövcud deyil	Mövcud deyil

2.2 Cədvəlin təhlili

- ✓ Çox maraqlıdır ki, Miqrasiya üzrə Qlobal Sazişin bütün fəsilləri, bir fəsil istisna olmaqla (vacibliyi əsasən İran tərəfindən tanınan ətraf mühit) heç olmazsa, bir dəfə hər bir ölkənin maraqlı tərəfləri tərəfindən əsas prioritet ehtiyaclar olaraq xüsusi qeyd olunmuşdur (Cədvəldə 4 -cü dəyər).

- ✓ Anketlərin və müsahibə qeydlərinin təhlili, bütün maraqlı tərəflər tərəfindən potensialın artırılması ehtiyacları baxımından geniş bir cavab səviyyəsi olduğunu göstərir. Bu, hökumətlərin sektordakı çatışmazlıqları müvəqqəti olaraq aradan qaldırmaqdansa, hərtərəfli miqrasiya sistemlərinin qurulmasının vacibliyi haqqında tam şəkildə məlumatlı olduqlarını nümayiş etdirməyə meyllidir.

2.2.1 Yaxşı Rəhbərlik və İdarəetməninin əsasları:

- ✓ Matrisanın 1-ci Fəsli, **Qlobal Miqrasiyanın Beynəlxalq Konteksti,** elə bir sahədir ki, ümumiyyətlə onun yüksək əhəmiyyət kəsb edən sahə olduğu hesab olunur. Aşağıdakılar xüsusi əhəmiyyətə malikdir:

    - Miqrasiya və digər transmilli məsələlər arasında əlaqə

- Beynəlxalq Miqrasiyanın İdarə Edilməsində Beynəlxalq Əməkdaşlıq

✓ Matrisanın 2 -ci Fəsli **(Miqrantların İnsan Hüquqları)** da yüksək əhəmiyyəti olduğu hesab edilən bir sahədir. Bu, məntiqi olaraq Beynəlxalq Miqrasiya Qanununa və beynəlxalq əməkdaşlığa güclü maraq səviyyəsi ilə müşayiət olunur (Fəsil 2 və 3). Miqrantların hüquqlarının müdafiəsinə bu dərin maraq **5 -ci Bölməyə (Gender və Miqrasiya), 6 -cı Bölməyə (Uşaqlar və Miqrasiya) və 7 -ci Bölməyə dair (Miqrantların zorakılığa, istismara və sui-istifadəyə həssaslığı) cavablandırmanın yüksək səviyyədə olması** ilə daha da sübut olunur. Bu, həmçinin Fəsil 20-yə **(İnsan alveri və onunla əlaqəli istismar və sui -istifadə formaları)** olan maraq səviyyəsində də əks olunur.

✓ Nəhayət, 8 -ci Fəsil **(Miqrasiya İdarəçiliyi və Siyasət Dövrü)** və 9-cu Fəsil **(Miqrasiya üzrə Əlaqə),** 1-ci Bölmə "Yaxşı Rəhbərlik və İdarəetmənin Əsasları" bəzi maraqlı tərəflərdən güclü cavab gəldiyini göstərir.

- **Çatışmazlıqların Təhlili** üzrə Fəsildə (Bu hesabatın 1 -ci Fəsli) göstərildiyi kimi, bir neçə hökumət hərtərəfli miqrasiya idarəetmə strategiyaları hazırlamaq prosesindədir və bunun üçün BMqT-nin dəstəyini alırlar, digərləri bu strategiyanın hazırlanmasının ilkin mərhələsindədir. Miqrasiya idarəçiliyində siyasət dövrü potensialın artırılmasında əsas tələbdir. Regiondakı maraqlı tərəflər məlumat vermədə, monitorinqdə və dəyərləndirmədə problemlər və çatışmazlıqlar olduğunu bildirirlər. Bildirilən prioritet ehtiyaclar bütün sahələrdədir:

  - Miqrasiya siyasətinin hazırlanması (siyasət çərçivəsinin müəyyənləşdirilməsi-DİM-lər, Miqrasiya üzrə Qlobal Saziş və s., idarələrarası dialoq, siyasətin formalaşdırılması, müzakirəsi və qəbulu kimi sahələr daxil olmaqla)
  - Beynəlxalq təşkilatların və VCT-lərin rolu, miqrantların cəlb edilməsi, genderin ön plana çəkilməsi və s.)
  - Siyasəti qəbul edənlər üçün məlumatların tədqiqatı və təhlili (məlumatların toplanması və təhlili üsulları, şəxsi məlumatların qorunması, miqrasiyaya dair anlayışlar, gender üzrə ayrılmış məlumatlar və s.).
  - Həyata keçirilmə, monitorinq və dəyərləndirmə

- Çatışmazlıqların Təhlili Fəslinin (bu hesabatın 1-ci Fəsli) nəticələrinin sübut etdiyi kimi miqrasiyaya dair məlumatlarn verilməsinin regionda böyük bir çatışmazlıq olduğu görünür. Bu məsələ, xüsusilə terminologiya və Miqrasiya hadisələrinin işıqlandırılması baxımından media üçün çox əhəmiyyətlidir.

2.2.2 Miqrasiya Rəhbərliyi və İdarəçiliyinin Əsas Sahələri

✓ **Miqrasiyanın Sosial və İnsani Perspektivləri də maraqlı tərəflər tərəfindən ifadə edilən çox güclü prioritetlərdir.** Fəsil 14 (**Ailə və Miqrasiya**) Fəsil 15 (**Gənclik və Miqrasiya**), Fəsil 16 (**Sağlamlıq və Miqrasiya**) və Fəsil 17 **(İnteqrasiya və Sosial Birlik**) komponentlərinə göstərilən yüksək maraq bunu sübut edir.

- ✓ **Miqrantların qayıdışı və reinteqrasiyası** da maraqlı tərəflər üçün əsas prioritetdir. Qayıdış və reinteqrasiya ilə bağlı bu maraq, xüsusilə könüllü və məcburi qayıdış və qayıdışdan sonra reinteqrasiya mövzuları üzrə ifadə olunur.

- ✓ **Böhranın hərəkətlilik aspekti** ilə bağlı 22 -ci Fəsil, xüsusən də bərpa və həll yolları sahəsində, lakin bununla məhdudlaşmadan, maraqlı tərəflərin yüksək səviyyədə marağına səbəb olmuşdur.

- ✓ **Əmək Miqrasiyası** (13-cü Fəsil), nisbətən az sayda ölkə tərəfindən ifadə edilən güclü bir maraqla təzadlı bir mənzərə yaradır. Ancaq bu mənzərə, xüsusən Orta Asiya üçün, müsahibənin nəticəsi ilə tamamlanmalıdır (Orta Asiyada yalnız bir anket doldurulmuşdur, lakin bir neçə məsləhətləşmə görüşü keçirilmişdir).

  Beş Orta Asiya ölkəsində Əmək Miqrasiyası sahəsində əsas çatışmazlıqlar və ehtiyaclar müəyyən edilmişdir (onlar bu hesabatın 1-ci Fəslində- **Çatışmazlıqların Təhlilində** və bu hesabatın 2-ci fəslində - **"Ölkə Hesabatları"nda** müfəssəl şəkildə təqdim edilmişdir. Əmək Miqrasiyası bu ölkələrin hamısında (və yalnız bu ölkələrdə deyil) çatışmazlıq kimi xüsusi qeyd edilmişdir. Ümumiyyətlə, Region üçün prioritet mövzular aşağıdakı kimi müəyyən edilmişdir:

  - Əmək miqrasiyasının növləri və hərəkətlilik (bir neçə ölkədən miqrasiyanın mövsümi və dairəvi formasına haqqında böyük maraq var)
  - Əmək miqrasiyası və hərəkətliliyə dair siyasətin hazırlanması
  - Milli əmək bazarlarına çıxış (xüsusən də əmək bazarının ehtiyaclarına uyğun olma)

- ✓ **Miqrasiya və İnkişaf üzrə 12-ci Fəsil, iştirakçılar arasında daha ziddiyyətli bir maraq səviyyəsinə malıkdir**. Çatışmazlıqların təhlilindən (bu hesabatın 1-ci Fəsli) göründüyü kimi, bu iş sahəsi regionun bir çox ölkələrində siyasətin hazırlanması baxımından hələ də lazımi səviyyədə inkişaf etdirilməmişdir.

  Bu səbəbdən, belə ölkələrin özləri üçün bu cür potensial artırma fəaliyyətlərinin tam potensialını görməməsi məntiqlidir. Bəzi ölkələr, xüsusən xaricdə böyük diasporası olan ölkələr, miqrasiyanın milli inkişaf üzərindəki potensialının şahidi olmuşdur, lakin bu sahədə əldə edilmiş güclü nailiyyətlərinə baxmayaraq, bu məsələni MRTM kontekstində yenə də davam etdirmək istəyirlər.

- ✓ **Sərhəd İdarəçiliyi** (Fəsil 11) və pasport və viza idarəçiliyinin, maraqlı tərəflər üçün daha az dərəcədə prioritet olduğu və onlarda daha az maraq doğurduğu məlum olur. Bu, bu hesabatın **Çatışmazlıqların Təhlili** fəslində sübut olaraq göstərildiyi kimi Sərhəd İdarəçiliyinin bəzi möhkəm elementlərinin BMqT və ya digər tərəfdaşların dəstəyi ilə artıq həmin ölkələrdə mövcud olması faktı ilə izah edilə bilər (BOMCA layihəsi üçün Orta Asiyada Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəz kimi).

  Bununla birlikdə, regionun əksər ölkələrində əhəmiyyətli çatışmazlıqlar müəyyən edilmişdir (ətraflı məlumat üçün Çatışmazlıqların Təhlili Fəslinə baxın). Bu çatışmazlıqlar, xüsusən aşağıdakılardır: İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi sisteminə ehtiyac və miqrantların insan hüquqlarının identifikasiya, istiqamətləndirmə və müdafiə sistemlərinə inteqrasiyasıyası).

Məsləhətləşmə prosesində aparılan müsahibələrdə qanunsuz miqrantların saxlanma şəraiti və saxlanmanın alternativləri də maraqlı tərəflər tərəfindən prioritet olaraq müəyyən edilmişdir.

- ✓ 18-ci Fəsilə, **Miqrasiya, Ətraf Mühit və İqlim Dəyişikliyinə** gəldikdə isə, ümumiyyətlə bu, maraqlı tərəflər arasında daha aşağı prioritet səviyyəsinə cavab verir (yuxarıda sübut edildiyi kimi və xüsusilə də Türkiyədə baş verən son yanğınlar səbəbindən, bu, artıq ən yüksək səviyyəli miqrasiya prioritetidir). Bununla belə, maraqlı tərəflər bu mövzunu prioritet ehtiyac kimi qəbul etməsələr də, bu mövzuya dair maraqlarını ifadə edirlər. Bu cür nisbətən aşağı maraq səviyyəsi, maraqlı tərəflərin əksəriyyətinin bu inkişaf sahəsinin məcburi miqrasiya üzərindəki təsirini bu gün və yaxın gələcəkdə tam ölçə bilməməsi faktı ilə izah edilə bilər. Potensialın artırılması fəaliyyətləri bilik səviyyəsini və öz növbəsində maraq səviyyəsini və onun yüksək dərəcədə vacibliyinin dərk edilməsi səviyyəsini artıracaq.

2.3 Nəticələr

Maraqlı tərəflər tərəfindən müəyyən edilmiş bu ehtiyaclar, bu **Təhlilin** artıq təsvir edilmiş məhdudiyyətləri nəzərə alınmaqla ilkin mərhələdə əks olunsa da (bu hesabatda Giriş bölməsinə baxın), maraqlı tərəflərin təqdim etdiyi potensialin artırılması sahəsindəki ehtiyaclarının onların Miqrasiya İdarəçiliyindəki çatışmazlıqlara uyğun gəldiyini göstərməyə meyllidir. Yalnız bu, MRTM çərçivəsində tam səmərəli dialoq və regional potensialın artırılması üçün əla zəmin təşkil edir.

Növbəti fəsildə **MRTM üçün ilkin kurikulum** tərtib etmək cəhdi təqdim edilir. Bu məsələ MRTM-in yaradılması üzrə DMX/BMqT Layihəsinin həyata keçirilməsinin növbəti mərhələsində davamlı şəkildə müzakirə olunacaq və ona yenidən baxılacaq.

FƏSİL 4

MRTM-in MİQRASİYA ÜZRƏ KURİKULUMU PLANININ LAYİHƏSİ

1. GİRİŞ

Aşağıdakı təklif layihəsi, aşağıda verilən prinsiplərə və məqsədlərə əsaslanır:

- Siyasətin hazırlanması və həyata keçirilməsində əsas çatışmazlıqların, həmçinin potensialın artırılması ehtiyaclarının müəyyənləşdirilməsini təmin etmək;
- Regionda **artıq mövcud olan potensialın artırılması proseslərini tamamlamaq** və regiondakı xüsusi ehtiyaclar üzərində düşünmək;
- Həmçinin seçilmiş mövzular vasitəsi ilə regional sinergiyaları/dialoqları gücləndirmək;
- Ümumi insan hüquqları platformasına (Miqrasiya üzrə Qlobal Saziş daxil olmaqla) və regionda mövcud olan qabaqcıl təcrübələrə əsaslanmaq və beləliklə, regional dialoq yolu ilə bu qabaqcıl təcrübələrin regionda hər kəs üçün əlçatanlığını təmin etmək;
- Nəhayət, Hökumətdən olan maraqlı tərəflər ilə VCT-lər arasında sinergiyaları gücləndirmək.

Bu təklif, Yol Xəritəsinin hazırlanması yolu ilə MRTM-in fəaliyyəti ilə bağlı gələcək məsləhətləşmələr/dialoq üçün əsas olacaq. O, Yol Xəritəsinin hazırlanması nəticəsinə heç bir təsir etmək məqsədi daşımır, lakin prosesi asanlaşdırmağa yönəldilmişdir.

Regiondakı bütün maraqlı tərəflər ilə sinergiya yaratmaq üçün aşağıda təklif olunan potensialın artırılması fəaliyyətlərinin əksəriyyəti, əsas qeyri-hökumət tərəfdaşlar ilə birlikdə Hökumətdən olan maraqlı tərəfləri də əhatə edir. Lakin:

- Siyasət dialoqunun müəyyən dərəcədə həssaslıq təşkil edə biləcəyi bəzi fəaliyyətlər üçün yalnız Hökumətdən olan maraqlı tərəflərin iştirakı nəzərdə tutulur/təklif olunur;

- Xüsusi məqsədli fəaliyyətlər (bu halda medianın daxil edilməsi xüsusi olaraq qeyd olunur) istisna olmaqla, media bir qayda olaraq fəaliyyətlərə daxil edilmir.

Maraqlı tərəflərin iştirak səviyyəsinə gəldikdə, siyasət dialoqu məntiqi olaraq siyasəti qabul edənlər ilə (yüksək və/və ya orta səviyyəli rəhbərlik) aparılır, eyni zamanda təlim və həyata keçirilmə məsələləri siyasəti həyata keçirənlər üçün saxlanılır.

Bu ilkin mərhələdə potensialın artırılması fəaliyyətlərinin formatı müəyyən edilməmişdir. Aşağıdakı təklif layihəsinin potensial artırılması fəaliyyətlərinin onsuz da uzun bir siyahısını əhatə etdiyi aydındır, kurikulumun hazırlanmasının növbəti mərhələsində bu prioritetlər arasında prioritetlərin müəyyən edilməsi problemi ilə üzləşiləcək (tədbirlərin formatından/müddətindən asılı olaraq, təklif olunan bəzi fəaliyyətlər bir tədbirdə birləşdirilə bilər). Hər bir tədbirin davam etmə müddəti də fərqli olacaq (media üçün brifinq ənənəvi olaraq mürəkkəb məsələlər üzrə siyasət müzakirəsindən daha qısa olacaq).

2. KURİKULUM TƏKLİFİNİN/ PLANININ LAYİHƏSİ

HİSSƏ 1 MİQRASİYA ÜZRƏ YAXŞI RƏHBƏRLİYİN ƏSASLARI

Modul 1 Beynəlxalq Miqrasiyanın Qlobal Konteksti

- **Beynəlxalq miqrasiya kontekstində COVID 19 ilə bağlı problemlər və cavab tədbirləri** ***(Pandemiyanın qısamüddətli gələcək inkişafından asılı olaraq)***
  Bütün maraqlı tərəflər
  Siyasət səviyyəsi

- **Miqrasiya idarəçiliyinin həyata keçirilməsini dəstəkləmək üçün yeni texnologiyalar və innovativ vasitə (Beynəlxalq Təşkilatların və Dövlətlərin qabaqcıl təcrübələri)**
  Hökumətdən olan maraqlı tərəflər
  Həyata keçirilmə səviyyəsi

- **Miqrasiya və digər transmilli məsələlər arasındakı əlaqələr**
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasət səviyyəsi

- **Regionda Qadınların Miqrasiyası (bütün miqrasiya kateqoriyaları), tendensiyaları və xüsusiyyətləri haqqında ümumi məlumat (Regionda Qadınların Miqrasiyası üzrə tədqiqatlara gətirib çıxaran)**
  Bütün maraqlı tərəflər- Prosesə ali təhsil müəssisələri rəhbərlik edir
  Siyasət səviyyəsi +Tədqiqatçılar

Modul 2. Miqrasiya üzrə Beynəlxalq Əməkdaşlıq

- **Beynəlxalq Miqrasiyanın İdarə Edilməsində Beynəlxalq Əməkdaşlığın rolu** (Beynəlxalq iştirakçıların /proqramların təqdimatı, Aİ tərəfdaşlığı və s.)
  Bütün maraqlı tərəflər
  Siyasət + həyata keçirilmə səviyyələri

- **Miqrasiya üzrə Qlobal Saziş və Miqrasiya İdarəçiliyi**, yeni imkanlar və əməkdaşlıq yolları, Miqrasiya üzrə Qlobal Saziş haqqında təqdimat və BMT-nin Miqrasiya üzrə Şəbəkəsində (UNNM) iştirak edən ölkələrin qabaqcıl təcrübələrinin paylaşılması (VCT-lərdən gələn rəylər də daxil olmaqla)
- **Bütün maraqlı tərəflər**
- **Siyasət səviyyəsi**

- 2022-ci ildə keçiriləcək **Beynəlxalq Miqrasiya İcmalı Forumunun** (IMRF) Nəticələrinin Təqdimatı (bütün maraqlı tərəflərin iştirakı)
  Bütün maraqlı tərəflər
  Siyasət səviyyəsi

- **Maliyyə vəsaitinin toplanması strategiyası, donorların səfərbərliyi və bütün kateqoriya maraqlı tərəflər üçün mövcud olan layihə təkliflərinin/tenderin və büdcə xətlərinin hazırlanması**
  Bütün maraqlı tərəflər (VCT-lər üçün prioritet)
  Bütün səviyyələr

- Güclü gender komponenti ilə (hər cinsdən və hər mənşədən olan miqrantların məsləhətləşmə prosesinə daxil olmasını təmin etmək üçün) **siyasət dövrünün bütün mərhələlərində** (siyasətin hazırlanması və həyata keçirilməsi, ehtiyacların qiymətləndirilməsi, proqramların və layihələrin qiymətləndirilməsi və s.) **miqrantlar ilə məsləhətləşmə prosesinə dair qabaqcıl təcrübələrin mübadiləsi**
  Bütün maraqlı tərəflər (Miqrant assosasiyaları daxil olmaqla)
  Bütün səviyyələr

- Özəl Sektorun iştirakı, iştirakın tipologiyasının təqdimatı və qabaqcıl təcrübə mübadiləsi (Beynəlxalq təşkilatlardan, hökumətlərdən, VCT-lərdən, o cümlədən regionun xaricindəki ölkələrdən qabaqcıl təcrübələr)
  Bütün maraqlı tərəflər
  Siyasət səviyyəsi

- **Tədqiqat və Miqrasiya** üzrə siyasət dialoqu (görkəmli ali təhsil müəssisəsin nümayəndəsi ilə) və əməkdaşlığın gücləndirilməsi üçün qabaqcıl təcrübə və yolların mübadiləsi
  Hökumət + ali təhsil müəssisələri + media + digər VCT-lər
  Siyasət səviyyəsi +Tədqiqatçılar

Modul 3 Beynəlxalq Miqrasiya Qanunu

- **Beynəlxalq Miqrasiya Qanunu və onunla uyğunluğu təmin edən mexanizmlərinin Təqdimatı**
  Gənc tələbə və gənc miqrantlar üçün

Modul 4 Miqrantların İnsan Hüquqları

- **Milli Azlıqlara mənsub şəxslərin** müdafiəsi ilə bağlı beynəlxalq standartlar və məcburi yerdəyişmənin qarşısının alınmasında, qayıdış və reintinteqrasiyada milli azlıqların hüquqlarının müdafiəsinin rolu
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasət səviyyəsi

- Miqrantların hüquqlarının ölkələrin İnsan Hüquqlarına dair Milli Strategiyalarına daxil edilməsinə dair siyasət dialoqu və qabaqcıl təcrübələrin mübadiləsi
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasət səviyyəsi

- Beynəlxalq standartlar və Miqrantların (bütün kateqoriyalar) və onların ailələrinin insan hüquqları mövzusunda təlim
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Bütün səviyyələr

- Miqrantların (bütün kateqoriyalar) hüquqlarının müdafiəsində AİHK-in (və AİHM-in Presedent hüququnun) rolu
  Avropa Şurası ölkələrində VCT-lər
  Bütün səviyyələr

- **Vətəndaşsızlığın qarşısının alınması və azaldılması** və regionda qabaqcıl təcrübələrin mübadiləsi ilə bağlı beynəlxalq norma və standartlar
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasət səviyyəsi

Modul 5 Gender və Miqrasiya

Bütün Gender və Miqrasiya potensialının artırılması fəaliyyətləri kurikulumun bütün sahələrinə daxil edilməlidir. Aşağıdakı sahələrdə gender potensialın artırılması ilə bağlı xüsusi fəaliyyətlər təklif olunur:

- **Regionda Qadınların Miqrasiyası (bütün miqrasiya kateqoriyaları), tendensiyaları və xüsusiyyətləri haqqında ümumi məlumat (Regionda Qadınların Miqrasiyası üzrə tədqiqatlara gətirib çıxaran)**
  Bütün maraqlı tərəflər- Prosesə ali təhsil müəssisələri rəhbərlik edir
  Siyasət səviyyəsi +Tədqiqatçılar

- **Qadınlar böhran vəziyyətində və gender-əsaslı zorakılıq**: Beynəlxalq standartlar, **gender-əsaslı zorakılığın qarşısının alınması və ona qarşı cavab tədbirləri** (Beynəlxalq normalar və qabaqcıl təcrübələr) və **münaqişələrin qarşısının alınmasında və münaqişədən sonrakı barışıqda qadınların rolu**
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər

- **Qadın miqrantların inkişafda rolu** (miqrasiya ölkəsi və mənşə ölkə)
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər (ali təhsil müəssisələri daxil olmaqla)
  Siyasəti qəbul edənlər

Modul 6 Uşaqlar və Miqrasiya

- Miqrant Uşaqların Əsas Hüquqları (müşayiət olunmayan və təcrid olunmuş azyaşlılar, miqrant uşaqların təhsilə çıxış imkanı və s. daxil olmaqla).

Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
Bütün səviyyələr

Modul 8 Miqrasiya İdarəçiliyi və Siyasət Dövrü

- **Siyasətin qəbulu və siyasətin həyata keçirilməsi dövrü**: miqrasiya siyasətinin hazırlanması (formalaşdırılma, məsləhətləşmə (müzakirə), koordinasiya, qəbulu (gender, yaş və müxtəlifliyin miqrasiyanın planlaşdırılması və həyata keçirilməsinə daxil edilməsi, DİM-lərin rolu və s. haqqında qabaqcıl təcrübələrin mübadiləsi daxil olmaqla)
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasət səviyyəsi + Təcrübəçilər

- **Miqrasiya sahəsində məlumatların toplanması və təhlili və məlumatların qorunması sistemlərinin möhkəmləndirilməsi** (gender komponentini daxil etmək) **və sübuta əsaslanan miqrasiya məlumatlarının verilməsi** üzrə vasitələr və qabaqcıl təcrübələr
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasət səviyyəsi + Təcrübəçilər

- Miqrasiya üzrə İnstitusional Çərçivə (əsas komponentlər) və koordinasiya mexanizmləri, Beynəlxalq təşkilatların dəstəyi və s.) üzrə qabaqcıl təcrübələr
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasət səviyyəsi + Təcrübəçilər

Modul 9 Miqrasiyaya dair məlumatlandırma

- **Media qurumları** üçün Beynəlxalq miqrasiya haqqında məlumat verərkən istifadə etdikləri məlumatları anlamağa və əlavə məlumat mənbələri haqqında məlumat əldə etməyə imkan verən seminar
  MEDİA

- **Media üçün Miqrasiyaya dair məlumatlarının verilməsi üzrə Təlim** (Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəzin Təlimat Kitabı və s.)
  MEDİA

- Məlumatlandırmada (əlaqədə) irqçilik və ksenofobiyaya qarşı mübarizə aparmaq və Beynəlxalq normalar və qabaqcıl təcrübələr haqqında məlumat vermək
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər + Media
  Siyasət səviyyəsi

HİSSƏ 2 MİQRASİYA RƏHBƏRLİYİNİN VƏ İDARƏÇİLİYİNİN ƏSAS SAHƏLƏRİ

Modul 11 Miqrasiyanın Tənzimləməsi: Sərhəd İdarəçiliyi

- Beynəlxalq sərhədlərdə sığınacaq axtaranların və digər həssas qrupların müdafiəsi üçün İdentifikasiya və İstiqamətləndirmə mexanizmlərinə dair beynəlxalq standartlar və qabaqcıl təcrübələr
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər səviyyəsi

- İnteqrə Edilmiş Sərhəd İdarəçiliyi komponentləri və regiondakı qabaqcıl təcrübələrə dair təqdimat
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasəti qəbul edənlər səviyyəsi və Siyasəti həyata keçirənlər

- Miqrasiya sahəsində **Risklərin Təhlili** və kəşfiyyat məlumatlarının toplanması (BMqT, FRONTEKS və s.)
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasəti qəbul edənlər səviyyəsi

- **Qeyri-qanuni miqrantların qəbulu və saxlanması** ilə bağlı standartlar və qabaqcıl təcrübələr (saxlanmanın alternativləri, uşaq hüquqları, ailə birliyi prinsipi və s. daxil olmaqla)
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasəti qəbul edənlər səviyyəsi

Modul 12 Miqrasiya və İnkişaf

- Miqrasiyanın inkişaf strategiyalarına və Planına daxil edilməsi üçün metodologiya, vasitə və qabaqcıl təcrübələrin təqdimatı
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasəti qəbul edənlər + Siyasəti həyata keçirənlər

- Mənşə ölkədə diasporanın cəlb edilməsi üçün qabaqcıl təcrübə mübadiləsi (qabaqcıl təcrübələr, Mərakeş kimi region xaricində olan ölkələri də əhatə edə bilər)
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər (diaspora nümayəndələri daxil olmaqla)
  Siyasəti həyata keçirənlər

- Qadın miqrantların inkişafda rolu (miqrasiya ölkəsi və mənşə ölkə)
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər (ali təhsil müəssisələri daxil olmaqla)
  Siyasəti qəbul edənlər

- "Tərk edilmiş" ailələr, problemlərin və imkanların müəyyən edilməsi və mövcud qabaqcıl təcrübələrin təqdim edilməsi (pul köçürmələri daxil olmaqla)
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti həyata keçirənlər

Modul 13 Əmək Miqrasiyası və Hərəkətlilik

- Əməkçi miqrantların və onların ailələrinin müdafiəsi üzrə Beynəlxalq və Avropa Standartları (BMT və BƏT Konvensiyaları)

- **Hər bir miqrant kateqoriyasının və onların ailələrinin sənədləşdirilməsi** üzrə standartlar və qabaqcıl təcrübələr
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasəti həyata keçirənlər

- **"Beynəlxalq Hərəkətliliyin qarşılıqlı faydalılığı":** Beyin axını və Beyin inkisinin qarşısını almaq və həll etmək üçün siyasət və vasitələrə dair qabaqcıl təcrübə mübadiləsi
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər

- **Miqrantların qəbuluna dair standartlar** üzrə qabaqcıl təcrübələr (Bir pəncərə sistemi)
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər

- **Tələbələrin Hərəkətliliyi** üzrə qabaqcıl təcrübələrin mübadiləsi (ali təhsil müəssisələri ilə regional və beynəlxalq əməkdaşlıq, diplom və ixtisasların tanınması və əmək miqrasiyası ilə əlaqələr daxil olmaqla)
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər (ali təhsil müəssisələləri ilə)
  Siyasəti qəbul edənlər + Siyasəti həyata keçirənlər

- **Mövsümi və dairəvi miqrasiya,** anlayışlar və qabaqcıl təcrübələr **(miqrantların hüquqları daxil olmaqla, gender perspektivi ilə)**
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər

- Anlayışı, cəlbedici siyasətlər üzrə qabaqcıl təcrübələr (xarici investorların hüquqi statusu daxil olmaqla (qabaqcıl təcrübələr)
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər

- **Miqrantların inteqrasiyası,** standartlar, indikatorlar və qabaqcıl təcrübələr
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər

- **Miqrantların milli əmək bazarlarına çıxışını artırmaq** üçün siyasət və vasitələr (əmək bazarının təhlili və əmək bazarının ehtiyaclarına uyğun olma)
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasəti qəbul edənlər

Modul 14 Ailə və Miqrasiya

- **Miqrantların İnteqrasiyasına** dair standartlar və qabaqcıl təcrübələr
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər

- **Ailənin qovuşması, ailənin yenidən birləşməsi və ailənin birliyi prinsipi** ilə bağlı standartlar və qabaqcıl təcrübələr haqqında təlim
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər + Siyasəti həyata keçirənlər

Modul 16 Sağlamlıq və Miqrasiya

- Qlobal pandemiya şəraitində miqrantların sağlamlığının əsas aspektləri (psixi sağlamlıq daxil olmaqla) və sağlamlıq xidmətlərinə çıxış imkanı
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər + Siyasəti həyata keçirənlər

Modul 18 Miqrasiya, Ətraf Mühit və İqlim Dəyişikliyi

- Ətraf mühit və İqlim dəyişikliyi və miqrasiyaya aid olan beynəlxalq standartlar və qabaqcıl təcrübələr (o cümlədən region xaricindən)
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər + Siyasəti həyata keçirənlər

- **İqlim dəyişikliyi və təbii fəlakətlə əlaqəli yerdəyişmə**, qarşısının alınması və cavab tədbirləri ilə **bağlı qabaqcıl təcrübə mübadiləsi** (o cümlədən, region xaricindən) daxil olmaqla **mövcud və gələcək regional problemlər haqqında təqdimat**
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər

Modul 20 İnsan Alveri və onunla əlaqəli Sui -istifadə və İstismar formaları

- İnsan alveri ilə əlaqəli beynəlxalq norma və standartlar və insan alverinə qarşı mübarizə təşkilatları, cinayətkarların məhkəmə təqibi, qurbanların müdafiəsi (Palermo protokolu, Təhlükəsiz evlər və s.) üzrə qabaqcıl təcrubələrin mübadiləsi

Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
Siyasəti qəbul edənlər + Siyasəti həyata keçirənlər

Modul 21 Miqrantların Qaytarılması və Reinteqrasiyası

- Üçüncü ölkə vətəndaşlarının qaytarılması üzrə beynəlxalq standartlar və qabaqcıl təcrübələr (Readmissiya Sazişləri daxil olmaqla)
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasəti qəbul edənlər + Siyasəti həyata keçirənlər

Modul 22 Böhranın Hərəkətlilik Aspekti

- Əfqanıstan böhranının miqrasiya perspektivi, fövqəladə hallar üzrə fəaliyyət planı hazırlamaq, fövqəladə hallara hazır olma və regional yanaşmaların axtarışı (məlumat mübadiləsi, məsuliyyət bölgüsü mexanizmləri, o cümlədən region xaricindən və s.).
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasəti qəbul edənlər

- **Qadınlar böhran vəziyyətində və gender-əsaslı zorakılıq**: Beynəlxalq standartlar, **gender-əsaslı zorakılığın qarşısının alınması və ona qarşı cavab tədbirləri** (Beynəlxalq normalar və qabaqcıl təcrübələr) və münaqişələrin qarşısının alınmasında və münaqişədən sonrakı barışıqda qadınların rolu (BMT Qətnamələri, qadınlar sülh yaradıcısı kimi və s ilə əlaqəli qabaqcıl təcrübələr və s.)
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər
  Siyasəti qəbul edənlər

- **Miqrantların və qaçqınların ölkəyə kütləvi axını şəraitində məsuliyyət bölgüsü**, onun praktiki reallaşdırılması (siyasət və təcrübələr) və gələcək planlara dair siyasət dialoqu
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasəti qəbul edənlər

- Köməkçi müdafiə məfhumu, norma və standartlar və qabaqcıl təcrübələrin paylaşılması
  Hökumətdən olan maraqlı tərəflər
  Siyasəti qəbul edənlər + Siyasəti həyata keçirənlər

- Humanitar Hüquqla bağlı Beynəlxalq Standartlar (Cenevrə Konvensiyaları)
  Hökumətdən olan maraqlı tərəflər + VCT-lər + ali təhsil müəssisələri
  Siyasəti həyata keçirənlər

ƏLAVƏLƏRİN SİYAHISI

Əlavə 1:	Texniki Tapşırıq
Əlavə 2:	Tədqiqat Metodologiyası
Əlavə 3:	İş Planı
Əlavə 4:	Hökumətdən olan maraqlı tərəflər üçün Anket
Əlavə 5:	Vətəndaş Cəmiyyəti Təşkilatları üçün Anket
Əlavə 6:	Media üçün Anket
Əlavə 7:	Məsləhətləşmə Prosesində iştirak edən Təşkilatlar və Maraqlı Tərəflərə dair Yekun Cədvəl
Əlavə 8:	Ölkə Hesabatları (= 13)
Əlavə 9:	Beynəlxalq Alətlərin Ratifikasiyası haqqında Yekun Cədvəllər